Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On dördüncü sessiya
Payız

58-ci cild

19 – 22 dekabr 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XIV SESSİYASI İCLASININ

# PROTOKOLU № 154

*Milli Məclisin iclas salonu.*
*19 dekabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 100 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Bahar Muradova**, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Taliyə İbrahimova**, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri.

**Teymur Məmmədov**, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin köməkçisi.

**Sevinc Məmmədova**, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Qadın və gender məsələləri şöbəsinin əməkdaşı.

**Aysel Səmədova**, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kadr və kargüzarlıq şöbəsinin əməkdaşı.

**Elçin Əliyev**, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Elnur Abbasov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri.

**Fazil Talıbov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatı.

2. “Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və ya konsulluq əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyətinə cəlb edilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. “Antiinhisar fəaliyyəti haqqında”, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Mülki müdafiə haqqında”, “Taxıl haqqında”, “Milli təhlükəsizlik haqqında”, “Dövlət sirri haqqında”, “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” və “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azər-

baycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. “Məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

17. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

18. "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

19. "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

20. Arbitraj haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

21. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

22. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

23. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsi (birinci oxunuş).

24. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

25. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

26. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

27. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Musa Qasımlı, Kamilə Əliyeva, Vüqar Bayramov, Hikmət Məmmədov, Jalə Əliyeva, Məlahət İbrahimqızı, Etibar Əliyev, Anar İsgəndərov, Şahin İsmayılov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**1. Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bahar Muradova, Hicran Hüseynova, Vüqar Bayramov, Musa Quliyev, Nigar Arpadarai, Məlahət İbrahimqızı, Siyavuş Novruzov, Sahib Alıyev, Sabir Rüstəmxanlı

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və ya konsulluq əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyətinə cəlb edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov, Hikmət Məmmədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**3. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**4. “Antiinhisar fəaliyyəti haqqında”, “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Mülki müdafiə haqqında”, “Taxıl haqqında”, “Milli təhlükəsizlik haqqında”, “Dövlət sirri haqqında”, “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” və “Qiymətli metallar və qiymətli daşlar haqqında” Azərbaycan Respublikasının qanunlarında**

**dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Ziyafət Əsgərov, Tahir Rzayev, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**5. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili, Sahib Alıyev, Şahin İsmayılov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–21-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
| Lehinə | 99 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 21–23-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**7. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4-cü və 5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**9. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**10. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar Məmmədov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verlmədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 21–25-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 26–30-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 31–35-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 36–41-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
| Lehinə | 96 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**14. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**15. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**16. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**17. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**18. “Mühasibat uçotu haqqında” və “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov, Kamal Cəfərov, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**19. “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”nin təsdiq edilməsi barədə, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Musa Quliyev, Tahir Kərimli, Emin Hacıyev, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 4–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**20. Arbitraj haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Vüqar Bayramov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–18-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 3 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 19–34-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 35–54-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 55–59-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 90 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**21. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**22. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Etibar Əliyev, Nizami Səfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**23. "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**24. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**25. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**26. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında” və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Ziyafət Əsgərov, Zahid Oruc, Fazil Mustafa

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**27. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*19 dekabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 100 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasımıza başlaya bilərik.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, dekabrın 15-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin genişləndirilmiş iclasında ölkəmizin ictimai-siyasi həyatı üçün son dərəcə böyük əhəmiyyətə malik olan bir qərar qəbul edilmişdir. Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyev gələn il fevralın 7-nə təyin edilmiş Prezident seçkilərində partiyadan namizəd göstərilmişdir. Əlbəttə,

bu qərar bütün Azərbaycan xalqının arzu və istəyini ifadə etmişdir. Dünya miqyaslı siyasi və dövlət xadimi olan möhtərəm cənab İlham Əliyev ölkəmizə heyrətamiz uğurlar gətirən fəaliyyəti ilə xalqımızın dərin hörmət və məhəbbətini qazanmışdır.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət konsepsiyası yeni tarixi şəraitdə yaradıcı surətdə davam etdirilmiş və daha da zənginləşdirilmişdir. Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxmış, geniş bir bölgədə söz sahibinə çevrilmişdir.

Möhtərəm cənab İlham Əliyev Azərbaycanın müzəffər sərkərdəsi kimi adını tarixə həkk etmişdir. Onun siyasi-diplomatik və hərbi-strateji məharəti sayəsində 44 günlük Vətən müharibəsi və bir günlük antiterror tədbirləri Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulması ilə nəticələnmişdir. Dövlətimizin ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpa olunması xalqımızın milli qürurunu özünə qaytarmışdır.

Hörmətli həmkarlar! Azərbaycanın müasir tarixinin son iyirmi ili cəmiyyət və dövlət həyatının bütün sahələrində davamlı yeniləşmə, sürətli sosial-iqtisadi inkişaf, möhkəm ictimai-siyasi sabitlik və tərəqqi, milli qürur, həmrəylik və birlik, gələcəyə sonsuz inam anlayışları ilə bağlıdır. Əminliklə söyləmək olar ki, möhtərəm cənab İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə, dövlətçilik təfəkkürü və idarəçilik məharəti dövlətimizin müstəqil inkişaf yolu ilə bundan sonra da inamla irəliləməyini təmin edəcək. Azərbaycan qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq və yeni zirvələri fəth edəcəkdir.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| | |
|---|---:|
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli deputatlar, gündəmdə olan məsələlər barəsində 10 nəfər çıxış edə bilər. 30 dəqiqəmiz var.

Fərid müəllim, xahiş edirəm, sonuncu çıxışdır. Şahin İsmayılovdur, qalanları siyahıdan götürsünlər. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov.** Hörmətli həmkarlar, demokratik quruluşa təminat vermək dövlətimizin ali konstitusion niyyətlərindən biridir. Seçki isə demokratik quruluşun ən önəmli elementlərindəndir. Elan edilmiş növbədənkənar prezident seçkiləri sağlam siyasi rəqabət şəraitində yeni reallığa keçidi təmin edən demokratik imkandır. Azərbaycan xalqı hərbi-siyasi qələbələrimizdən doğan yeni reallığa yalnız cənab İlham Əliyevlə adlamağı arzulayır və bu mənada Yeni Azərbaycan Partiyası növbədənkənar prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini müəyyən etməklə ilk növbədə xalqın tələbini, cəmiyyətin təkidli sifarişini yerinə yetirmiş olur.

Bəli, bu gün heç bir siyasi qüvvənin cənab İlham Əliyevin namizədliyi qarşısında şansı yoxdur, amma bu prosesdə hər kəsə cəmiyyətin və dövlətin siyasi həyatında, habelə dövlətin idarə olunmasında iştirak etmək hüququnu reallaşdırmaq üçün sağlam şərait yaradılıb. Konstruktiv müxalifətin rahat şəkildə seçki marafonuna qatılması bu

reallığı bir daha təsdiq edir. Antimilli ünsürlərin isə bu dəfə də prosesdən kənarda qalması, əslində, onların xəyanətkar, təxribatçı və qorxaq mahiyyətinin ifadəsidir. 5 min adam tapıb partiyalarını qeydiyyatdan keçirməyə çətinlik çəkən bir ovuc ünsür indi guya seçkiləri boykot edir. Bu xalq sizi çoxdan boykot edib, indi siz kimi boykot edirsiz? Bu gün Azərbaycanda seçkilərin boykot edilməsi üçün heç bir siyasi-hüquqi şərait və zərurət yoxdur. Boykot cəhdi, əslində, bu dərnəklərin təxribatçı mahiyyətinin ifadəsidir və yeganə məqsəd də budur ki, siyasi sabitliyi pozaraq ölkənin daxili işlərinə müdaxilə arzusunda olan xarici qüvvələr üçün fürsət yaratsınlar.

Hər kəs başa düşməlidir ki, İlham Əliyevin qurduğu nizamı nə bu gün, nə də gələcəkdə heç bir xarici və daxili ünsür zədələyə bilməz. Siyasətdə sağlam rəqabətin yeganə legitim vasitəsi seçkidir və bundan kənar istənilən cəhd ictimai sabitliyə qarşı yönələn təhdiddir və milli maraqlara qarşı yönələn istənilən təhdid Azərbaycan xalqının iradəsi ilə elə beşiyindəcə boğulacaq.

İndi ənənəvi destruktiv Qərb strukturları bu reallığın fərqindədir. Avropa Parlamentinin bir qrup korrupsioner deputatı da başda olmaqla bəzi dairələr beynəlxalq ictimaiyyət adından ölkəmizin əleyhinə müxtəlif saxta adlar altında seçki öncəsi bəyanatlar verməyə başlayıblar. Amma möhtərəm Prezidentin ifadə etdiyi kimi, "200-dən çox ölkə var, 20-30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz". Beynəlxalq ictimaiyyətin Azərbaycana real baxışının göstəricisi 3-5 korrupsioner deputatın, yaxud çürümüş neoimperialistlərin bəyanatı deyil, 200-ə yaxın ölkənin yekdil rəyi ilə dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ev sahibliyinin Azərbaycana həvalə edilməsidir. Bu, cənab İlham Əliyevin də ifadə etdiyi kimi,

bizə olan ehtiramın ifadəsidir və bu ehtirama möhtərəm cənab Prezidentin qətiyyəti ilə nail olmuşuq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən müstəqil bir deputatam, baxışlarımda, düşüncələrimdə daim müstəqil olmuşam. Hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının qərarı millətimizin bu gününə və gələcəyinə hesablanmış ən doğru qərardır. Nə üçün? Çünki cənab Prezidentimiz İlham Əliyev uzun əsrlərdən bəri regionumuza yönəlmiş planları pozan, millətimizin arzularını gerçəkləşdirən, üstümüzdəki ləkəni silən böyük dövlət xadimidir, yeganə dövlət adamımızdır, zəmanəmizin görkəmli dövlət və siyasi xadimidir. Seçkilər hər bir cəmiyyətdə barometri üzə çıxarar, siyasi partiyalar demokratik cəmiyyətin bir normasıdır. Siyasi partiya üçün hakimiyyətə gəlməyin yolu seçkidir. Ona görə mən seçkidə iştirak edən ayrı-ayrı şəxslərin və partiyaların da cəmiyyətimizdəki bu barometri müəyyənləşdirməkdən ötrü fəaliyyətlərini alqışlayıram. O ki qaldı seçkini boykot edib-etməmək qərarına, bu, hər bir siyasi partiyanın müstəsna hüququdur. Amma soruşulur: Siyasi partiya hakimiyyətə gəlmək üçün yaradılır və onun da yolu seçkidən keçir. Əgər bir siyasi partiya seçkidə iştirak etmirsə, o, hansı yolla hakimiyyətə gəlmək istəyir?

Bineyi-qədimdən cəmiyyətlər ziddiyyətlər və əskikliklərin mübarizəsi üzərində qurulub, biz onları ləğv edə bilmərik. Amma bu əskikliklərin vəhdəti və mübarizəsi küçələrdə deyil, seçkilərdə həll olunmalıdır. Ona görə soruşulur: Seçkidə iştirak etməyənlər hansı yolla hakimiyyətə gəlmək istəyirlər? Azərbaycan xalqı həmin yola 1993-cü ildə tamamilə son qoyub. Hakimiyyətə gəlməyin yolu seçkidir və hesab edirəm ki, cənab Prezidentimiz

İlham Əliyevin alternativi yoxdur, o, millətimizin tək namizədidir. Azərbaycanın gələcəyi məhz İlham Əliyevlə bağlıdır. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamilə Əliyeva. Buyurun.

**K.Əliyeva**. Təşəkkür edirəm, Sahibə xanım.

Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Dünya dövlətləri tərəfindən COP29-un gələn il Azərbaycanda keçirilməsinə dair qərar qəbul edilməsi Azərbaycan dövlətinə böyük hörmət və etimadın nümunəsidir. Prezident cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artması, ən böyük və nüfuzlu beynəlxalq tədbirlərə ölkəmizin uğurla ev sahibliyi etməsi bu qərarın verilməsinə səbəb olmuşdur. Azərbaycanın müstəqil siyasət aparması, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətlə yanaşması, eləcə də öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ölkəmizə hörməti daha da artırmışdır.

COP29-un ölkəmizdə keçirilməsinin böyük siyasi əhəmiyyəti də vardır. Azərbaycanın öz ərazisi olan Qarabağda antiterror tədbirlərini həyata keçirməsindən qısa müddət sonra bu cür mötəbər tədbirin Azərbaycanda keçirilməsi haqda qərarın qəbul edilməsi dünya dövlətlərinin ölkəmizə dəstəyinin bariz nümunəsidir. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə və qanunlarına əsasən öz ərazisində keçirdiyi antiterror tədbirləri nəticəsində suverenliyini bərpa etdi və separatizmin kökünü kəsmiş oldu. Bəzi Qərb dövlətləri, xüsusən Fransa ölkəmizə qarşı əsassız, qərəzli bəyanatlar səsləndirir və bu çirkin əməllərindən əl çəkmir. Artıq bütün beynəlxalq təşkilatlar, dünya dövlətləri də Azərbaycanın qələbəsini qəbul edib və ölkəmizin haqlı mövqeyini dəstəkləyirlər. Ermənistan dövləti də bu reallığı qəbul edib və COP29-un Azərbaycanda keçiril-

məsinin lehinə səs verib. Prezident cənab İlham Əliyevin özünün də qeyd etdiyi kimi, COP29-un ölkəmizdə keçirilməsi xalqımızın növbəti böyük uğuru olacaq. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V. Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Azərbaycan tarixi günlərini yaşayır. Azərbaycanın qalib Prezidenti hakim partiyanın namizədi olacaq. Son illər iqtisadi sektorla yanaşı, siyasi sferada aparılan islahatlar seçkinin demokratik və şəffaf keçirilməsi ilə bağlı tam əminlik yaradır. Bu, eyni zamanda, siyasi partiyalar üçün seçkidə bərabər iştirak imkanlarıdır. Biz son illər Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmlənməsini müşahidə edirik. Son 20 ildə Prezident İlham Əliyev tarixi zəfərlərə imza atmaqla yanaşı, Azərbaycan xalqını qalib xalqa çevirən müzəffər Ali Baş Komandandır. Son 20 ildə həyata keçirilən iqtisadi, siyasi, həmçinin ərazi bütövlüyümüzün, eləcə də suverenliyimizin tam bərpa edilməsi kontekstində fəaliyyəti qiymətləndirsək, cənab İlham Əliyevin prezidentliyinin davamlılığı bir neçə aspektdən çox vacibdir. Əvvəla, müzəffər Ali Baş Komandan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən dövlət başçısıdır. Digər tərəfdən, cənab Prezidentin rəhbərliyi ilə şanlı ordumuz yüz minlərcə məcburi köçkünün, o cümlədən mənim ata-baba yurduma qayıtmağımı təmin etdi. Bu istiqamətdə aparılan işlər, quruculuq işləri həm Şərqi Zəngəzur, həm də Qarabağda məskunlaşma ondan xəbər verir ki, məcburi köçkünlər çox qısa zamanda öz ata-baba yurdlarına qayıdacaqlar.

Üçüncüsü. Biz son 20 ildə iqtisadi sahədə əldə edilən

uğurlara diqqət yetirsək, Azərbaycan bu istiqamətdə əldə edilən uğurların həcmi baxımından regionda öndə olan ölkədir. Son 20 ildə Azərbaycanda ümumi daxili məhsul 4 dəfə, büdcə gəlirləri 30 dəfə, xarici ticarət dövriyyəsi 10 dəfə artıb. Eyni zamanda, məhz cənab Prezidentin həyata keçirdiyi siyasət nəticəsində bu gün Azərbaycan xarici borcunun ümumi daxili məhsuldakı payına görə dünyada ən yaxşı göstəriciyə malik olan 10 ölkədən biridir. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollardan artıq investisiya cəlb edilib ki, onun da 190 milyard dolları məhz qeyri-neft sektoruna yönəldilən investisiyadır. Təbii ki, bütün bunlar göstərir ki, 20 ildə həyata keçirilən iqtisadi siyasət Azərbaycan iqtisadiyyatının daha da böyüməsinə imkan yaradır. Həm bu faktlar, həm də əldə etdiyimiz Zəfər bir daha təsdiq edir ki, cənab Prezident İlham Əliyevin alternativi yoxdur. Biz bu tarixi hadisə ilə həmçinin Azərbaycan iqtisadiyyatının və ölkəmizin dayanıqlı inklüziv inkişafının təmin olunmasına nail olacağıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Doğrudan da, 2024-cü il fevralın 7-də Azərbaycanın demokratiya tarixində, siyasi tarixində çox mühüm bir hadisə baş verəcəkdir – növbədənkənar prezident seçkiləri keçiriləcəkdir. Şübhəsiz ki, ən böyük demokratiya bir millətin hüquqlarının təmin olunması, onun əlçatanlığının əldə edilməsidir. Otuz illik müstəqillik dövrü tarixində Azərbaycan xalqı ilk dəfə olaraq öz ərazisinin hər bir qarışında seçmək və seçilmək hüququnu realizə edəcəkdir. Bu, çox böyük, mühüm tarixi hadisədir. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizdə 26 seçki məntəqəsi yaradılacaqdır ki, öz ata-baba yurdlarına qayıdan vətən-

daşlarımız ilk dəfə öz doğma torpaqlarında öz hüquqlarından istifadə edəcəklər, həmçinin bu böyük demokratiya hadisəsinə şahidlik edəcəklər. Əlbəttə, buna görə biz bu hüquqlarımızı bərpa edən əsgərimizdən generalımıza qədər, ictimai fəal fərdimizdən müzəffər Ali Baş Komandanımıza qədər Azərbaycan xalqının bu hüquqlarını özünə qaytarmış bu böyük ordu qarşısında həm siyasi, həm birbaşa baş əyirik.

Şübhəsiz ki, tarixi Zəfərimiz yeni perspektivlər, yeni üfüqlər, yeni çağırışlar və vəzifələr yaradıb. Əldə etdiyimiz bu tarixi nailiyyətin davamı, inkişafı, bu reallıqların Azərbaycan xalqının gücünə güc qatması üçün həyata keçirilən işlərin davam etdirilməsi birbaşa tarixi qələbəmizin siyasi, hərbi, diplomatik memarı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə bağlıdır. Düşünürəm ki, önümüzdəki bu potensial reallıqları real gücə çevirərək Azərbaycan xalqına qazandırmaq üçün də yeganə lider elə Azərbaycan Prezidentidir.

Biz bilirik ki, bu tarixi məsuliyyət, sadəcə, cəmiyyətin siyasi sisteminin bir hissəsinin üzərinə düşmür. Azərbaycanın siyasi sistemi iqtidarı ilə, müxalifəti ilə bütövdür. Bizim milli demokratiyamızın artıq özünəməxsus ənənələri var. Amma çox təəssüf ki, bu demokratiyamızın içərisində həm də 1990-cı illərin əvvəllərində formalaşan bəzi dekonustruktiv meyillər var. Mən düşünürəm ki, hazırda müxalifət partiyaları da yeni tarixi şəraitdə öz davranışlarında məsuliyyəti dərk edərək yeni keyfiyyət mərhələsinə qədəm qoymalıdırlar. Şübhəsiz ki, seçkidə iştirak etmək və ya etməmək haqqında qərar verən daxili siyasi aktorun özüdür. Amma indiki mərhələdə yeni ənənələr yaratmaq üçün onların da iştirakı vacibdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva.

**J.Əliyeva.** Təşəkkür edirəm.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ötən həftə Yeni Azərbaycan Partiyası ölkə Prezidenti cənab İlham Əliyevin növbədənkənar prezident seçkilərində namizədliyini irəli sürdü. Düşünürük ki, bu qərar, sadəcə, Yeni Azərbaycan Partiyası üzvlərinin deyil, eyni zamanda, bütün Azərbaycan xalqının istək, arzu və rəyini ifadə edirdi. Azərbaycan xalqı Prezident İlham Əliyevin simasında özünə böyük bir dayaq və lider qazanıb. Məhz cənab Prezidentin həyata keçirdiyi dönməz iradəli "Dəmir yumruq" siyasəti sayəsində Azərbaycan mümkün olmayanları mümkün etdi. Bu gün dünya Azərbaycana tamamilə başqa bir prizmadan yanaşır. Bu gün Azərbaycan 30 il əvvəlki Azərbaycan deyil. Azərbaycan, əvvəla, öz torpaqlarını geri qaytarıb və bu torpaqlarda sülh, əmin-amanlıq yaradaraq üçrəngli bayrağını torpaqlarının başı üzərində dalğalandırıb. Azərbaycan həmin torpaqlarda ağlagəlməz bir sürətlə nəhəng quruculuq işləri aparır. Bütün ölkə boyu durmadan inkişafa istiqamətlənən layihələr həyata keçirilir. Biz hər bir vətəndaşına insan amili prizmasından yanaşan, qonşu ölkələrlə tarazlaşdırılmış siyasət həyata keçirilməsi yönündə geniş fəaliyyətini durmadan davam etdirən, sadəcə, siyasət, diplomatiya, ordu quruculuğu sahələrində deyil, eyni zamanda, sosial, səhiyyə, mədəniyyət, təhsil, texnologiya sahələrində dünyanın aparıcı dövlətlərindən birinə çevrilən bir ölkənin liderindən danışırıq. Nəhayət, biz Azərbaycanı Cənubi Qafqazın ulduzu edən bir liderdən danışırıq. Bütün sadaladığımız və əslində, tam olaraq sadalanarsa, bir çıxışın həcminə yetişməyəcək qədər mükəmməl və saysız-hesabsız olan işlərin hər birinin arxasında Prezident İlham Əliyevin

imzası və "Dəmir yumruq" siyasəti dayanır.

Bu gün "Azərbaycan" dedikdə 44 günlük müharibədə möhtəşəm Zəfər çalmış, həmin günə qədər dünyanın heç bir ölkəsində mövcud olmayan strategiya və taktika ilə torpaqlarını geri qaytarmış olan və ötən üç il ərzində inkişafının ən yüksək zirvəsinə çatan Azərbaycan göz önünə gəlir.

Fevralın 7-də keçiriləcək seçki bir daha Azərbaycan xalqının arzusunun, etimadının, iradəsinin nümayişinə və təsdiqinə çevriləcək. Xalqımız birmənalı olaraq öz liderinə, xilaskar Prezidentinə, müzəffər Ali Baş Komandanına, yenilməz sərkərdəsinə səs verəcək. Bu seçki nəticəsində Azərbaycan daha parlaq və daha inkişaflı günlərini yaşayacaq. Azərbaycan cənab Prezidentimizin rəhbərliyi ilə bu günə qədər olduğu kimi, fevralın 7-dən sonra da həm Cənubi Qafqazın, həm də dünyanın nüfuzlu ölkəsi olaraq daha da yüksələcək. Biz seçkilərdə xalqımıza, Azərbaycansevərlərə, damarında azərbaycanlı qanı axan hər bir insanımıza uğurlar arzu edirik. Seçkilərə ay yarım zaman qalmasına baxmayaraq, seçkinin Azərbaycanda...

**Sədrlik edən.** Cümləni tamamlayın, xahiş edirəm, fikrinizi yox, cümlənizi.

**J.Əliyeva**. Cəsarətlə deyirəm. Çünki biz davamlı olaraq seçicilərin içərisindəyik. Seçicilərlə davamlı olaraq keçirdiyimiz görüşlərdə, illərdir, gəldiyimiz qənaət bundan ibarətdir ki, Azərbaycan xalqının bir seçimi var və o da İlham Heydər oğlu Əliyevdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Buyurun, Məlahət xanım.

**M.İbrahimqızı**. Çox sağ olun, xanım sədr. Hörmətli Sahibə xanım, hörmətli həmkarlarım, həqiqətən də, bu, bir reallıqdır ki, Azərbaycan xalqının tarixində həm Heydər Əliyev dövrü, həm də İlham Əliyev dövrü çağdaş dövlət-

çiliyimizin ən şanlı, şərəfli bir mərhələsidir. Biz də, sözsüz, fəxr edirik ki, belə bir mərhələdə yaşayırıq. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin, müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərdən sonra elə bir gün yoxdur ki, Azərbaycan xalqı böyük sevinc əhval-ruhiyyəsini yaşamasın. Azərbaycan xalqı, bir tərəfdən, 44 günlük Vətən müharibəsində qazanılan zəfərin, digər tərəfdən, ərazi bütövlüyümüz və respublikamızın suverenliyinin bərpasının sevincini yaşayır. Azərbaycan xalqı möhtərəm Prezidentimizin müdrik və uzaqgörən diplomatiyası sahəsində əldə edilən uğurların sevincini yaşayır. Azərbaycan xalqı çox nadir ölkələrə qismət olan COP29-un Azərbaycanda keçirilməsinin sevincini yaşayır. Elə bir sevinc, elə bir nailiyyət ki bu, dünyada nadir ölkələrin taleyində, yaxud tarixində olan hadisədir.

Bu gün Azərbaycan xalqı seçkidə iştirak etmək üçün fevralın 7-nə böyük bayram əhval-ruhiyyəsi ilə hazırlaşır. Çünki hər kəs istəyir ki, öz liderinə, öz Prezidentinə, öz müzəffər Ali Baş Komandanına öz minnətdarlıq borcunu yerinə yetirsin, ona olan təşəkkürünü, sədaqətini bildirsin. Yəni mənim düşüncəmə görə, bu seçki, sadəcə, Azərbaycan xalqının möhtərəm Prezidentimizə olan məhəbbətinin təntənəsi günü olacaqdır. İlham Əliyev Azərbaycana nə üçün lazımdır? 30-32 illik dövlətçilik, dayanıqlılıq nöqteyi-nəzərindən bir xalq üçün o qədər də yetərli vaxt deyil. Atatürk Çanaqqalada, Qurtuluş savaşında zəfər qazandıqdan sonra müdrik türk xalqı belə bir qərar qəbul etdi ki, Atatürk imtina etmədiyi, sağ olduğu müddətdə Türkiyəyə rəhbərlik edəcəkdir.

Möhtərəm Prezidentimiz dünya erməniliyi ilə mühari-

bədə, mübarizədə qələbə çaldı, bu gün Qarabağda aparılan quruculuq işlərində də meqalayihələrin həyata keçirilməsinə imza atır. Möhtərəm Prezidentimiz türk dünyası üçün böyük şəxsiyyətdir. Möhtərəm Prezidentimiz Qoşulmama Hərəkatının 120 ölkəsinin taleyində bir ulduzdur, bir günəşdir. Möhtərəm Prezidentimiz Avropanın enerji təhlükəsizliyində çox böyük və etibarlı bir tərəfdaşdır, etimad göstərilən bir diplomatdır. Ona görə də Azərbaycan xalqı məhz bu seçkidə böyük bayram əhval-ruhiyyəsi ilə öz liderinə məhəbbətini, etibarını, etimadını və dəstəyini bir daha göstərəcəkdir. İlham Əliyev bu gün də, gələcəkdə də Azərbaycan xalqına, bölgəmizə çox böyük, əhəmiyyətli bir lider kimi, dövlət adamı kimi çox lazımdır.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar, dekabrın 6-da ADA Universitetində “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda Prezident, müzəffər Ali Baş Komandan, XXI əsrin əvəzsiz sülh carçısı İlham Əliyevin apardığı dialoqlar bir daha göstərdi ki, o, müasir dünyanın ən intellektual və cəsarətli lideridir. Həmin forumda dövlətimizin başçısı mütəmadi olaraq ictimai rəyi manipulyasiya etməyə çalışan məsuliyyətsiz insanlar qrupundan da söz açdı. Sitat: “Onların bəziləri özünü manyak kimi aparır. Çünki onların anti-Azərbaycan hissləri və bəyanatları insanın normal psixoloji statusundan kənara çıxır. Mən maksimal dərəcədə diplomatik lüğətdən istifadə etmək istəyirəm. Biz nə edə bilərik? Onlar 10-dan çox anti-Azərbaycan qətnaməsi qəbul ediblər”.

“Manyak” yunan dilində maniya, mübtəla, düşkün, ağılsızlıq, vəcdəgəlmə, xəstəlik həddinə çatmış tərəfkeşlik

saxlayan adam mənasını verir. Bəli, diplomatik lüğətlərdə manyak anlayışı var və cənab Prezident bu anlayışı tam yerində işlədib. Cozef Borel, Roserta Metsola, Nensi Pelosi, Maykl Roth və başqaları manyak deyilmi? Yerli manyaklar da var. Xəstəlik eyni olduğu üçün əleyhimizə iş aparan xarici manyaklarla birləşirlər. Yerli manyaklardan biri, görün, nə deyir: "Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı, ATƏT kimi qurumlarla ölkənin münasibəti süni şəkildə gərginləşdirilib".

Biz ölkəmizin əleyhinə böhtan yağdıranlara cavab verəndə yerli manyak, "radikulit müxalifətçi", "gərginliyi biz yaradırıq" deyib, yaşadığı ölkənin çörəyini yediyi, suyunu içdiyi halda ölkəyə böhtan atır. Ölkədə taleyüklü seçkilərə start verilən kimi bir qrup zorən siyasətlə məşğul olanlar, boykotçu manyaklar dərhal ortaya boykot ideyasını atırlar. Bunlar anlamırlar ki, boykotların heç bir səmərəsi yoxdur və bu hərəkət, sadəcə, sağalmaz xəstəliyi olan manyaklığın surətliliyidir. Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Borel ölkəmiz haqqında mütəmadi olaraq qərəzli ifadələr işlədir. Onun bəlkə də bilərəkdən söylədiyi yalançı bir rəqəmə münasibətdə cənab Prezident İlham Əliyev haqlı olaraq "Ola bilər ki, cənab Borel yuxular görür" deməklə ona tutarlı cavab verdi. İçimizdə olan manyaklar da oxşar, hipotetik yuxular görürlər. Sadəcə, yaxşı yuxuyozanları yoxdur. Fürsətdən istifadə edib onlara bir ədəbiyyat tövsiyə edə bilərəm: Ziqmund Freyd "Yuxuların yozumu". Kitab Azərbaycan dilinə tərcümə olunub. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Anar İsgəndərov. Buyurun.

**A.İsgəndərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri, 2024-cü il fevralın

7-də bütün Azərbaycan xalqı böyük bir tarixi hadisənin şahidi olacaq. Azərbaycan öz tarixində ilk dəfə olaraq bütün Azərbaycanı əhatə edən ərazidə öz prezident seçkisini keçirəcəkdir. Yüz minlərcə Azərbaycan vətəndaşı nə üçün həmin günü səbirsizliklə gözləyir? Mən kiçik bir tarixi sizinlə bölüşmək istəyirəm. Azərbaycan bir dövlət olaraq tarix boyu, yəni xanlıqlar dövründə belə ən böyük çətinliyi məlikliklərdən olub. Qarabağ xanlığı var idi, amma tərkibindəki olan məlikliklər həmişə onun üçün çox böyük problem olurdu. Hətta iş çətinliyə düşəndə o zaman Çar Rusiyasından ordu belə istəyirlər.

Tarixin sonrakı dövrlərində müsəlman Şərqində ən böyük cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda belə, 114 min kvadrat-kilometr ərazisinin 8,7 min kvadrat-kilometri Gürcüstanla, 7,6 min kvadrat-kilometri isə Ermənistanla mübahisəli ərazi idi. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası bunu belə də qeyd etdi. Təbii, Sovet dönəmi ilə bağlı bilirik ki, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. 70 il ərzində, sonrakı 30 il ərzində Azərbaycan üçün dəhşətli bir tarix oldu. İşğal da oldu, qaçqın və köçkün həyatı yaşayan da azərbaycanlılar oldu.

Azərbaycan öz tarixində ilk dəfə olaraq bütövləşdi. Azərbaycan öz tarixində ilk dəfə olaraq Dağlıq Qarabağ deyilən qurumu ləğv etdi və separatçı mövqedə olan insanları buradan çıxartdı. Bu kimin sayəsində oldu? Təbii ki, cənab İlham Əliyev sayəsində oldu. Ona görə bütün Azərbaycan tarixini vərəqləyərkən, tarixi şəxsiyyətləri ön plana çəkərkən, aralarında müqayisə apararkən İlham Əliyev zirvədir. Ona görə zirvədir ki, Azərbaycan xalqı üçün həmişə problemli yer olan, Azərbaycanın ərazi bütövlüyü pozulan bir yeri birmənalı olaraq Azərbaycanın

tərkib hissəsi etdi. Artıq Dağlıq Qarabağ deyilən bir qurum yoxdur. Bu mənada mən əminəm ki, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü kimi çıxardığımız qərar da tarixi qərardır və inşallah fevralın 7-də bunun nəticəsini görəcəyik. Ona görə nəticəsini görəcəyik ki, müzəffər xalq və müzəffər komandan, xalq öz komandanına, komandan da öz xalqına etibar edir.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Şahin İsmayılov. Buyurun.

**Ş.İsmayılov**. Çox sağ olun, hörmətli xanım sədr. Əziz həmkarlar, əgər biz müasir dünyada ideal gənc obrazı formalaşdırsaq, o, savadlı, dünyagörüşlü, müxtəlif dilləri bilən, müasir texnologiyaları mənimsəyən və onu rahat tətbiq edən, daimi inkişafa açıq olan, o cümlədən müasirliklə yanaşı, milli-mənəvi köklərinə bağlı, öz tarixinə yaxşı bələd olan bir kimlikdir. Gənclər daim inkişaf edirlər. İnkişaf isə canlı bir prosesdir. İnkişaf dövründə təbii olaraq çətinliklər və problemlər olur. Məhz inkişaf dövründə gənclər özlərinə ideal axtarır, onun kimi olmağa və ona bənzəməyə çalışırlar. Prezident İlham Əliyev Azərbaycan gəncləri üçün idealdır. O, mübarizdir, gənclik dövründə oxuduğu və işlədiyi təhsil müəssisəsindən heç bir əsası olmadan uzaqlaşdırıldıqda əvvəlkindən daha çox əzmlə çalışdı və digər sahələrdə uğur qazandı. Mübarizlik Prezident İlham Əliyevin həyatının bütün dövrlərində önə çıxan vacib xüsusiyyətlərdən biridir. O, prinsipialdır. Qarabağ münaqişəsi mövcud olan dövrdə Prezident İlham Əliyev bütün beynəlxalq təzyiqlərə və ikili standartlara, bəzən, hətta hədə-qorxu cəhdlərinə belə baxmayaraq, Azərbaycanın ərazi bütövlüyü məsələsini müzakirə etmədi. Mövqe prinsipial idi. Azərbaycanın ərazi bütövlüyü məsələsi müzakirə mövzusu ola bilməz.

Prezident İlham Əliyev milli-mənəvi dəyərlərə bağlı olan, Azərbaycan mədəniyyətinin ən böyük təbliğatçısıdır. Prezidentlik fəaliyyəti dövründə Azərbaycanın mədəni nümunələrinin dünyada tanıdılması və qəbul olunması istiqamətində nəhəng işlər görən Prezident həm də gənclərə açıq mesaj verir: “Milli-mənəvi dəyərlərinizi daha yaxşı bilin, onu tanıdın və fəxr edin”. Prezident İlham Əliyev müasirdir. O, dünyada baş verən yenilikləri yaxşı bilir, lazım olanları öz fəaliyyətində tətbiq edir, Azərbaycan sənayesində və iqtisadiyyatında müasir çağırışlara uyğun alətlərdən istifadə edir. Eyni zamanda, texnoloji və xidmət sahələrində Azərbaycan brendini yaradır. Bir sözlə, dünyadakı trendlərə yaxşı bələddir. O, qalib sərkərdədir. Prezidentlik fəaliyyəti dövründə müasir siyasi qələbələr qazanan Prezident öz qələbələrini Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə taclandırdı. Müzəffər Ali Baş Komandan öz əsgər və zabitləri ilə Azərbaycanın dövlətçilik tarixinin qızıl səhifələrindən birini yazdı. 30 illik həsrətə son qoyan qalib komandan, bütövlükdə, regionun taleyinə təsir edəcək hadisənin müəllifi oldu. Eyni zamanda, o, Azərbaycan xalqını qalib xalq elan etdi.

Prezident həmçinin yaxşı övlad, gözəl ailə başçısıdır. O, ata vəsiyyətini yerinə yetirməklə və mehriban ailə başçısı olmaqla Azərbaycanın ailə dəyərlərinin ən böyük təbliğatçısıdır. Ailə dəyərləri dövlətin özəyini təşkil edir. Məhz bu səbəbdən də Prezident hər zaman bu dəyərlərə önəm verir və onu təbliğ edir. Dünyada kosmopolit dəyərlərin, daha doğrusu, dəyərsizliyin geniş yayıldığı bir dövrdə ailə dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi vacibdir. Prezident həm də gələcəyə yönümlüdür. Onun fəaliyyətində gələcək nəsillərə xitab və onlar üçün indidən müxtəlif layihələrin icrası əsas istiqamətlərdən

birini təşkil edir. Kadr potensialı formalaşdırılır, Azərbaycan gəncləri dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinə göndərilir, iqtisadiyyat şaxələndirilir...

**Sədrlik edən.** Bitirdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 1 dəqiqə yox, bir az tez edin. Prezident haqqında danışırsınız. Buyurun.

**Ş.İsmayılov**. Çevik struktur islahatlar keçirilir. Sonda İlham Əliyev ixtisasca memar deyil, amma mənə görə o, XXI əsr Azərbaycanın qurucusu olmaqla elə müasir Azərbaycanın XXI əsrdə ən yaxşı memarıdır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Hörmətli həmkarlar, bilirsiniz ki, biz bu gün 27 məsələni müzakirə edəcəyik. 1-ci məsələ Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatdır. Mən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanı salamlayıram. Məlumatı təqdim etmək üçün, Bahar xanım, mən Sizə söz verirəm. Buyurun.

**B.Muradova,** *Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.*

Çox hörmətli sədarət, dəyərli Sahibə xanım, hörmətli millət vəkilləri və media nümayəndələri! İlk növbədə hamınızı salamlayır, müzəffər Ali Baş Komandanımızın qətiyyəti, ordumuzun əzmi və şücaəti ilə bütün ərazilərimiz üzərində suveren hüququmuzun təmin olunması münasibəti ilə hər birinizi ürəkdən təbrik edirəm.

Ölkədə və dünyada yaranmış yeni reallıqlara rəğmən, Vətən müharibəsinin acı nəticələrinin aradan qaldırılması, genişmiqyaslı bərpa və quruculuq işlərinin aparılması,

əhalinin geriyə qayıdışı prosesi bizi insan və vətəndaş hüquqlarının, o cümlədən gender bərabərliyinin təmin olunması, həmçinin qadınların səlahiyyətləndirilməsi və iqtisadi gücləndirilməsinə daha çox diqqət ayırmağa sövq edir. Bu məqsədlərin həyata keçirilməsinin ölkəmizin daha da güclənməsinə və cəmiyyətin tərəqqisinə daha çox töhfə verəcəyinə inanırıq.

2022-ci il üzrə məlumat qanunun müvafiq maddələrinə uyğun olaraq, 3 bölmədən ibarət tərtib edilmişdir. Qanunun 15-ci maddəsinə əsasən iqtisadi və sosial sferada çalışan işçilərin gender təhlilinə dair yeni hissələr əlavə edilməklə məlumatın bazası kifayət qədər genişləndirilmişdir. 50 dövlət orqanı və 76 yerli icra hakimiyyətindən daxil olan informasiyaları da əhatə etməklə 104 səhifədən ibarət tərtib olunmuşdur. Həmçinin sənəddə dövlət komitəsi tərəfindən aparılan 5 araşdırma barədə də müfəssəl məlumat verilir. Slaydda adıçəkilən bütün araşdırmaların mətninin elektron variantını dövlət komitəsinin internet səhifəsindən əldə etmək mümkündür. Qeyd etmək istəyirəm ki, sizə təqdim olunan statistik göstəricilər Dövlət Statistika Komitəsinin və digər dövlət orqanlarının məlumatlarına əsaslanmışdır.

Çox hörmətli Sahibə xanım, dəyərli millət vəkilləri. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələrindən bəhs edən birinci bölmə haqqında məlumat vermək istəyirəm. İlk olaraq diqqətinizə çatdırmaq istərdim ki, ötən ildə də atalar üçün ödənişsiz məzuniyyət hüququnun müəyyən edilməsi, qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin sayının azaldılması, kişi və qadınların orta aylıq əmək haqqı fərqliliyinin aradan qaldırılması istiqamətində məqsədyönlü islahatlar ölkə gündəmində olmuşdur.

2022-ci ildə normativ hüquqi baza slaydda göstərilən sənədlərin qəbulu ilə xeyli zənginləşmişdir. Sənədlərdə əksini tapan vacib prioritetlərdən biri kimi isə aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi sayəsində qadınların orta aylıq əməkhaqqının kişilərin orta aylıq əməkhaqqına nisbətən 2021-ci ildəki 65,8 faizdən 2026-cı ildə 80 faizə çatdırılması hədəf kimi seçilmişdir. Bu da CEDAW (Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya) tövsiyyələrindən birinin yerinə yetirilməsi hesab edilə bilər.

Digər slaydda əksini tapan normativ aktların layihələri aidiyyəti qurumlarla razılaşdırılaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir. Normativ hüquqi bazanın təkmilləşməsi istiqamətində görülən bu işlər, hesab edirəm ki, bu sahədə olan problemləri yaxın zamanlarda həll etmək imkanı verə bilər.

İnstitusional mexanizmlərin gücləndirilməsi istiqamətində də 2022-ci ildə fəaliyyət davam etdirilmiş, uşaq və ailələrə dəstək, qadın resurs mərkəzləri tərəfindən çox sayda tədbirlər və təlimlər keçirilmiş, “genderazerbaijan.com” portalı istifadəyə verilmişdir. Eyni zamanda, komitə tərəfindən gender məsələləri üzrə məsul şəxslərin və bələdiyyələrdə yaradılmış gender komissiyalarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində də təlim və seminarlar təşkil olunmuşdur. Sumqayıt və Xaçmazda yeni resurs mərkəzləri açılmışdır.

Gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində çoxsaylı layihələr icra edilmiş, daha geniş auditoriyanı və həssas qrupları əhatə etməklə maarifləndirmə işləri şaxələndirilmişdir. İdarəetmə və qərar qəbuletmə, o cümlədən şəhər və rayon icra hakimiyyətləri səviyyəsində bərabərliyin təmin edilməsinə dair fəaliyyət də məlumatda

əksini tapmışdır.

Bu, bir həqiqətdir ki, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük qəbuledilməzdir. Bu həqiqəti əldə rəhbər tutaraq ötən müddətdə də digər institusional mexanizmlər vasitəsi ilə işlər görülmüşdür. Hesabat ilində komitənin 860 qaynar xəttinə bu işlər, aparılan maarifləndirmə tədbirləri nəticəsində 269 müraciət olunmuşdur. 116-111 qadın dəstək xəttinə isə 2050 müraciət daxil olmuşdur. Həmçinin Sosial Xidmətlər Agentliyinin “Qayğı” çağrı mərkəzinə məişət zorakılığına dair 29 zəng daxil olmuşdur.

“Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” çərçivəsində keçirilən tədbirlər barədə daha ətraflı məlumat sizə təqdim olunmuşdur. Bununla bağlı komitənin sifarişi ilə “Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin təhlili” və “Azərbaycanda seksual qısnama: qanunvericilik və onun tətbiqi praktikası” mövzusunda analitik hesabat hazırlanmış, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üzrə verilən tövsiyələr də məlumatda öz əksini tapmışdır.

Azərbaycan üzrə cinsi ayrı-seçkiliyin, zorakılığın digər bir növü olan 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı keçən illə müqayisədə artmışdır. Ən yüksək göstəricilər Qazax–Tovuz, Mərkəzi Aran və Qarabağ iqtisadi rayonları üzrə olmuşdur.

Uşaqların doğulanadək cins seçiminə məruz qalmasına dair vəziyyət problemli olaraq qalmaqdadır. Cins nisbəti bu gün hələ də hər 100 qıza 112 oğlan təşkil edir. Ancaq bunu da qeyd etmək lazımdır ki, bu sahədə dövlət orqanları və vətəndaş cəmiyyəti qurumlarının apardığı

məqsədyönlü işlər cəmiyyətin bu məsələyə münasibətində müəyyən dəyişiklik yarada bilmişdir. Cinslər arasındakı fərq 2021-ci ilə nisbətən 1050 nəfərədək azalmışdır.

Erkən nikahların dinamikasında isə nisbi artım vardır. Bakı şəhərində 5, digər iqtisadi rayonlar üzrə isə 271 şəxsə nikah yaşının azaldılması ilə bağlı icazə verilmişdir. 269 erkən evliliyin qarşısı alınmışdır. Bu istiqamətdə problemlərin araşdırılması məqsədi ilə "Uşaq nikahlarının aradan qaldırılması: qanunvericilik və onun tətbiqi praktikası" mövzusunda analitik təhlil hazırlanmışdır. Həmin təhlilin nəticələri də bizə sübut edir ki, biz 18 yaşdan aşağı ailə qurmağa icazə verən istisnanın aradan qaldırılmasına ciddi şəkildə dəstək verməliyik.

Dövlətin idarə olunması və qərarların qəbulu səviyyəsində əvvəlki illərə nisbətən 2022-ci ildə bərabərliyə doğru tendensiya artmaqda davam etmişdir. Hüquq mühafizə, diplomatik xidmət orqanlarında çalışan əməkdaşlar arasında 2022-ci il ərzində qadınların sayında müsbət dinamika müşahidə olunmuşdur. Səfir, müşavir və konsul təyinatları zamanı da qadınlara etimad daha çox özünü büruzə versə də, bu sahələrdə kişilər sayca və iştirakçılıq səviyyəsinə görə çox öndədirlər. Hakim və vəkillər arasında da qadınların sayında müsbət dinamika özünü göstərir.

Səhiyyə və əhalinin sosial müdafiəsi sahəsində 2022-ci ildə stabil tendensiya davam etmişdir. Məlumatda qeyd edilən rəqəmlər göstərir ki, bu sahədə qadınların üstünlüyü dəyişməz olaraq qalır. 2022-ci ildə Bakının 12 rayonu üzrə icra hakimiyyətlərinin strukturunda, ümumilikdə, 876 nəfər, o cümlədən 293 nəfər qadın çalışır. Rəhbər vəzifələri icra edənlərdən 45 nəfəri qadın olmuşdur.

Son 3 ilin statistikasına nəzər yetirdikdə işçilərin gender bölgüsündə müsbət dinamikanın şahidi oluruq. Belə

ki, bu illər ərzində həm ümumi işçi sayında, həm də rəhbər vəzifələrdə çalışan qadınların sayında artım müşahidə olunur. Lakin Azərbaycanın 12 iqtisadi rayonu üzrə rəqəmlərdə azalma vardır. Son 3 ilin müqayisəli təhlilinə əsasən qadınlar üçün ən uğurlu göstərici 2021-ci ilə aiddir.

Hörmətli millət vəkilləri, məlumatın ikinci bölməsi gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatından bəhs edir. Əlbəttə, sizə təqdim edilən məlumatda bütün istiqamətlər üzrə məlumatlar vardır. Yalnız bir neçə istiqamət var ki, oradakı məsələlərdə spesifik münasibət mövcuddur. Oradakı vəziyyət onu göstərir ki, bir sahədə qadınların sayı, digər sahədə isə kişilərin sayı çoxdur. Bu iki istiqamət üzrə fikirlərimi sizə çatdırmağı məqsədəuyğun hesab etdim. Gender bərabərliyinin müxtəlif sahələr üzrə təminatına diqqət yetirdikdə, ilk növbədə, qeyd etmək lazımdır ki, son illər bu sahədə aparılan islahatlar və məqsədli proqramların tətbiqi nəticəsində əmək bazarında da qadınların rolu və töhfəsi artmaqdadır.

Dünya İqtisadi Forumunun Gender Fərqliliyi İndeksi və BMT-nin Gender Bərabərsizliyi İndeksinin təhlillərinə əsasən dünya üzrə iqtisadi fəallıq və imkanlar sahəsində Azərbaycan 2017-ci ildəki 45-ci yerdən 2022-ci ildə 36-cı yerə yüksəlmişdir. Ötən il qadınlar məşğul əhalinin tərkibində 47,8 faiz, işçi qüvvəsinin tərkibində isə 48,3 faiz təşkil etmişlər. İşsizlərin 55,9 faizini təşkil edən qadınlar üçün ölkə üzrə işsizlik səviyyəsi 6,5 faiz, kişilər üçün isə 4,8 faiz olmuşdur.

2022-ci il üzrə orta aylıq əmək haqqı 839,4 manat olmuşdur. Qadınların orta aylıq əməkhaqqı kişilərin orta aylıq əmək haqqının 68,1 faizini təşkil etmişdir. 2021-ci ildə isə bu rəqəm 64,8 faiz olmuşdur. Görülən tədbirlərin, atılan addımların nəticəsində bu sahədə dinamika mü-

şahidə olunur. Mən düşünürəm ki, 2026-cı ilə qoyulan hədəfə çatmaq mümkün olacaqdır.

Qanunun 13-cü maddəsinə görə, dövlət kişi və qadınların təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasını təmin edir. BMT-nin Gender Bərabərsizliyi İndeksinin təhlillərinə əsasən Azərbaycan dünya üzrə bərabər təhsil sahəsində 2017-ci illə müqayisədə 2022-ci ildə 91-ci yerdən 55-ci yerə yüksəlib.

Ölkənin ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sırasına diqqət yetirdikdə oğlanların qızlara nisbətən çox olduğu nəzərə çarpır. 2022–2023-cü tədris ili üzrə təhsil alan şagirdlərin cins bölgüsü arasındakı fərq isə azalaraq 6 faizə enmişdir. 2021-ci ildə bu rəqəm 7,08 faiz olmuşdur. 2022–2023-cü tədris ili üzrə keçirilmiş qəbul imtahanlarında yüksək bal intervalında nəticə göstərən abituriyentlər arasında da qızlar üstünlük təşkil etmişdir.

Orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələr arasında 62 faiz qadın daha çox orta ixtisas təhsilinə, 71 faiz kişi peşəyönümlü təhsilə üstünlük verməkdədirlər. Bu göstəricilər həm özəl, həm də dövlət tabeliyində olan təhsil müəssisələrinə aiddir.

2022–2023-cü tədris ili üzrə keçirilmiş qəbul imtahanlarında yüksək bal intervalında nəticə göstərən abituriyentlər arasında da qızlar üstünlük təşkil etmişdir. Bakalavr dərəcəsində 51 faizlə qızlar, magistr dərəcəsində isə 51 faizlə oğlanlar nisbi üstünlük təşkil edirlər. Həmçinin ali təhsil müəssisələrinin professor-müəllim heyətinin gender göstəriciləri də 63 faiz olmaqla qadınların xeyrinədir.

Komitə tərəfindən bu sahədə problemlərin hərtərəfli araşdırılması üçün təhsil müəssisələrində rəhbər vəzifələrdə gender bərabərsizliyinə dair analitik hesabat hazırlanmış, yekun tövsiyələr məlumatda göstərilmişdir. Adını

çəkdiyim sahələrdəki bərabərsizliyi aradan qaldırmaq, təhsil və səhiyyə sahəsinə kişilərin cəlb edilməsi istiqamətində həvəsləndirici proqramlar hazırlanması məqsədəuyğun hesab edilir və işə qəbul zamanı isə xüsusilə boşluqlar diqqətdə saxlanılmalıdır. Çünki ali təhsil müəssisələrinə daxil olan və onları bitirən qızların sayı çox olduğu halda, işə qəbul prosesində birdən-birə oğlanlar ciddi şəkildə yüksək artıma malik olurlar.

Hörmətli millət vəkilləri, son illər ölkəmizdə informasiya və rabitə sahəsinə, ümumilikdə, artan diqqət və gender bərabərliyinin təmin olunmasına yönələn səylər nəticəsində bu sahədə çalışan qadınların sayı 2021-ci illə müqayisədə 2022-ci ildə 264 nəfər artmışdır. Nəqliyyat sahəsində isə ümumilikdə, 12 min 82 nəfər çalışmışdır. 2021–2022-ci illərdə "Technest" təqaüd proqramına cəlb olunmuş 618 tələbədən 47 faizini qızlar təşkil etmişdir. Onlardan 250 nəfəri – 35 faiz qadın isə işə götürülmüşdür. Bu, sahəyə cavabdeh mərkəzi icra hakimiyyəti orqanının ciddi addımlarının və apardığı işlərinin nəticəsidir.

Qanunun 15-ci maddəsinin nəzərdə tutduğu kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına dair sahədə də canlanma nəzərə çarpır.

Müxtəlif fəaliyyət növləri üzrə fərdi sahibkarların 22 faizini qadınlar, 78 faizini isə kişilər təşkil etmişdir. 2022-ci ildə mikro və orta sahibkarlıq növündə də qadınların say göstəricisi artmışdır.

Ötən il ərzində aqrar sektor üzrə yaradılan yeni qadın kooperativləri, həmçinin fermerlərə verilən subsidiya və güzəştli kredit məbləğlərinin artırılması kənd təsərrüfatı sahəsi ilə məşğul olan qadınların iqtisadi yüksəlişə bərabər

töhfə vermək imkanlarını xeyli genişləndirmişdir.

Ötən ildə “Elektron kənd təsərrüfatı” informasiya sistemində qeydiyyatdan keçmiş fermerlərin ümumi sayının 24 faizini isə qadın fermerlər təşkil etmişdir.

Dövlət əmlakının özəlləşdirilməsi və icarəyə götürülməsində qadınlar 2021-ci illə müqayisədə daha fəal iştirak etmişlər.

2022-ci ildə həm bank sektorunda çalışan işçilərin, həm də bank əmanətçiləri və kredit götürənlərin 60 faizi kişi, 40 faizi isə qadın olmuşdur. Bu sahə yeni istiqamətlərdir və burada qadınların iştirakı digər sahələrə nisbətən ürəkaçandır.

Qanunun 16-cı maddəsi siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının üzərinə qoyulan öhdəlikləri müəyyən edir. Bildiyiniz kimi, 2023-cü il yanvarın əvvəlinə ölkəmizdə dövlət qeydiyyatından keçmiş 48 partiya mövcuddur.

Ötən ildə “Qadın hüquqlarının müdafiəsi”, “Məişət zorakılığı və gender siyasətinin həyata keçirilməsi” mövzularında iki qrant müsabiqəsi elan olunub. Kiçik qrant müsabiqəsi çərçivəsində ailə, qadın, uşaq və gender məsələləri istiqaməti üzrə 44 layihə maliyyələşmişdir. Ümumilikdə, 2022-ci il üzrə keçirilən qrant müsabiqələrinin qalibi olmuş qeyri-hökumət təşkilatları rəhbərlərindən 188 nəfəri qadın, 345 nəfəri isə kişi olmuşdur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası gender bərabərliyi ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlamışdır. Bu istiqamətdə mühüm tədbirlər görməkdə davam etmişdir. Qeyd edək ki, 2022-ci il üçün bu təşkilatın seçkili orqanlarında üstünlük 67,6 faiz olmaqla kişilərə aiddir. Qadınların təmsilçiliyi isə 32,4 faiz təşkil edir.

Hörmətli millət vəkilləri, məlumatın sonuncu – 3-cü bölməsi 2022-ci ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələrdən, qarşıya qoyulan vəzifələrdən və tövsiyələrdən bəhs edir. İndiyə qədər qeyd etdiyim və məlumatda əksini tapanlar onu vurğulamağa əsas verir ki, siyasi təmsilçilik, iqtisadi sahədəki fəallıq, özəl və dövlət qurumlarında qərarvermə proseslərindəki bərabər iştirakla əlaqədar müşahidə edilən mövcud dinamika gender bərabərliyinin təmin edilməsi istiqamətində aparılan davamlı fəaliyyətin nəticəsidir. Bütün parametrlər üzrə, həmçinin qadınlara və kişilərə bərabər iş üçün bərabər ödənişlərin tətbiqi, rəhbər vəzifələrdə qadınların təmsilçiliyinin daha da artırılması, müxtəlif fəaliyyət sahələrində bərabər iştirakın stimullaşdırılması, real bərabərliyə mane olan ictimai normaların sağlamlaşdırılması üçün gender bərabərliyinin ardıcıl, sistemli və məqsədyönlü təşviq edilməsi zəruridir.

Bir daha diqqətinizə çatdırmaq istəyirəm ki, 2022-ci il iyunun 16-da BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə komitəsinin Cenevrə şəhərində keçirilmiş 82-ci sessiyasında Azərbaycan Respublikası hökumətinin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyanın, həmçinin adıçəkilən sənədlərin və digər normativ hüquqi aktların icrasının nəticələrinə dair altıncı dövri məruzəsi təqdim edilmişdir.

2022-ci il iyulun 12-də CEDAW komitəsi tərəfindən dövri məruzə üzrə yekun müşahidələr qəbul olunmuşdur. Yekun müşahidələrdə konvensiyanın ölkəmiz tərəfindən implementasiyası istiqamətində atılmalı olan növbəti addımlara dair tövsiyələr verilmişdir. Bu tövsiyələr məlumatın sonunda yerləşdirilmişdir.

Xüsusi vurğulamaq istərdim ki, CEDAW komitəsi

yekun müşahidələrində Azərbaycan hökumətinin qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması prosesini sürətləndirmək və gender bərabərliyini təşviq etmək üçün institusional və siyasi çərçivənin təkmilləşdirilməsi istiqamətindəki addımlarını alqışlamışdır.

Dövri məruzələrlə bağlı təcrübənin təhlili göstərdi ki, verilmiş tövsiyələrin yerinə yetirilməsi istiqamətində öncədən yol xəritəsinin müəyyən edilməsi, həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi üçün qurumlararası əlaqələndirilmiş fəaliyyətin təşkili daha məqsədəuyğundur. Bununla bağlı dövlət komitəsi yanında aidiyyəti dövlət orqanlarının rəhbər və mütəxəssis heyətinin təmsil olunduğu iki işçi qrup yaradılmışdır. İşçi qrupa 17 dövlət orqanının nümayəndələri daxildir.

Hörmətli millət vəkilləri! Məlumatın qısa xülasəsinin təqdimatının sonunda qanunun icrasına cavabdeh olan dövlət orqanları və digər tərəfdaşlarımız adından dəyərli Milli Məclis üzvlərinə ötən dövr ərzində bu sahəyə göstərdikləri diqqət və əməkdaşlıq səylərinə görə dərin təşəkkürümü bildirirəm. Əldə olunmuş müsbət nəticələrdəki iştirak və rolunuzu qeyd etməklə yanaşı, təklif və iradlarınıza da açıq olduğumuzu xüsusi vurğulamaq istərdim. Bəzi problemli istiqamətlərdəki dəstəyiniz isə çox qiymətlidir. Bu, bir həqiqətdir ki, əvvəlki illərə nisbətən gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi məsələləri müvafiq və əlaqədar komitələrin, eləcə də plenar iclasların gündəliyində daha çox yer almaqdadır. Şübhəsiz, bunun bir səbəbi illik məlumatların qəbuludursa, digər bir səbəbi isə Milli Məclisin sədri dəyərli Sahibə xanımın rəhbərliyi ilə parlamentin bu sahəyə yaxından dəstəyi və beynəlxalq reytinqlərin müəyyənləşməsində vacib indikator hesab edilən gender mədəniyyətinin təbliğinə verdiyi

önəmlə əlaqədardır.

Düşünürəm ki, bugünkü müzakirə kifayət qədər faydalı olacaqdır. Nəzərə alaq ki, ölkəmiz çox vacib və şərəfli tarixi dövrünü yaşayır və yeni bir mərhələyə keçid ərəfəsindəyik. Bu dönəmdə, əlbəttə ki, insan hüquqları, qadınların gücləndirilməsi və səlahiyyətləndirilməsi məsələsi kifayət qədər vacib əhəmiyyət kəsb edir. Mən düşünürəm ki, biz bu məsələləri əldə rəhbər tutaraq o hüquqların reallaşdırılmasına elə Prezident seçkilərində də diqqət yetirəcəyik və növbəti dönəm üçün Azərbaycanın gələcəyinə, onun rifahına xidmət edən istiqamətdə bir daha səs verəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Bahar xanım. Hörmətli həmkarlar, illik məlumata Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Mən komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz verirəm. Hicran xanım, xahiş edirəm, komitənin rəyini təqdim edin, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli Bahar xanım, hörmətli həmkarlar, media nümayəndələri. İlk növbədə illik məlumatı ətraflı şəkildə təqdim etdiyi üçün Bahar xanıma və komitənin bütün əməkdaşlarına təşəkkür edirəm.

Təqdimat və aparılan təhlillər göstərir ki, ölkədə gender bərabərliyinin təmin edilməsi sahəsində müsbət dinamika var. Bir çox sahələrdə qadınların iştirakçılığının artması müşahidə olunur. Son zamanlarda qadınlarımızın fəaliyyət növlərindən biri də minaların təmizlənməsidir. Əlbəttə ki, gender fərqi nəzərəçarpan sahələr hələ də var. Düşünürəm ki, zamanla bu fərq aradan qalxacaq. Ölkədə savadlılıq səviyyəsi çox yüksəkdir. Kişilər və qadınlar təhsilin bütün

pillələrində bərabər şəkildə fəal iştirak edir. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkəmizdə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır.

Bununla yanaşı, təhsildən yayınan uşaqlar, xüsusilə də qızlar var. Onu da Bahar xanım öz çıxışında qeyd etdi. Onların bir çoxu nikaha məcbur edilir. Biz bu istiqamətdə, yəqin ki, komitənin işlərini daha da gücləndirməliyik.

Məlumatda göstərildiyi kimi, sahibkarlıqla məşğul olan qadınların uğurları göz önündədir. Hazırda bir çox sahibkar qadınlar Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında iştirak edir. Ancaq bu istiqamətdə hələ də görülməli işlər var. Sahibkar qadınların sayının artması ilə yanaşı, onların keyfiyyətli və dayanıqlı fəaliyyətinə nail olmaq lazımdır.

Son dövrdə dövlət komitəsi çox vacib bir tədbirdə iştirak etdi. Bilirsiniz ki, komitə 11 ildir, SPECA (BMT-nin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatları üçün xüsusi proqramı) çərçivəsində iqtisadiyyatda qadınların iştirakçılığı üzrə işçi qrupunun rəhbəridir. SPECA-nın Azərbaycanda keçirdiyi konfransda həmin o qadınların toplantısı da keçirilmişdi. Demək olar ki, bu illər ərzində həm Azərbaycanın, həm də digər türk dövlətlərinin təcrübə mübadiləsi aparılmış, uğurlu layihələri təbliğ edilmişdir.

Bildiyiniz kimi, bu yaxınlarda cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən çox vacib konfransın iştirakçılarına dövlət başçımızın etdiyi müraciəti xüsusi qeyd etmək istərdim. BMT-dən sonra ikinci beynəlxalq təşkilatda qadın platformasının yaranması Azərbaycanın beynəlxalq qadın hərəkatına ən

mühüm töhfəsidir.

Məlumatda qeyd olunan qadın və kişilərin bərabər iştirakçılığı, gender mədəniyyətinin təbliği, gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması istiqamətində həyata keçirilən layihələr, tədbirlər bir daha göstərir ki, ölkədə gender bərabərliyinin təmin edilməsi ildən-ilə yüksəlir.

BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyası üzrə, – Bahar xanım bunu qeyd etdi, – son hesabat zamanı müvafiq komitə tərəfindən hökumətə verilən bir sıra tövsiyələrin müzakirəsi ilə bağlı deyərdim ki, Sahibə xanım, Sizin də dəstəyinizlə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və İnsan hüquqları komitələrinin birgə geniş müzakirəsi keçirildi. Tədbir zamanı həm deputat həmkarlarım, həm dövlət qurumları, həm də vətəndaş cəmiyyətləri tərəfindən qanunvericilik bazasının təkmilləşdirilməsi, icrası ilə bağlı bir çox təkliflər verildi.

Son zamanlar qanunvericilikdə bir sıra mühüm dəyişikliklər olunub. Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlara edilmiş dəyişikliklər gender bərabərliyinin təmin olunması sahəsində vacib əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Mövcud qanunvericilikdə qadınların əməyi qadağan olunan 674 peşə, vəzifə və iş yeri azaldılaraq 204 olaraq müəyyən edildi. Qadağan edilən bu peşə, vəzifə və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya 1 yaşınadək uşağı olan qadınlara şamil olundu. Hazırda Əmək Məcəlləsində qadınların məşğulluq imkanlarını məhdudlaşdıran normaların aradan qaldırılması,

qadın və kişilər üçün bərabər əmək şəraitinin yaradılması ilə bağlı dəyişiklik artıq ikinci oxunuşda plenar iclasda baxılması üçün təqdim olunub. Gələcəkdə də bir çox aktual məsələlərlə bağlı təkliflər ediləcəkdir.

Bizi narahat edən vacib məsələlərdən biri də məişət zorakılığı cinayətləri, onun ağır fəsadlarıdır. Bununla bağlı illik məlumatda çox geniş təhlil və təkliflər verilmişdir. Hamımız bilirik ki, ölkəmizdə bir çox səbəblərdən ailədaxili zorakılıq hallarının mütləq əksəriyyəti gizli qalır və hüquq mühafizə orqanlarına məlum olmur. Bu isə ağır cinayət hadisələri ilə nəticələnir. Çox yaxşı haldır ki, dövlət komitəsi bu məsələlərə xüsusi həssaslıq göstərir. Bu günlərdə "Məişət zorakılığının qarşısının alınması: imkanlar və perspektivlər" mövzusunda keçirilən beynəlxalq konfrans da buna əyani sübutdur.

"Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənmişdir. Həmin sənəddən irəli gələn əsas vəzifələrdən biri də "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun təkmilləşdirilməsidir. Düşünürəm ki, yardım mərkəzlərinin sayının artmasına, müxtəlif rayon və şəhərlərdə qaynar xətlərin yaradılmasına yenə də çox böyük ehtiyac vardır.

Biz dövlət büdcəsinin müzakirəsi zamanı da bu məsələlərə toxunmuşuq. Çox yaxşı haldır ki, ailə, qadın və uşaq məsələlərinə ayrılan vəsait ildən-ilə artır. Gələn ilin dövlət büdcəsində də kifayət qədər artım var. Bu isə yerlərdə aparılan işlərin daha da gücləndirilməsinə imkan yaradacaqdır.

Biz çox gözəl qanunlar qəbul edirik, amma onun icra mexanizmi hələ də zəifdir, ya da çevik deyil. Bu sahədə də təkmilləşdirməyə çox böyük ehtiyac var.

Bütövlükdə, xanım sədr, illik məlumat peşəkar səviyyədə tərtib olunmuşdur. Məlumatla tanış olanda ölkədə gender bərabərliyinin təmin olunması ilə bağlı əldə edilmiş uğurları, nəticələri görürük. Eyni zamanda, qarşıda dayanan vəzifələri də müəyyən etmək mümkündür. Qeyd edim ki, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə məlumatına cari il oktyabrın 25-də Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında baxılmış və Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. İllik məlumat bütün həmkarlarıma paylanılmışdır. Mən onları bu sənədə səs verməyə dəvət edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Təklif var, müzakirələr 5 dəqiqə keçirilsin. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən də razıyam. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də hörmətli Bahar xanıma çox ətraflı təqdimatına görə təşəkkür edirəm. Eyni zamanda, illik məlumatı dəstəkləyirəm. Kifayət qədər ətraflı və müfəssəl hazırlanmış bir məlumatdır. Təbii ki, bu məlumatın qəbuluna səs verəcəyəm.

Hesabatdan da göründüyü kimi, Azərbaycanda qadın hüquqlarının qorunması, qadınların ictimai-siyasi, iqtisadi sferada daha fəal şəkildə iştirakı dövlət tərəfindən dəstəklənib. Statistikada göstərilir ki, son illərdə xanımların çox fərqli sektorlarda iştirakında, eyni zamanda, sahibkarlıq subyektlərində payında artımlar var. Mən hesabatın məzmunu ilə bağlı bir sıra məqamlara diqqət çəkməklə yanaşı, bəzi tövsiyələrimi də təqdim etmək istərdim.

Əvvəla, hesabatın məzmununun təkmilləşdirilməsi və

yeni hesabatda əvvəlki illə müqayisədə digər yeni sektorlar üzrə təhlillərin aparılması kifayət qədər təqdirə-layiqdir. Əlilliyi olan xanımlarla bağlı, bank sektoru ilə bağlı hesabatın hazırlanması, təhlilin aparılması və məlumata əlavə edilməsi çox vacib idi. Təbii ki, bu istiqamətdə addımlar atılır. Sadəcə, məzmunla bağlı təklif etmək istərdim ki, gender büdcəsi  ilə bağlı təhlilin aparılması və növbəti illərdə məlumata əlavə edilməsi məqsədəuyğun olardı. Çünki digər oxşar ölkələrin məlumatlarında və hesabatlarında büdcənin gender təhlili də məhz məlumatda əks olunur.

Hesabatdan göründüyü kimi, 2022-ci ildə məişət zorakılığının sayı əvvəlki illə müqayisədə azalıb. Amma ölümlə nəticələnən məişət zorakılığının sayında artımlar var. Bunun səbəbinin təhlil edilməsi və hesabatda ayrıca olaraq qeyd olunması  məqsədəuyğun olardı.

Resurs mərkəzləri ilə bağlı hesabatda ətraflı məlumat var, amma resurs mərkəzlərinin qadınların hüquqlarının qorunmasına, qadınların biznesdə fəal iştirakına təsirləri-nin təhlil edilməsi və  məlumatda əks olunması məqsə-dəuyğun olardı.

Məlumatda dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti üzrə qadınların iştirakı ilə bağlı ayrıca təhlillər var. Bu, çox təqdirəlayiqdir. Amma vətəndaş cəmiyyətinin resurs mərkəzləri ilə, icmalarla işlədiyini nəzərə alaraq vətəndaş cəmiyyəti üzrə yalnız vətəndaş cəmiyyəti qu-rumlarının rəhbərlərinin deyil, vətəndaş cəmiyyətində çalışan qadınların sayı ilə bağlı statistikanın əlavə olun-ması və bu istiqamətdə  təhlilin  genişləndirilməsi də məqsədəuyğun olardı.

Bütövlükdə, xanımların iqtisadi sahədə daha fəal iştirak etməsi çox vacib məsələlərdən biridir. Statistikaya görə,

bu gün hər beş sahibkardan birinin xanım olmasına baxmayaraq, bütövlükdə, orta sahibkarların sayında qadınların sayı 8 faiz, kiçik sahibkarların sayında isə 16 faizdir. Eyni zamanda, bu gün yeni sahibkarlar arasında qadın sahibkarlar yoxdur. Ona görə daha məqsədəuyğun olardı ki, tövsiyələrdə yalnız sahibkarlıq subyektlərində deyil, eyni zamanda, iri, orta sahibkarlıq subyektlərində qadınların sayının artırılması ilə bağlı və bu istiqamətdə təşviqedici tədbirlərin tətbiqi ilə bağlı təkliflər də öz əksini tapsın.

Hörmətli Bahar xanımın qeyd etdiyi kimi, qadınların əmək haqları ilə kişilərin əmək haqları arasında fərq hələ də qalmaqdadır. Bu isə, təbii, onunla bağlıdır ki, qadınların kredit resurslarına çıxış imkanları kişilərlə müqayisədə nisbətən məhduddur. Ona görə bu istiqamətdə də təkliflərin təqdim edilməsi məqsədəuyğun olardı.

Digər tərəfdən, qadınlarla kişilər arasında əmək haqqı fərqi həm də qadınların pensiya yaşında daha az pensiya almasına gətirib çıxarır. Bir sıra ölkələrin təcrübəsi göstərir ki, qadınların pensiya kapitalının və pensiya məbləğinin hesablanması zamanı xüsusi əmsallar tətbiq olunur. Qadınların pensiya kapitalına xüsusi əmsalların tətbiq edilməsi onların pensiya məbləğinin artırılmasına gətirib çıxarır. Düşünürəm ki, komitə bu istiqamətdə də fəaliyyətini və təkliflərini gücləndirsə, daha məqsədəuyğun olardı.

Son olaraq, qadınların həm əmək hüquqlarının, həm də biznesdə iştirakının təmin edilməsi ilə bağlı təklifin genişləndirilməsi və onlar üçün xüsusi proqramların icra olunması məqsədəuyğundur. Mən məlumatı dəstəkləyirəm və hörmətli millət vəkillərindən də məlumata səs verməlerini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. 3 nəfər suala və ya təklifə yazılıb. Musa Quliyev. Buyurun.

**M.Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Bahar xanımın ətraflı məruzəsini dinlədik və hesabat xarakterli çox gözəl məlumat hazırlanıb bizə təqdim olunub. Təşəkkür edirəm.

Mənim sualım məişət zorakılığı ilə bağlı olacaqdır. Bütün statistik  məlumatlarda ancaq fiziki məişət zorakılığı önə çəkilir və bütün məlumatlar bunun üzərindədir. Bildiyiniz kimi, məişət zorakılığının başqa formaları da var. Psixi zəmində, iqtisadi zəmində məişət zorakılığı var. Bununla bağlı bizdə statistika varmı? Monitorinq aparılıbmı?

BMT-nin hesabatlarına görə, dünyada qadınların 20 faizindən 40 faizə qədəri iqtisadi diskriminasiyaya və asılılığa məhkumdurlar. Azərbaycanda belə bir statistika varmı? Bizdə iqtisadi zəmində məişət zorakılığı halları nə qədərdir və bunun səbəbləri nədir? Çünki fiziki məişət zorakılığına gedən yol psixi və iqtisadi zəmində zorakılıqdan başlayır. Onun qabağını alsaq, fiziki zorakılıq da azalar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Musa müəllim, psixi, yoxsa psixoloji?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Psixoloji. Nigar Arpadarai. Buyurun.

**N.Arpadarai.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mənim qısa bir təklifim var. Mən də ətraflı  məlumat üçün Bahar xanıma təşəkkür etmək istəyirəm. Burada bir məsələ diqqətimi çəkdi. 2022-ci ildə 609 intihar hadisəsi qeydə alınmışdır. Onlardan 42-si yetkinlik yaşına çatmayan şəxslər olmuşdur. Bu, əslində, dünyada olan bir problemdir və çox qorxunc bir məsələdir. Vəziyyət belədir ki, rəqəmsallaşma, informasiya texnologiyaları, sosial media və sair insanlara, gənclərimizə, uşaqlarımıza çox ciddi təsir göstərir. Bizim övladlarımız çox fərqli bir zamanda

yaşayırlar. Etiraf etməliyik ki, onlar məlumatları indi internetdən əldə edirlər. Ona görə mən təklif edərdim ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ölkə üzrə belə bir tədqiqat hazırlasın ki, uşaqların internet-dən istifadəsi necədir. Hansı kontenti əldə edirlər? Onlar necə istifadə edirlər? Sonradan bu kontent üzərindən mə-lumatlarla, aidiyyəti qurumlarla bölüşmək olardı.

**Sədrlik edən.** Çox sağ olun. Məlahət İbrahimqızı. Məlahət xanım, buyurun.

**M.İbrahimqızı.** Çox sağ olun, hörmətli xanım sədr. Mən də hörmətli Bahar xanıma, eləcə də Hicran xanıma mükəmməl hesabatı təqdim etdiklərinə görə təşəkkür edirəm. Həqiqətən də, çox böyük işlər görülübdür. Dü-şünürəm ki, məndən sonra çıxış edən həmkarlarım da suallar verəcəklər. Mənim sualım nədən ibarətdir? Son vaxtlar mətbuatda boşanmalarla bağlı hədsiz dərəcədə çox yalan-doğru xəbərlər yayılır, bəzən çox hallandırılır, bir az şişirdilir və sair. Bu da, sözsüz ki, Azərbaycanda ailə institutunun zəifləməsinə yönələn bir məsələdir. Bəzən isə məqsədli bir kampaniyadır. Boşanmalarla bağlı, xüsusilə də şiddətli zorakılığa məruz qalmış ailələrdə boşanmaların kökü müvafiq qurumlarla, məsələn, demoqrafiya ilə məşğul olan qurumlarla, yaxud da Ədliyyə Nazirliyi ilə birgə araşdırmalar aparılırmı?

**Sədrlik edən.** Çox sağ olun. Bahar xanım, sonda Sizə söz verəcəyəm, öz fikrinizi bildirərsiniz. Siyavuş Novru-zov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli qonaqlar, hörmətli millət vəkilləri. Bahar xanım ətraflı şəkildə burada məlumat verdi, dinlədik. Bu məlu-mat çox əhatəli şəkildə hazırlanıbdır. Biz dövlət komitəsi tərəfindən aparılan işləri izləyirik və görürük ki, öz

çərçivəsində xeyli işlər görür. O cümlədən hörmətli Hicran xanım da məlumatları verdi. Bununla əlaqədar olaraq Milli Məclisdə bir neçə dəfə dinləmələr keçirilibdir. Bu dinləmələrdə müxtəlif qurumlardan xeyli sayda insan iştirak edibdir.

Bu gün, doğrudan da, vacib olan məsələlərin müzakirəsi ilə bağlı hesabatları, məlumatları və bəzi rəqəmləri gördük. İlk növbədə qeyd etmək istərdim ki, bu məlumatlarla bağlı dövlət strukturları, məktəblər, xəstəxanalar və sair aydındır. Mən hesab edirəm ki, indi biz özəl sektorlarda çalışan qadınlarla bağlı məsələlərə üstünlük verməliyik. Çünki onların bilavasitə zəhmətidir. Tutaq ki, kimsə məktəbdə müəllim, yaxud həkim işləyirsə, onun proqramı da, sahəsi də aydındır. Amma özəl sektorda çalışan qadınlar bu gün çox çətinliklərlə rastlaşırlar.

İkinci. Mən hesab edirəm ki, ictimai-siyasi həyatda fəaliyyət göstərən qadınlarla bağlı məsələyə də biz çox ciddi diqqət yetirməliyik. Yeni cəmiyyətdə, yeni ictimai-siyasi mühitdə bu qadınların da rolu əhəmiyyətlidir və bu qadınların roluna da diqqət yetirmək lazımdır.

Eyni zamanda, bələdiyyələrdə də qadınlar təmsil olunur. Növbəti ildə bizdə bələdiyyə seçkiləri keçiriləcəkdir. Vaxtı ilə bələdiyyələrdə qadınlar 3 faiz təmsil olunurdusa, indi bu, 40 faizə yaxındır. Bir çox bələdiyyə sədrləri də qadınlardır. Bu sahəyə də diqqət yetirməliyik. Seçkili orqanlarda qadınların rolu və onların treninqləri, onların hazırlanması, onların bu sahəyə olan meyli – bunlar əsas məsələlərdən biridir.

Ən ciddi faktorlardan biri ondan ibarətdir ki, bu gün Azərbaycanda yol-nəqliyyat hadisələrindən sonra ikinci yerdə qadınların öldürülməsi dayanır. Biz hər gün mətbuatdan məlumat alırıq ki, həyat yoldaşı həyat yoldaşını

öldürdü, qayınata gəlinini güllələdi, qardaş bacısını baltaladı. Yəni orta hesabla götürəndə, – mən hesablamışam, – bu say 2-7 arasında dəyişir. Azərbaycanda elə gün olur, 7 qadın, elə gün olur ki, 2 qadın öldürülür. Yəni orta hesabla 3-lə götürsək, ildə mindən artıq qadın bu və ya digər məsələnin qurbanına çevrilir. Burada, təbii ki, "Tiktok"un, Azərbaycandakı serialların, informasiya-kommunikasiya texnologiyalarının rolu var. Bu məsələ ciddi şəkildə araşdırılmalıdır, baxılmalıdır. Özü də bu cür hadisələr istənilən yerdə, küçədə, konsert salonlarında, başqa-başqa yerlərdə baş verir. Bunun səbəbi araşdırılmalıdır ki, bunların öldürülməsinin səbəbi nədən ibarətdir. Əgər əvvəllər belə hallara şəhərdə daha çox rast gəlinirdisə, indi artıq görürük ki, rayonlarımızda, hətta kəndlərin özündə belə hadisələr baş verir. Rusiyadan qayıdıb gəlib, birinci həyat yoldaşını öldürür. Yaxud da başqa bir yerə çıxıb gedir, ailəsi ilə maraqlanmır, ailəsinə gəlib çatanda birinci yenə qardaşını, bacısını öldürür. Ona görə mən hesab edirəm ki, bu, hər bir kəsi ciddi şəkildə maraqlandırmalıdır, düşündürməlidir və bunun qarşısı alınmalıdır.

Bu, çox pis nəticəyə gətirib çıxarır, insanların, demək olar ki, aqressivliyini təmin edir. Televiziya kanallarında da bunu tərənnüm edən seriallara qəti şəkildə son qoyulmalıdır. Mən hesab edirəm, bu serialların qarşısı alınmalıdır. Göstərirlər və bilməyənə də yolunu öyrədirlər. Təşəkkür edirəm, səs verəcəyəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Hörmətli Bahar xanımın təqdim etdiyi hesabat çox hərtərəfli və eyni zamanda, qadın həssaslığı ilə hazırlanıb. Bütün bunlara rəğmən, hesabatda həm orta aylıq əmək

haqqı arasında fərqin aradan qaldırılması məsələsində, həm rəhbər orqanlarda qadınların təmsil olunması məsələsində və ümumiyyətlə, biznesdə, özəl sektorda qadınların rollarının artması məsələsində faiz nisbətinin çoxaldığını görürük ki, bu, təbii, müsbət haldır. Hörmətli Bahar xanım statistika da təqdim etdi. Mən bu fikirdəyəm ki, Azərbaycanda real vəziyyət hətta müsbət statistikada göstəriləndən də yüksək səviyyədədir.

Azərbaycanda qadına münasibət bizə "gender bərabərliyi" adı altında bəzən qısır cəmiyyət modelini sırımaq istəyən, ailə institutunu dağıtmaq istəyən çevrələrdə olduğundan daha yüksək səviyyədədir. Çünki söhbət tolerant ölkədən gedir. Bir ölkədə dinlərarası, irqlərarası, etnik qruplararası tolerantlıq varsa, deməli, bu, özünü cinslər arasında da büruzə verməlidir.

Bununla yanaşı, Azərbaycanda selektiv aborta tam son qoyulmalıdır. Azərbaycanda qızların təhsildən yayındırılmasına tamamilə son qoyulmalıdır. Azərbaycanda sevgidən və qayğıdan uzaq heç bir uşaq böyüdülməməlidir. Azərbaycanda seksual qısnama və qadın şiddətinə son qoyulmalı və lənətlənməlidir. Partiya liderləri arasında qadınlar olmalıdır, artıq növbəti dəfə prezident seçkilərində, yəqin, qadınlar da fəal iştirak edəcəklər.

Hörmətli xanım sədr, dəyərli həmkarlar, seçkidən söz düşmüşkən, ölkədə artıq növbədənkənar prezident seçkisinə hazırlıq gedir və mən bu mərhələdə önəmli saydığım bəzi məsələlərə toxunmaq istəyirəm. Öncə deyim ki, cənab İlham Əliyevin xalq arasında fövqəladə populyarlığını nəzərə alsaq, ilk baxışda bu seçki rəqibsiz təsir bağışlaya bilər. Amma gələn il fevralın 7-də Azərbaycan xalqı təkcə prezident seçməyəcək, həm də son 200 ildə millət olaraq qazandığımız ən böyük uğurumuzun əbədili-

yini təsdiq və təsbit edəcəyik. Ona görə də bu seçkidə güclü rəqib var və o rəqib torpaqlarımızı işğaldan qurtarmağımızla hələ də barışmayan yırtıcılardır. Onlar əmrlərini yerinə yetirəcək hər hansı bir antimilli ünsürü burada hakimiyyətə gətirməyin mümkünsüzlüyünü yaxşı bildiklərindən seçkini gözdən salmaq üçün bacardıqlarını edəcəklər və artıq etməyə başlayıblar. Həmin çevrələri yerində oturtmaq ilk növbədə seçici olaraq bizim öz əlimizdədir. Açığı, mən bu seçkini həm də vuruşmaq istəyib cəbhəyə gedə bilməyənlərə qazanılan Zəfəri öz səsləri ilə möhkəmləndirmələri üçün verilmiş şans kimi dəyərləndirirəm. Yəni fevralın 7-də səsverməyə qatılmaq təkcə seçici yetkinliyini deyil, eyni zamanda, bizim nə dərəcədə vətənpərvər olub-olmadığımızı üzə çıxaracaq. Ona görə də səsvermə hüququ olan hər bir soydaşımızı çox da zəhmət tələb etməyən, ancaq Zəfərimizə böyük qatqı sayılacaq bu addımı atmağa, fevralın 7-də seçki məntəqəsinə getməyə səsləyirəm.

Hörmətli həmkarlar, biz buradan tarixin əleyhimizə işləyən 200 illik gərdişini dəyişməyi bacaran liderimizin bu ölçüyəgəlməz xidmətinin qiymətləndirilməsi ilə bağlı çox təkliflər səsləndirmişik. Fikrimcə, cənab İlham Əliyev üçün elə ən böyük ad işğaldan və bolşevik məkrindən azad edilmiş torpaqlarımızda keçiriləcək ilk seçkidə qələbə çalan şəxs kimi də tarixə düşməkdir və o bunu tam haqq edir. Digər namizədlərə gəldikdə, məncə, belə bir seçkiyə elə bir statusla qatılmağın özü böyük şərəf və uğurdur. Ümumiyyətlə, bu növbədənkənar seçkidə hər kəs həm də özünə, əvvəl də qeyd etdiyim kimi, xalq olaraq qazandığımız Zəfərin əbədiliyinə səs verəcək.

44 günlük savaş günlərində və torpaqlarımızın üzərində suverenliyimizin tam təmininə yönəlmiş son addımlar

atılarkən, əksər partiya sədrləri dövlətimizin yanında olduqlarını birgə bəyanatla sərgiləyərkən onlara qoşulmayanların 7 fevral seçkisini boykot etmələri yuxarıda deyilənlərin təsdiqi deyilmi? Bu onun təsdiqi deyilmi ki, AXCP və Müsavatın başında duranlar o zaman da, indi də Azərbaycanın öz torpaqlarını işğaldan qurtarmasını gözü götürməyən çevrələrin diqtəsi ilə hərəkət ediblər və edirlər. Elələrinə yazıqlar olsun! Sizə isə diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Hörmətli həmkarlar, təklif var, səsə qoyaq. Mən öncə Bahar xanıma söz vermək istəyirəm. Sonra səsə qoyarıq. Bahar xanım, buyurun, bir neçə təklif, sual oldu.

**B.Muradova**. Təşəkkür edirəm, Sahibə xanım. Hər şeydən əvvəl, hörmətli millət vəkilləri, çıxış edənlərin, sual verənlərin, fikir və iradlarını bildirənlərin hər birinə dərin təşəkkürümü bildirirəm və narahatlıqlarını da başa düşürəm. Həqiqətən də, bəzi məsələlər ətrafında narahat olmağa dəyər. Yalnız bu narahatlığı ifadə etmək deyil, ondan da irəliyə gedərək tədbirlərin görülməsində yaxından iştirak etməyə də dəyər. Hesab edirəm, hər bir millət vəkilinin imkanı var ki, öz seçildiyi regionda bu məsələləri daim diqqətdə saxlasın. İstər təbliğat, təşviqat prosesinə qoşulmaq, istərsə də qabaqlayıcı tədbirlərin görülməsində müəyyən rolu ola bilər. Mən ilk növbədə sizdən bunu xahiş edərdim. Bu həmçinin bizim də hələ bilmədiyimiz, bizə gəlib çatmayan bəzi məlumatların üzə çıxarılmasına imkan verə bilər və birlikdə hamımızı narahat edən bu məsələlərə töhfə verə bilərik. Əlbəttə ki, təqdiredici çıxışlara görə bir daha təşəkkür edirəm və suallara keçmək istəyirəm.

Musa müəllimin sualı məişət zorakılığının iqtisadi-

psixoloji növləri ilə bağlı oldu. Bilirsiniz ki, iqtisadi-psixoloji növləri ilə bağlı məsələ konkret deyil və bunları öyrənmək, təhlil etmək və hətta bunu təhlil edərkən də tam əhatə etmək çox çətin bir məsələdir. Amma bununla belə, bu proses bizim diqqətimizdədir. Qeyd etmək istəyirəm ki, biz belə bir təhlil aparırıq. Çünki bizdə qaynar xətlərə edilən müraciətlər əsasında bu, aşağı-yuxarı ölkədəki vəziyyəti və bu iqtisadi-psixoloji təzyiqin mahiyyətini, səbəbini göstərir. “860” qaynar xəttinə 2022-ci ildə psixoloji təzyiqlə bağlı 225, fiziki ilə 113, cinsi təzyiqlə bağlı 4, iqtisadi məsələ ilə bağlı 26 müraciət olmuşdur. Əlbəttə, proses belədir ki, biz daha çox müraciət edildiyi halda məsələdən xəbərdar oluruq. Amma ümumilikdə, təhlil gedir. Siz də gördünüz ki, həm ötənilki məlumatda, həm də builki məlumatda komitə tərəfindən təşkil edilən təhlillər barədə məlumat vermişik və bu təhlillər kifayət qədər məqamları üzə çıxarır. Mən xahiş edərdim ki, siz onlara diqqətlə baxasınız və onların bir çoxu qanunverici təşəbbüsə yol açan təkliflərdir və bu istiqamətdə konkret təhlil ortaya qoymaq üçün biz vəziyyətdən çıxış edirik.

Təkcə “860” qaynar xətti deyil, digər qaynar xətlərə, o cümlədən yerli bələdiyyə orqanlarına, icra hakimiyyətləri yanında komissiyalara, komitənin özünə, qeyri-hökumət təşkilatlarına, sığınacaq yardım mərkəzlərinə edilən müraciətlər, ilk növbədə, ailədəki vəziyyəti üzə çıxarır və onun hansı səbəblərə söykəndiyini təhlil etməyə imkan verir. Biz bu istiqamətdə bəzi təhlillər aparmışıq. Mən Sosial Tədqiqatlar Mərkəzi ilə birlikdə ailənin psixoloji təhlili ilə bağlı apardığımız araşdırmanı xüsusi qiymətləndirirəm. Orada bütün parametrlər üzrə ailədə baş verən məsələlərə diqqət yetirilmişdir. Bu təhlil iki il bundan əvvəl aparılıb və onun verdiyi tövsiyələri biz hələ

real həyata keçirə bilməmişik. Ona görə bu sahədə də sizdən dəstək istərdim. Amma cəmiyyəti narahat edən bu məsələlər getdikcə genişləndiyindən, hesab edirəm ki, daha ciddi təhlillərə ehtiyac vardır və biz bunları aparacağıq.

İkinci sualı Nigar xanım verdi. İnternetdən istifadəyə dair tədqiqat. Belə tədqiqatlar bizdə bir neçə dəfə aparılıb, sosial şəbəkədən istifadəyə dair müxtəlif adlar altında tədqiqatlar olub. Nəticə etibarı ilə bizim bildiyimiz və hər zaman səsləndirdiyimiz nəticələr, fikirlər ortaya çıxır ki, bu, ailələrdəki vəziyyətə bağlıdır, uşaqla valideyn arasındakı münasibətlərə, valideynlərin öz arasındakı münasibətə və uşağın diqqətsiz buraxılmasına, intellektual oyunlara cəlb olunmasına və onun da ardınca digər xoşagəlməz proseslərə qatılmasına gətirib çıxarır və bu da, əlbəttə, uşağın psixologiyasını dəyişir, ailədə mühiti tamamilə fərqli istiqamətə aparır. Bütün bunların qarşısını necə almaq olar? Biz bunu ciddi şəkildə düşünməliyik. Apardığımız tədqiqatlar hələlik bizə yalnız bunun təsvirini verməyə imkan verir. Nəticələri necə dəyişə bilərik, düşünürəm, o barədə qarşıdakı dövrdə biz addımlar atmalıyıq.

Məlahət xanımın sualı. Boşanmalarla bağlı digər qurumlarla birgə təhlil aparılırmı? Bilirsiniz ki, bu, Ədliyyə Nazirliyinin səlahiyyətində olan məsələdir və biz onlarla birlikdə bu prosesdə iştirak edirik. Eləcə də mübahisəli boşanmalar zamanı, xüsusilə məişət zorakılığı halı ilə əlaqədar boşanmalar zamanı məhkəmələr tərəfindən komitəyə müraciətlər olunur və bizim nümayəndələr o məhkəmələrdə iştirak edirlər. Bu zaman boşanmaların səbəbi ilə bağlı məsələlər bizə bəlli olur. Ötən il komitə tərəfindən nikahın xitamı ilə bağlı qanunvericiliyin tətbiqinin vəziyyətinin öyrənilməsinə dair xüsusi bir araşdırma,

konfrans keçirdik. O konfransda həm Ali Məhkəmə, həm Vəkillər Kollegiyası, həm də ictimaiyyət nümayəndələri ilə kifayət qədər ciddi müzakirə aparıldı. Biz onun nəticələri barədə məlumatları, tövsiyələri aidiyyəti qurumlara təqdim etmişik. Düşünürəm ki, orada həm qanunverici, həm də icra mexanizmləri ilə bağlı təkliflər nəzərə alınarsa, bu prosesi müəyyən qədər idarə etmək olar.

Aliment fondu ilə bağlı müraciətlər də çoxdur və biz bunu tövsiyələrimizdə də bildirmişik. Boşanmaların bir çoxunun səbəbi ailədə iqtisadi vəziyyətlə bağlı olur. Boşandıqdan sonra isə bu vəziyyət tamamilə kəskinləşir. Bu ailələri düşdüyü vəziyyətdən çıxarmaq üçün mütləq şəkildə dövlətin dəstəyi ilə ciddi bir addımın atılmasına ehtiyac vardır.

Özəl sektorda qadınların vəziyyəti ilə bağlı. Siz gördünüz ki, biz bu məlumatları hazırlamağa yeni başlamışıq. Bu, bizim dördüncü məlumatımızdır ki, təqdim edirik. İlk təqdim olunan məlumatla son məlumat arasında onun bazası və görülən işlərin istiqaməti ilə bağlı ciddi fərqlər vardır. Biz getdikcə daha çox istiqaməti əhatə etməyə çalışırıq. Amma özəl sektorda bu və ya digər sualların cavablandırılması o qədər də asan məsələ deyil. Düşünürəm ki, bununla bağlı yoxlamalara icazə verilməməsi səbəbindən digər məlumatların da alınması mümkün olmur. Aldığımız məlumatların da nə dərəcədə dəqiqliyinə əmin deyilik. Ona görə, düşünürəm ki, bu istiqamətdə, bəli, mütləq işlər görmək lazımdır.

Siyavuş müəllimin narahatlığı. Əlbəttə ki, mən rəqəmi göstərdim, çıxışımda da söylədim. 2022-ci il ərzində məişət zəminində baş vermiş cinayətlərin 51-i ölümlə nəticələnmişdir. Lakin 2022-ci ildə 2021-ci ilə nisbətən artım vardır. 2021-ci ildə 46 nəfər olmuşdur. Bilirsiniz,

diqqət çəkən məqam bu məsələyə münasibətin qəbul-edilməz olması və insanların etirazıdır. Bəzən baş vermiş bir hadisə ətrafında çox ciddi müzakirələr aparılır və bu on dəfələrcə, yüz dəfələrcə artırılır və bizə elə gəlir ki, hər gün 7 nəfər ölür, yəni belə deyil. Zorakılıq hadisələri çox-dur. Onun içərisində zorakılığa məruzqalma nəticəsində ölən qadınlar da var. Amma onların hamısı məişət zorakılığı zəminində ölmür. Digər zorakılıq cinayətləri ilə əlaqədardır. Ona görə mənə elə gəlir, bunu fərqləndirmək lazımdır. Amma mən sizinlə razıyam ki, biz buna son qoymalıyıq. Ona görə də zorakı kişilərlə işlərin aparılması istiqamətində layihələrimiz vardır və biz qurbanı müdafiə etməkdən daha çox zorakı hərəkətlərə yol vermiş insan-ların psixoloji durumu ilə məşğul olan layihələri reallaş-dırmalıyıq və onların reabilitasiyası ilə bağlı proqramlar olmalıdır. Bunun üçün də reabilitasiya mərkəzləri olmalı-dır və bu mərkəzlər xüsusi işçilərlə, mütəxəssislərlə təmin olunmalıdır. Bu, müəyyən qədər vaxt alan məsələdir. Amma bu, bizim niyyətimizdir, bunu etməyə çalışacağıq.

Mənə elə gəlir ki, suallara cavab verdim. Başqa bir sual qalmadısa... Əlbəttə, mən çox istərdim ki, millət vəkilləri publik adamlar olduqları üçün bu məsələlərlə bağlı çağırışlara, mesajlara xüsusi üstünlüklər versinlər və hər kəs öz seçicisinin ailəsinə daxil olduqda onun ailəsi ilə necə davrandığına da diqqət etsin, bir tövsiyə də versin. Mənə elə gəlir ki, biz bütün mümkün imkanlardan, ailəyə daxil olmaq imkanlarından istifadə edərək bu məsələlərin qarşısını almaq istiqamətində səylərimizi birləşdirməliyik. Bir daha təşəkkür edirəm. Diqqətinizə və narahatlığınıza görə sağ olun.

**Sədrlik edən.** Bahar xanım, çox sağ olun. Mən ba-xıram, Sabir müəllim yazılıb. Sabir müəllim, biz artıq səsə

qoymalıydıq. Sualınız var? Bahar xanıma sual var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, tez deyin, zəhmət olmasa.

**S.Rüstəmxanlı.** Mənim çıxış etməyə imkanım olmadı. Gender bərabərliyi ilə bağlı Azərbaycan ailələrinin çox böyük problemləri var ki, əslində, geniş müzakirə olunmalıdır. Onlardan biri, ümumiyyətlə, ailələrimizin tez dağılmasıdır. Bizdə möhkəm ailə institutu olub. Təəssüf ki, indi bu, zəifləyir, ailələr dağılır, abort bir problemdir, qızların ana olmaq istəməməsi ikinci bir problemdir. Burada çox məsələlər var, mən indi dilə gətirmək istəmirəm. Bunların bir səbəbi də iqtisadi çətinliklərdir. Ona görə mən bilmək istəyirəm ki, komitə Azərbaycanda ənənəvi olaraq daim anaların, ailələrin qorunmasına kömək edən uşaq pulu məsələsini dövlət qarşısında qaldırıb, ya qaldırmayıb? Bu məsələyə necə baxırlar? Neçə illərdir, bu, Milli Məclisdə müzakirə olunur. Bir dəfə bu hesablansın. Sosial yardım adına çox şeylər danışırıq. Ən...

**Sədrlik edən.** Sabir müəllim, mən çox üzr istəyirəm, Sizin vaxtınız bitdi. Düşünürəm ki, əsas sualınız aydın oldu. Bahar xanım, nə isə demək istəyirsiniz? Buyurun.

**B.Muradova**. Mən qısa şəkildə demək istərdim ki, Azərbaycan hökumətinin təklif etdiyi proqramlara, qanunverici aktlara bu parlamentdə hər dəfə münasibət bildirilmişdir və bizim bəzi sahələrdə ünvanlılığa üstünlük verdiyimiz sirr deyil. O baxımdan bunun bir tərəfi məhz ünvanlı yardımlar siyasətinin götürülməsidir. İkinci tərəfdən, mən düşünürəm, bəlkə qanunvericilikdə çoxuşaqlı ailələrin sayındakı yanaşmaya diqqət etmək olar. Çünki 5 uşaqlı ailələrdən başlayaraq ailələrə ünvanlı yardım göstərilir. Bəlkə onun sayını aşağı endirmək olar. O ki qaldı başqa nə tədbirlər görürük, biz aliment fondunun

yaradılmasının tərəfdarıyıq, amma dövlətin ümumi siyasəti çərçivəsində ünvanlı yardımların daha əlçatan olması ilə bağlı addımlar atıla bilər. Biz də bu prosesdə iştirak edə bilərik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Bahar xanım. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bahar xanım, Sizə "çox sağ olun" deyirik və rəhbərlik etdiyiniz kollektivə də yeni uğurlar arzulayırıq. Çox sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Bizim 2-ci məsələmiz "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və ya konsulluq əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyətinə cəlb edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Bilirsiniz, həmişə belə olur. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Ona görə də mən sözü komitənin sədri hörmətli Səməd Seyidova verirəm. Səməd

müəllim, buyurun, məlumat verin.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, son zamanlar biz Azərbaycanın diplomatlarına, onların iş şəraitlərinə, onların xarici ölkələrdə fəaliyyətlərinə xüsusi diqqət yetiririk. Dövlət tərəfindən görülmüş tədbirlər bu işi yüksək səviyyəyə qaldırmışdır. Bu istiqamətdə olan addımlardan biri kimi məhz bu qanun layihəsini xüsusi qeyd etmək lazımdır. Ona görə ki, bu qanun layihəsinə əsasən artıq xaricdə işləyən yalnız diplomatların deyil, onların ailə üzvlərinin də işlə təmin olunması məsələsi öz həllini tapır. Bu, çox gözəl, çox vacib, çox əhəmiyyətli bir addımdır. Ona görə ki, bu addımla bizim diplomatların həm işinin səmərəliliyi yüksəlir, həm də Azərbaycan vətəndaşlarının xarici ölkədə hüquqi baza əsasında işinin təşkil olunmasının ən yüksək səviyyədə təmin olunması əsasları yaradılır. Bu, məsələnin bir tərəfidir.

İkinci tərəfi isə bu sazişin məhz Serbiya ilə imzalanmasıdır. Siz bilirsiniz ki, dünən cənab Prezident Serbiyada keçirilmiş seçkilərlə bağlı öz təbrik məktubunu göndərmişdir. Dekabrın 10-da dövlətimizin başçısı Serbiya–Bolqarıstan qaz interkonnektorunun layihəsinin açılışında iştirak etmişdir. Həmin tədbirdə cənab Prezident bu sözləri demişdir: "Serbiya–Azərbaycan əlaqələri sürətlə və dinamik şəkildə inkişaf edir. Biz strateji tərəfdaşıq. Çünki strateji tərəfdaşlıq haqqında bəyannaməni imzalamışıq və sözdə, sənətdə və əməldə bu yüksək statusa sadiqliyimizi göstəririk". Deməli, bu saziş həm bizim diplomatların iş səmərəliliyini ən yüksək səviyyədə artırmağa, həm də Serbiya–Azərbaycan münasibətlərinə çox ciddi müsbət təsir göstərəcək bir sazişdir. Beynəlxalq münasibətlər və

parlamentlərarası əlaqələr komitəsində biz bunu müzakirə etmişik, komitəmizin üzvləri yekdilliklə bu məsələyə öz müsbət münasibətini bildiriblər. Mən həmkarlardan buna müsbət səs vermələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hikmət müəllim yazılıb. Hikmət müəllim, bununla bağlı sözünüz var? Buyurun.

**H.Məmmədov**. Hörmətli xanım sədr, mən bu layihəyə səs verəcəyəm. Ancaq mən düşünürəm ki, bu qanunu model olaraq biz Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrdəki səfirlik və konsulluqlarımızın ailə üzvlərinə də şamil edə bilərik. Hörmətli Səməd müəllimdən xahiş edirəm, imkan varsa, qanunvericilik təşəbbüsündən çıxış edərək belə bir layihənin də ərsəyə gəlməsinə öz imkanları ilə köməklik etsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Əslində, bununla bağlı mən dünən də fikir söylədim. Səməd müəllim, buyurun.

**S.Seyidov.** Hörmətli həmkarlar, mən sizə minnətdarlığımı bildirirəm. Ancaq xatırlatmaq istəyirəm ki, 2016-cı ildə Türkiyə ilə bu saziş parlamentdə ratifikasiya olunub və artıq qüvvədədir. Yalnız Türkiyə ilə deyil, başqa ölkələrlə də var. Ancaq bu məsələ Türkiyə ilə artıq birbaşa olub.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. İndi biz gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ də Dövlət ehtiyatları haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, indiki zamanda ərzaq təhlükəsizliyi üçün kifayət qədər vacib olan Dövlət ehtiyatları haqqında qanun layihəsi birinci və ikinci oxunuşlar zamanı plenar və komitə iclaslarında geniş müzakirə olunmuş, hətta ikinci oxunuş zamanı deputatların təklifləri əsasında müvafiq dəyişikliklər də qanunda öz əksini tapmışdır. İkinci oxunuşdan sonra, hörmətli xanım sədr, komitəyə hər hansı bir təklif daxil olmamışdır. Qanun layihəsi ikinci oxunuşdan sonra olduğu kimi saxlanılır. Layihə 4 fəsil, 14 maddədən ibarətdir və həmkarlarımdan qanunu üçüncü oxunuşda dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini, üçüncü oxunuşda olan qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Növbəti, 4-cü məsələ "Antiinhisar fəaliyyəti haqqında" Qanunda və digər yeddi qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də, Tahir müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**T.Mirkişili**. Hörmətli xanım sədr, bu qanun layihələri ilə bağlı ikinci oxunuşdan sonra komitəyə hər hansı bir təklif daxil olmadığından layihələri olduğu kimi səsə qoymağınızı Sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə daha üç komitədə baxılmışdır. Birinci komitə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsidir. Hörmətli Ziyafət müəllim, xahiş edirəm, məlumat verin. Komitənin rəyini bildirin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, komitənin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Layihəyə Aqrar siyasət komitəsində də baxılmışdır. Tahir müəllim, Sizdən xahiş edəcəm, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Hörmətli sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Layihəyə

Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb və komitənin rəyini bildirmək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli sədr, Hüquq siyasəti komitəsinin də rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Üçüncü oxunuşdur, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 16 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. İndi biz 5-ci məsələyə keçirik. Bu məsələ də "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" qanunların icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Ona görə də, Əli müəllim, Siz özünüz təqdim edəcəksiniz. Buyurun.

**Ə.Hüseynli.** Hörmətli sədr, hörmətli həmkarlar! Xanım sədr, Sizin də qeyd etdiyiniz kimi, layihə uyğunlaşdırma xarakterlidir. Heç bir təklif daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Hörmətli həmkarlar, qanun layihəsinə üç ayrı komitədə baxılmışdır. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Tahir müəllim, özünüz məlumat verəcəksiniz, buyurun.

**T.Mirkişili**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, layihə ilə bağlı komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. İctimai birliklər və dini qurumlar komitəsində də baxılıb. Mən Sahib müəllimə söz verəcəm. Sahib müəllim, buyurun. Sahib Alıyev.

**S.Alıyev,** *Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, dəyərli həmkarlar. Komitə üzvləri edilən bütün dəyişikliklərin lehinə səs veriblər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Gənclər və idman komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən komitənin sədr müavini Şahin İsmayılova söz verirəm. Şahin müəllim, buyurun.

**Ş.İsmayılov,** *Milli Məclisin Gənclər və idman komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur. Ona görə gərək qanun layihəsini əsas kimi qəbul edək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi. Deyəsən, heç kimin sözü, sualı yoxdur. Ona görə də biz qanun layihəsini əvvəlcə maddələr üzrə qəbul etməliyik. Qanun layihəsi 21 maddədən ibarətdir. Hörmətli həmkarlar, mən onları beş-beş səsə qoyacağam. İndi isə xahiş edirəm, ilk beş maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə növbəti beş maddəyə, yəni 6, 7, 8, 9, 10-cu maddələrə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Nəhayət, son beş maddəyə –

11, 12, 13, 14, 15-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

Mən üzr istəyirəm, bunlar son deyildi. Son altı maddə də var. Mən onları bir yerdə səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi. İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik, hörmətli həmkarlar. 6-cı məsələ Cinayət-Prossessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli sədr. Birinci oxunuşdan sonra heç bir təklif daxil olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur. Xatırladım, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Mən qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirəm. İyirmi üç maddədən ibarətdir. Mən onları beş-beş səsə qoyacağam. Buyurun, birinci beş maddəyə səs verin.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu beş maddə qəbul edildi.

İndi isə mən növbəti beş maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, xahiş edirəm, sonrakı beş maddəyə, 11, 12, 13, 14, 15-ci maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

Növbəti beş maddəyə – 16, 17, 18, 19, 20-ci maddələrə, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

Bizim üç maddəmiz qalır, hörmətli həmkarlar. Bu üç maddəni də mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 7-ci məsələyə keçirik. Bu, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı təklif olmadığından səsə qoyulmasını təklif edirəm.

**Sədrlik edən.** Çox sağ olun, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Heç kim müzakirəyə yazılmayıb. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 3 maddədən ibarətdir. 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi mən 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

3-cü maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Necə, fasiləsiz? Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Fasiləsiz. Növbəti, 8-ci məsələ Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Əmək  və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm.  Musa müəllim, buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Birinci oxunuş zamanı çıxış edən və səs verib layihəni dəstəkləyən həmkarlarıma minnətdarlığımı bildirirəm. Layihənin mətnində heç bir dəyişiklik olunmayıb. Komitəyə əlavə təkliflər daxil olmayıb. Xahiş edirəm, ikinci oxunuşda layihəni dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hicran xanım, sizin komitənizdə baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**H.Hüseynova**. Hörmətli sədr, bizim də komitəmizin rəyi müsbətdir, səsə qoyulsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Biz bu qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Maddələr üzrə qəbul etməliyik. Layihədə 5 maddə var. Onların üçünü bir, ikisini bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu 3 maddə qəbul edildi.

İndi isə 4-cü, 5-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bilirsiniz ki, onlar mahiyyətcə də bir-birinə yaxındır. 9-cu məsələ "İşsizlikdən sığorta haqqında" Qanunda dəyişiklik edilməsi haqqında, 10-cu məsələ isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələridir. Mən, həmişə olduğu kimi, təklif edirəm ki, qanun layihələrinin təqdimatları müxtəlif olsa da, müzakirəni birgə aparaq. Səsverməni isə ayrılıqda keçirəcəyik. Çox hörmətli Musa müəllim, 9-cu məsələyə sizin komitənizdə baxılıb. Xahiş edirəm, bununla bağlı məlumat verin.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri. Birinci oxunuş zamanı layihə barədə ətraflı məlumat verilmişdir. Qısaca olaraq xatırlatmaq istəyirəm ki, dəyişikliklərin mahiyyəti işsizlikdən sığorta ödənişi almaq hüququ olan şəxslərin dairəsini genişləndirir. Layihənin mətnində heç bir dəyişiklik olunmayıb, komitəyə əlavə təkliflər daxil olmayıb. Xahiş edirəm, ikinci oxunuşda dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, 10-cu məsələyə Hüquq siyasəti və dövlət qu-

ruculuğu komitəsində baxılıb. Kamal müəllim, bu gün məlumatı Siz verirsiniz. Buyurun, 10-cu məsələ ilə bağlı məlumat verin.

**K.Cəfərov.** Hörmətli xanım sədr, hər hansı təklif olmadığından səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihələrini bir-bir əsas kimi qəbul etməliyik. Xahiş edirəm, 9-cu məsələdə olan qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu məsələdə olan qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 10-cu məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Mən qanun layihə-

lərini səsə qoyuram. 9-cu məsələdə – "İşsizlikdən sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 3 maddə var. Mən onları bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 10-cu məsələdə, yəni İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində 1 maddə var. Xahiş edirəm, bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, gündəliyin növbəti 7 məsələsi möhtərəm cənab Prezidentin 1 məktubu ilə Milli Məclisə daxil olub. Məzmun və mahiyyətcə də bir-birinə yaxındır. 11-ci məsələ Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 12-ci məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, 13-cü məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, 14-cü məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 15-ci məsələ "Dəniz limanları haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 16-cı məsələ "Milli təhlükəsizlik haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 17-ci məsələ isə "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, mən təklif edirəm, keçən dəfə olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə müzakirəyə və səsverməyə keçək.

11-ci, 15-ci və 17-ci məsələlərə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Bu qanun layihələrinə dair məlumatı keçən dəfə də hörmətli Anar Məmmədov vermişdi, elə deyilmi? Anar müəllim, xahiş edirəm, bu dəfə də bu qanun layihələri haqqında bizə məlumat verin. Buyurun.

**A.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm, çox hörmətli xanım sədr. Hörmətli

həmkarlar, hər üç qanun layihəsi artıq birinci oxunuşda təqdim olunmuşdur. Xatırlatmaq istərdim ki, təklif olunan dəyişikliklər dəniz nəqliyyatı sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı fəaliyyətin səmərəliliyinin artırılmasını təmin edəcəkdir. Layihələrin hazırlanması zamanı beynəlxalq təcrübədən istifadə olunmuş və qlobal tendensiya da nəzərə alınmışdır. Bildirmək istərdim ki, qanun layihələrinə təklif edilən dəyişikliklər dənizçilik sahəsində fəaliyyətin daha da səmərəli aparılması istiqamətində böyük əhəmiyyət kəsb edir.

Qanun layihəsi ikinci oxunuşda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş şəkildə müzakirə edilmişdir. Hörmətli həmkarlarımız tərəfindən də müsbət rəy verilmişdir. Hörmətli həmkarlarımızdan qanun layihələrinə səs vermələrini və dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Anar müəllim, çox sağ olun. Hörmətli həmkarlar, 12-ci, 13-cü və 14-cü məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Kamal Cəfərov bizə məlumat verəcək. Kamal müəllim, buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Hər hansı bir təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. 16-cı məsələyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Ziyafət müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun.

**Z.Əsgərov.** Hörmətli xanım sədr, qanun layihəsi redaktə xarakteri daşıyır. Ona görə səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, bu qanun layihələrini bir-bir əsas kimi qəbul etməliyik. Xahiş edirəm, 11-ci məsələyə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.06 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə mən 12-ci məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| --- | --- |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

13-cü məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.07 dəq.) |
| --- | --- |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 14-cü məsələni əsas kimi səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

15-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

16-cı məsələni əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Xahiş edirəm, 17-ci məsələyə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun,  bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Heç kim müzakirəyə yazılmayıb. Mən əvvəlcə qanun layihələrinin maddələr üzrə səsverməsinə keçirəm, sonra isə bütövlükdə. İndi biz 11-ci məsələyə, yəni Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin səsverməsinə keçirik. Qanun layihəsində 41 maddə var. Mən onları beş-beş səsə qoyacağam, hörmətli həmkarlar. Xahiş edirəm, birinci 5 maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə mən növbəti 5 maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, bu maddələr.

İndi isə 11-ci, 12-ci, 13-cü, 14-cü və 15-ci maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Növbəti 5 maddəyə – 16-cı, 17-ci, 18-ci, 19-cu və 20-ci maddələrə, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.10 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 5 maddəyə – 21-dən 25 də daxil olmaqla, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 26-dan 30-cu maddə daxil olmaqla, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

31-dən  35 daxil olmaqla, növbəti 5 maddəyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bizim son 6 maddəmiz qalır. Mən onları birlikdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələnin səsverməsinə keçirik. 12-ci məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

13-cü məsələnin səsverməsinə keçirik. Bu, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. 1 maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

14-cü məsələnin səsverməsinə keçirik. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. Çox sağ olun.

3-cü və 4-cü maddələri səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi. Çox sağ olun.
Qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Dəniz limanları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. 4 maddədən ibarətdir. Mən onları yenə də iki-iki səsə qoyacağam. Xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.
3-cü və 4-cü maddələri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

16-cı məsələnin səsverməsinə keçirik. "Milli təhlükəsizlik haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 1 maddə var. Bu maddəyə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 17-ci məsələnin səsverməsinə keçirik. "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində 6 maddə var. Mən onları üç-üç səsə qoyacağam. 1-ci, 2-ci, 3-cü maddəyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə növbəti 3, yəni sonuncu maddələrə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr də qəbul edildi.

İndi isə bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ – 18-ci məsələ "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün yenə də hörmətli Məşhur Məmmədov çıxış üçün söz götürəcək. Məşhur müəllim, buyurun.

**M.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" qanunlarda edilən dəyişikliklərlə bağlı qanun layihəsi barədə birinci oxunuşda məlumat verilmişdir. Oxunuşdan sonra təklif və iradlar daxil olmadığından layihənin ikinci oxunuşda səsə qoyulmasını sizdən xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Məşhur müəllim, çox sağ olun. Bu qanun

layihəsinə iki komitədə baxılıb, hörmətli həmkarlar. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini, Kamal müəllim, Siz bildirəcəksiniz. Buyurun.

**K.Cəfərov.** Hörmətli xanım sədr, komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim, məsələyə sizin komitədə də baxılıb. Xahiş edirəm, məlumat verin.

**Z.Əsgərov.** Hörmətli xanım sədr, komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xatırladım ki, ikinci oxunuşdur. Bu qanun layihəsinə əsas kimi səs verməliyik. Mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.20 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

İndi müzakirəyə yazılanlar yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə mən 2-ci maddəni səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə ikinci oxunuşda bu qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. 19-cu məsələ "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hörmətli həmkarlar, onu da deyim məsələnin müzakirəsi ilə əlaqədar iclasımıza dəvət olunan şəxslər var. Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi hörmətli

Elçin Əliyev, xoş gəlmisiniz. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Anar müəllim Əliyev, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdirləri hörmətli Elnur Abbasov və hörmətli Fazil Talıbov, siz də xoş gəlmisiniz. Mən qonaqlarımızı salamlayıram.

Hörmətli həmkarlar, qanun layihəsinə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Ziyafət müəllim, sizdə baxılıb. Ancaq bizə məlumatı komitənin üzvü hörmətli Arzu Nağıyev verəcək. Arzu müəllim, buyurun.

**A.Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, hörmətli qonaqlar, media nümayəndələri. Təklif olunan layihə "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda ediləcək dəyişikliklərə aiddir. Belə ki, qanun layihəsi hərbi qulluqçuların pensiya hüququ, təhsil hüququ və xidmətkeçmə müddətləri ilə bağlı dəyişiklikləri nəzərdə tutur. Birinci oxunuşda 11 deputat həmkar layihə ilə bağlı öz münasibətlərini bildirdilər, suallarla müraciət etdilər və onlara müvafiq cavablar verildi.

Hörmətli Sahibə xanım, Sizin tövsiyənizlə birinci oxunuş plenar iclasdan sonra 3 aidiyyəti komitə rəhbəri və 2 deputatın iştirakı ilə jurnalistlər üçün geniş brifinq keçirildi. Layihə ilə bağlı çoxsaylı suallara cavablar verildi. Bundan başqa, tərəfimizdən sosial şəbəkələr və digər elektron resurslar vasitəsi ilə daxil olan 34 sual cavablandırılıb. Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial

Müdafiəsi Nazirliyinin məsul əməkdaşları tərəfindən izahatlar verilib.

Layihə komitənin iclasında da müzakirə edildi və ikinci oxunuşa tövsiyə olundu. Müzakirələr vaxtı iclasda iştirak edən Müdafiə Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məsul əməkdaşları da əlavə suallara cavablar verdilər.

Azərbaycan Ordusunun qoşun növü, birlik, birləşmə, hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitləri və psixoloqları ilə təlim-metodiki toplantıda keçirilən görüş vaxtı verilən suallara tərəfimizdən vahid cavablar və izahatlar verilmişdir. Bir sözlə, layihə hərtərəfli müzakirə olunub, dövlətçilik, ordu quruculuğu, müdafiə qabiliyyətinin artırılması, hərbçilərin sosial məişət şəraitinin daha da yaxşılaşdırılması baxımından mütərəqqi bir layihədir. Buna görə də ikinci oxunuşda layihənin lehinə səs verməyi təklif edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Düşünürəm ki, brifinqin də keçirilməsi çox faydalı idi. Dediyiniz kimi, Siz sualların hamısına cavab vermisiniz.

Hörmətli həmkarlar, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən Musa müəllimə söz verirəm. Buyurun, Musa müəllim.

**M.Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarımız Arzu Nağıyev ətraflı məlumat verdi. Deyilənlərlə biz də şərikik və dəstəkləyirik. Komitəmizin rəyi müsbətdir.

Hörmətli xanım sədr, Sizin tapşırığınızla, Arzu müəllim də söylədi, keçirilən brifinqdən sonra müxtəlif kütləvi informasiya vasitələrində bu məsələlər geniş işıqlandırıldı.

Cəmiyyəti maraqlandıran suallara aydınlıq gətirildi. Eyni zamanda, Sizin tapşırığınıza əsasən Milli Məclisə bu məsələ ilə bağlı daxil olan təkliflərə və müraciətlərə Milli Məclisin müvafiq şöbələrində və komitələrində də baxılır. Biz nəticələr barədə müvafiq icra hakimiyyəti orqanı ilə də məsləhətləşəcəyik və yaxın gələcəkdə o təkliflərdən faydalı olanları qanunvericiliyin təkmilləşdirilməsi üçün istifadə edəcəyik.

Qanun layihələrinin mətnində heç bir dəyişiklik yoxdur. Deputat həmkarlarımdan xahiş edirəm, qanun layihəsini ikinci oxunuşda dəstəkləsinlər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, biz hələ qanun layihəsinə əsas kimi münasibət bildirməliyik. Xahiş edirəm, bu qanun layihəsinə əsas kimi münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.26 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar var, mən indi söz verəcəyəm. Tahir Kərimli. Tahir müəllim, buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli qonaqlar. Mən bu qanun layihəsi parlamentə gəlməmişdən bir müddət öncə məlumat aldım ki, belə bir qanun layihəsi hazırlanır və bu plenar

iclasda çıxış etdim. Bildirdim ki, hərbi qulluqçular ciddi intizam altında işləyən şəxslərdir. Müharibədə də çoxları iştirak ediblər, həlak olublar, yaralanıblar. İndi də düşmənlə üz-üzə dayanan çoxlu hərbçimiz var. Onların imkanları və ixtiyarları olmalıdır ki, 20 il əmək stajından sonra mülki həyatlarını yaşasınlar, hərbi həyatdan, ciddi intizamdan bir qədər azad olsunlar. Lakin "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 13-cü maddəsində və "Əmək pensiyaları haqqında" Qanunun 9-cu maddəsində düzəlişlər yenə də qüvvədə qaldı, təqdim olundu. Amma əvvəllər deyirdilər, belə şey yoxdur. Yəni pensiya yaşının artırılmasını və əmək stajının hərbçilər üçün 20 ildən 25 ilə qaldırılmasını mən doğru hesab etmirəm. Hesab edirəm ki, belə bir həssas vaxtda bu qanun layihəsinin irəli sürülməsinə ehtiyac yox idi. Bildirirlər ki, bu, faydalıdır, xeyirlidir, insanlar razıdır. Amma mən güman edirəm ki, heç bir hərbçi buna razılıq verməz və razı deyil. Nə üçün bu qanun layihəsi indi irəli sürülür? Ona görə də mən əleyhinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Sizin çıxışınız konseptual çıxışdır. Bu, ikinci oxunuşdur. Sizin çıxışınız birinci oxunuşun çıxışıdır. Əgər təklifləriniz varsa, xahiş edirəm, verərsiniz. Emin Hacıyev. Buyurun.

**E.Hacıyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. Mən də bu qanun layihəsi ilə bağlı öz fikirlərimi bölüşmək istərəm. Qeyd edim ki, bu dəyişikliklər böyük bir islahat paketinin tərkib hissəsidir. Xüsusilə postmüharibə dövründə möhtərəm cənab Prezident tərəfindən ordumuzun inkişaf etmiş ölkələrin ordu modelinə keçirilməsi məsələsi qarşıya qoyulmuşdur. Həyata keçiriləcək tədbirlər Silahlı Qüvvələrin peşəkar kadrlar təminatının gücləndirilməsi, hərbi xidmətin elit bir

fəaliyyətə çevrilməsi, daha savadlı gənclərin bu sahəyə cəlbi, habelə hərbi xidmətə başlayan şəxsin karyera imkanlarının artırılması kimi vəzifələri hədəfləyir.

Dövlət başçısı tərəfindən 2023-cü il dekabrın 14-də Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalanıb. Bu fərmana uyğun olaraq, Bakıda, Gəncədə və Naxçıvanda hərbi kolleclərin yaradılması, eyni zamanda, hərbi təhsil alanlara dəstək mexanizminin qurulması gənclərin, bir tərəfdən, hərbi xidmətə cəlbini sürətləndirəcəksə, digər tərəfdən, ordunun daha savadlı ixtisaslı kadrlarla təminatına yol açacaqdır. Çünki biz hərbi xidməti yalnız yüksək pensiya təminatı ilə deyil, öncədən hərbi təhsili stimullaşdırmaqla təşviq etməliyik. Həmçinin hərbi kolleclərin yaradılması hərbi xidmətdə çox vacib əhəmiyyət daşıyan gizir və miçmanlar kimi kiçik rəis heyətinin də peşəkar səviyyədə hazırlanmasına əsas verəcəkdir. Eyni zamanda, gündəliyin sonuncu məsələsi olan "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədəki dəyişikliklərə əsasən tam orta təhsilli hərbçilərin gələcəkdə hərbi hazırlıq keçməklə kiçik leytenanta qədər yüksəlmək imkanının yaradılması da bu təşviqin tərkib hissəsidir.

Mən həmin fərmanda qeyd olunan təhsil müəssisələrində təhsil alan kursantlar üçün ödəniş və müavinətlərə xüsusilə toxunmaq istəyirəm. Kursantlara yalnız təhsil təqaüdü deyil, əlavə digər ödəmələr də nəzərdə tutulur. Bu sıraya onlar təhsil müəssisəsinə qəbul olunduqda ödənilən birdəfəlik müavinət, ailə üzvləri üçün maddi yardım, eyni zamanda, onlar gələcəkdə hərbi xidmətə başladıqda birdəfəlik ödənilməsi üçün nəzərdə tutulan və xüsusi hesabda yığılan ödəniş aiddir.

Qeyd olunanları deməkdə məqsədim odur ki, biz fərmanı təbliğ etməli, gənclərin bu imkan və perspektiv ba-

rədə məlumatlanmasını təmin etməliyik. Müzəffər Azərbaycan Ordusunun gələcək hərbçilər üçün geniş üfüqlər yaradan bu sənədlər həm də genclərin karyera imkanlarıdır. Qanun layihəsini dəstəkləyirəm, səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Heç bir təklifiniz yoxdur? İkinci oxunuşdur. Mətnlə bağlı heç nə yoxdur? Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, birinci oxunuşda da bu qanun layihəsi geniş müzakirə olundu. Burada qeyd olunduğu kimi, hörmətli xanım sədr, Sizin də təklifiniz əsasında mətbuatla geniş şəkildə ünsiyyət quruldu və bu məsələlərin detalları haqqında ictimaiyyət məlumatlandırıldı.

Qeyd etmək istəyirdim ki, Azərbaycan Ordusu müasir dünya standartlarına uyğun qurulur. Başqa sahələrdə olduğu kimi, istər tibbdə, istərsə də başqa-başqa sahələrdə, orduda da mütəmadi olaraq yenilənmə gedir. Yeni qoşun növləri, yeni sistemlər yaranır, yeni silahlar meydana gəlir və bunların idarəçiliyində, təbii ki, savadlı, təcrübəli kadrların olmasına ehtiyac var. O baxımdan da qanunvericiliyin təşəbbüsünü irəli sürülən tərəf bunu götür-qoy etdikdən sonra bu məsələni Milli Məclisə göndərib ki, biz bu texnikanın idarə olunmasını, xidmətin davam etdirilməsini, köhnə standartlarla deyil, yeni NATO standartlarına uyğun şəkildə ordumuzun formalaşdırılmasını qurmalıyıq. Cənab Prezidentin son fərmanında da 3 yeni məktəbin, yeni qoşun növlərinin yaradılması ondan irəli gəlir ki, biz tədricən ümumi çağırışdan müqavilə əsasında ordu quruculuğu prosesinə addımlayırıq. Təbii ki, bu, hissə-hissə baş verir. Ona görə bağlanılan müqavilələrin şərtləri də burada dəyişir və o şərtlərə uyğun tətbiq olunur.

O baxımdan da bu müddətin artırılması dünya standartıdır və dünyanın bir çox ölkələrində bu standartlar bu cür qəbul olunub. Yəni bir dövlətin təhsil verdiyi insanlar var ki, onları oxudur, bu peşəni öyrədir və ona xidmət təklif edir və bu xidmət başa çatdırılmalıdır. Bir də var ki, müqavilə əsasında o müqavilənin şərtlərinə baxır və imzalayır. Əgər müqavilə onu qane etmirsə, onu imzalamaya bilər. O baxımdan da qanun tam şəkildə müasir tipli ordunun qurulması üçün vacib məsələdir.

Digər bir məsələ də qanunvericilikdə nəzərdə tutulub. Onların sosial təminatı ilə bağlıdır. O da hissə-hissə orada öz əksini tapıbdır. Hesab edirəm ki, sosial təminat məsələsi də istər Ali Baş Komandan tərəfindən, istər ordu rəhbərliyi tərəfindən, istərsə də cəmiyyətimiz tərəfindən həmişə diqqət mərkəzindədir. O baxımdan da mən hesab edirəm, qanun tam şəkildə mövcud vəziyyətə cavab verir. Bu qanuna səs verib, dəstəkləyib qəbul etməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Keçən dəfə bizim qonaqlar danışmadılar. İndi sözləri varsa... Elçin müəllim, sözünüz yoxdursa... Biz ətraflı müzakirə etmişik. Anar müəllim, Sizin də yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Biz qanun layihəsinin səsverməsinə keçirik. Birinci, maddələr üzrə səs verəcəyik. Layihədə 6 maddə var. Mən onları üç-üç səsə qoyacağam. Xahiş edirəm, 1-ci, 2-ci və 3-cü maddələrə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, üç maddə qəbul edildi.

İndi isə 4-cü, 5-ci, 6-cı maddələri səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.36 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.37 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. 20-ci məsələ Arbitraj haqqında qanun layihəsidir. Layihəyə Hü-

quq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumatı isə komitənin üzvü hörmətli Nizami Səfərov verəcək. Buyurun, Nizami müəllim.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Arbitraj haqqında qanun layihəsi mətnində dəyişiklik edilmədən müzakirənizə təqdim edilmişdir. Birinci oxunuş zamanı hörmətli deputatlar Qüdrət Həsənquliyev və Vüqar Bayramov tərəfindən qaldırılan məsələlərə işçi qaydasında aydınlıq gətirilmişdir. Bir daha xatırlatmaq istərdim ki, iqtisadi fəaliyyət subyektləri arasında yaranan mübahisələrin həllində alternativ mexanizm olan Arbitraj haqqında Azərbaycan Respublikasının qanun layihəsi ölkəmizin 1999-cu il noyabrın 9-da qoşulduğu "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının müddəalarını nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq ticarət hüququ üzrə komissiyası tərəfindən hazırlanmış və iştirakçı dövlətlər üçün yardımçı sənəd olan, tövsiyə edilən "Beynəlxalq ticarət arbitrajı haqqında" model qanun əsasında hazırlanmışdır və arbitraj prosesi sahəsində beynəlxalq konsensusu əks etdirir.

Xahiş edirəm, ikinci oxunuşda qəbul edilməsinə səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.38 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Yazılan var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Mən zaman almamaq üçün təkliflərimi işçi qaydasında təqdim edəcəyəm. Çox qısa olaraq qeyd etmək istərdim ki, "Əsas anlayışlar"da arbitraj məhkəməsi qeyd olunub. Əslində, yeni "Ad-hoc" anlayışı da qanuna gətirilir. Düşünürəm, onun "Əsas anlayışlar"a daxil edilməsinə ehtiyac var.

Bəzi qeyri-müəyyən ifadələr var. Məsələn, "fiziki şəxsin olduğu yer" fiziki şəxsin adətən olduğu yer kimi xarakterizə olunur. Yaxud digər qeyd olunan ağlabatan səylərlə müəyyən etmək mümkün olmadıqda 5.11-ci maddədə, əvvəlki isə 1.1.9-cu maddədə bu anlayışların baxılıb dəqiqləşdirilməsinə ehtiyac var. Bütövlükdə, layihə ilə bağlı təkliflərimi hörmətli Nizami müəllimlə işçi qaydada müzakirə edəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Bu qanun layihəsi 8 fəsildən və 59 maddədən ibarətdir. Mən onları fəsil üzrə qruplaşdırıb səsə qoyacağam. I və II fəsillərə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
III və IV fəsilləri səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsillər də qəbul edildi.
Xahiş edirəm, V və VI fəsillərə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
Son 2 fəsilə – VII və VIII fəsillərə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Bu fəsillərə də səs verdiniz. Qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 7 məsələmiz qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Çıxış eləyən olsa, xahiş edirəm, birinci oxunuşun tələblərini nəzərə alsın. Bu iki qanun layihəsi də cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Mahiyyətcə də bir-birinə bağlıdır. Gündəliyin 21-ci məsələsi Mülki Prossessual Məcəllədə dəyişiklik edilməsi haqqında, 22-ci məsələsi isə "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Nizami müəllim, Siz məlumat verəcəksiniz. Nizami Səfərov. Buyurun.

**N.Səfərov**. Hörmətli xanım sədr, etiraz eləməsəniz, mən iki qanun barədə məlumat verərəm. Səsvermə ayrı-ayrılıqda keçirilər.

**Sədrlik edən.** Bəli, həmişə elə edirik, ona görə təkrarlamadım. Buyurun.

**N.Səfərov**. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklərin edilməsi haqqında qanun layihəsi müzakirənizə təqdim edilən Arbitraj haqqında qanun layihəsi ilə bağlıdır. Mahiyyətcə uyğunlaşdırma xarakteri daşıyır və bir sıra substantiv və terminoloji məsələləri əhatə edir. Konseptual cəhətdən layihəni dəyərləndirərək qeyd etmək lazımdır ki, onun əsas məqsədi yaradılması nəzərdə tutulan arbitraj təsisatının fəaliyyətinin prosessual hüquqi çərçivəsini tamamlamaqdan ibarətdir. Nəzərə almaq lazımdır ki, qeyd etdiyim prosessual çərçivənin müxtəlif elementləri beynəlxalq praktikada qəbul olunduğu kimi, "Arbitraj haqqında" Qanunda sonradan qəbul ediləcək arbitraj reqlamentlərində, həmçinin Mülki Prossessual Məcəllədə nəzərdə tutulur və bu sənədlərdə əksini tapan müddəalar arbitraj fəaliyyətinin vahid prosessual sistemini təşkil edir.

Öncə bir substantiv məsələni qeyd etmək istərdim. Layihəyə görə, bundan sonra kommersiya mübahisələrinə münasibətdə, "Mediasiya haqqında" Qanunla müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunmayacaq və müvafiq dəyişiklik "Mediasiya haqqında" Qanunda öz əksini tapacaq. Konseptual xarakterli məsələlərdən birini də məcəllədə arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı icraata aid yeni beşinci bölmədə nəzərdə tutulan müddəaların daxil edilməsi təşkil edir. Layihəyə əsasən tərəflər arasında digər razılıq yoxdursa, məhkəmələr arbitraja münasibətdə arbitrin təyin edilməsi, ona etiraz edilməsi, arbitrin səlahiyyətinə xitam verilməsi, müvəqqəti təminat tədbirlərinin tətbiqi sübutların təmin edilməsinə yardım

funksiyalarını həyata keçirəcəklər. Vacib əhəmiyyət kəsb edən dəyişikliklər xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı məcəllənin 50-ci fəsilinə edilir və göstərilir ki, bu proses xarici arbitraj qərarlarının tanınması və icrası haqqında Nyu-York Konvensiyası, "Arbitraj haqqında" Qanun və Mülki Prosessual Məcəllənin qeyd etdiyim fəsilinin müddəaları ilə tənzimlənir. Həmin məsələdə səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Ali Məhkəməsi müəyyən edilir.

Gündəliyin 22-ci məsələsi "Mediasiya haqqında" Qanunda dəyişikliklərin edilməsi barədə qanun layihəsidir. Layihəyə əsasən kommersiya mübahisələri "Mediasiya haqqında" Qanunun tətbiqi dairəsindən çıxarılır və bundan sonra kommersiya mübahisələrindən irəli gələn münasibətlərdə ilkin mediasiya sessiyasında iştirak tələb olunmayacaq. Dəyişikliklər qanunun 3-cü, 28-ci və 29-cu maddələrində əksini tapmışdır. Qeyd olunan məsələ ilə bağlı mühüm hüquqi məqam ondan ibarətdir ki, iqtisadi fəaliyyət sahəsində yaranan mübahisələrin səmərəli, alternativ vasitəsi olan arbitraj mediasiyanı əvəz edir. Bu, tamamilə məntiqli hüquqi addımdır. Çünki mediasiyadan fərqli olaraq kommersiya fəaliyyəti subyektlərinin sərbəst iradəsinə əsaslanan və müvafiq arbitraj qeyd-şərtinə uyğun seçilən yurisdiksiyada çıxarılan qərar mütləq xarakter daşıyacaq və uzunmüddətli apellyasiya və kassasiya baxışlarını istisna edəcək. Birinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Çıxış etmək istəyən var. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar. "Mediasiya haqqında" Qanunda edilən dəyişikliyin lehinə səs verib-verməməkdə tərəddüd yaranır. Niyə? Dünyada

qayda belədir: mediasiya olmadan məhkəmələr işə başlaya bilməzlər. Bizim məhkəmələr bəlkə də dünyada qərarları ən sürətlə qəbul edən məhkəmələr sırasındadır. Bu, yaxşı məhkəmə sayıla bilməz. Bu, ədalətli deyil. Xatırladıram ki, dünyanın əksər ölkələrində işlər məhkəməyə getməmişdən əvvəl mediasiyaya müraciət edirlər.

"Mediasiya haqqında" Qanun 2019-cu ildə qəbul olunub. Müddəti də nəzərə alsaq, deyə bilərik ki, yaradılmış Mediasiya Şurası hələ də oturuşmamış bir institutdur. Yetərli sayda peşəkar mediatorlar yetişdirilməyib. Resurslar azdır və regionlarda mediatorlar çatışmırlar. Cəmiyyət bu instituta sanki əlavə resurs kimi baxır. Buna baxmayaraq, bir çox istiqamətlərdə uğurlu hallar da var. Mediasiya Şurasının rəsmi məlumatına görə, bu il ərzində Mediasiya Şurasına 32767 iş daxil olub. Bunlardan 28748-i ailə mübahisələri, 2317-i kommersiya, 1703-ü isə əmək mübahisələri olub. Ötən illərlə müqayisədə barışıq sazişlərində 39-40 faiz artım var. Bu, müsbət irəliləyişdir. Biz bunu təqdir edirik.

Ailə mübahisələrindən söhbət düşmüşkən, deyə bilərik ki, bu sahədə vəziyyət, həqiqətən, yaxşı deyil. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-iyun ayları ərzində Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbələri tərəfindən 24146 nikah və 10631 boşanma halları qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərindən nikahların sayı azalaraq 5,8-dən 4,8-ə düşüb. Boşanmaların sayı isə 1,5-dən 2,1-ə qədər artıb. Görünür ki, burada peşəkar mediatorların yetişdirilməsinə böyük ehtiyac var. Bu məsələlər Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütləq araşdırılmalıdır.

Mediasiya Şurasının gənc institut olmasına baxmayaraq, səlahiyyətlərinin bir hissəsi bu dəyişikliklərlə

arbitorlara verilir. Kommersiya işlərinə baxılma, "Arbitraj haqqına" Qanuna görə, arbitorlara veriləcək.

Digər bir məsələ. Qısa zaman kəsiyində qeyri-peşəkar fəaliyyət sahəsində dələduzluğa meyil artmışdır. Bir faktı deyim: təkcə bu il 70-dən çox mediator barəsində sərt tədbirlər həyata keçirilib. Bunun özü də bu institutu təhdidlərlə üz-üzə qoyur. Bu hallara qarşı sərt tədbirlərin görülməsini dəstəkləyirəm. Gələcək üçün perspektivli institut olmasını nəzərə alıb bu instituta diqqət artırılmalıdır, ona əlavə səlahiyyətlər verilməlidir. Bəzi hallarda hakimlər tərəfindən də mediatorlara ögey münasibət göstərilir. Bu barədə biz qəzetlərdə oxuyuruq, məlumatlar daxil olur. Bu faktor da bu institutun zədələnməsinə gətirib çıxarır. Əslində, hakimlər bu fəaliyyəti təşviq etməlidirlər və mediasiya məhkəmə islahatlarının tərkib hissəsi olaraq bürokratiya institutu kimi dəyərləndirilməməlidir.

Sonda ötən iclasların birində səsləndirdiyim təklifimi yenə də təkrar edirəm. Daha doğrusu, yada salıram. Mediasiya Şurasının idarə heyətinin sədrinin Məhkəmə Hüquq Şurasına üzv qəbul olunması şuranın nüfuzuna müsbət təsir edə bilər. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Nizami müəllim, bu çıxışa sözünüz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Gördüm, çıxış eləmək istəyirsiniz. Buyurun.

**N.Səfərov**. Hörmətli xanım sədr, hər bir millət vəkilinin, hər bir deputatın fikrinə böyük ehtiramla və diqqətlə yanaşaraq qeyd eləməliyəm ki, qanunvericilik təşəbbüsü subyektinin mövqeyi tamamilə düzgündür. Burada söhbət nədən gedir? Mediasiya arbitrajdan fərqli hüquqi bir prosedurdur. Xatırlatmaq istərdim ki, "Mediasiya haqqında" Qanunun 1.01.1-ci maddəsinə görə, mediasiya me-

diatorun və mediatorların vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı qanunla müəyyən edilən bir prosesdir. Bundan fərqli olaraq arbitrajın nəticəsində arbitorlar tərəfindən tərəflərin avtonom iradəsinə əsasən və müvafiq arbitraj qeyd-şərtinə uyğun olaraq, məcburi hüquqi qüvvəyə malik olan qərarların çıxarılmasıdır. Arbitraj prosedurları öz mahiyyətinə görə mediasiyanı tamamilə istisna edir.

Burada söhbət mediasiyanın tətbiqi dairəsindən getmir. Çünki, sadəcə, uyğunlaşdırma prosedurudur. Mediasiyaya bir çox işlər cəlb edilir. Məsələn, mülki işlər, ailə münasibətindən, əmək münasibətlərindən, inzibati hüquq münasibətlərindən irəli gələn münasibətlər, mübahisələr və sair. Bununla bağlı hesab edirəm ki, qanuna edilən dəyişiklik tamamilə məntiqlidir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Etibar müəllim, sualınız var? Sualınız varsa, işçi qaydada, xahiş edirəm.

Hörmətli həmkarlar, 21-ci məsələyə – Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə mən 22-ci məsələni səsə qoymaq istəyirəm. "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz 23-cü məsələyə keçirik. Bu "Prokurorluq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə Ağazadə. Buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsinin 39-cu maddəsində prokurorluq orqanlarında dəyişikliklər əks etdirilir. 39-cu maddə prokurorluq əməkdaşlarının sosial bazası ilə bağlı məsələləri tənzimləyir. Qanun layihəsinə əsasən prokurorluq əməkdaşları ilə yanaşı, prokurorluq orqanlarında çalışan digər əməkdaşların da sosial müdafiəsi gücləndiriləcəkdir. Həmkarlarımdan dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti 24-cü məsələdir, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, özünüz məlumat verəcəksiniz.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Hörmətli həmkarlar, biz bu barədə geniş arayış təqdim etmişik. Məsələnin mahiyyəti ondan ibarətdir ki, cənab Prezident tərəfindən təklif olunur, Şəhərsalma və Tikinti Məcəlləsinin müvafiq müfəssəl planla bağlı müddəası, yəni 11.1-ci maddənin qüvvəyə minmə müddəti daha 3 il uzadılsın. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən, görürəm, yoxdur. Ona görə qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

25-ci məsələyə keçirik. Bu məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, Siz özünüz məlumat verirsiniz. Buyurun, söz Sizindir.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, "Dövlət rüsumu haqqında" Qanunun 8-ci maddəsi vətəndaşların məhkəməyə iddia ərizəsi ilə müraciət etdiyi zaman dövlət rüsumu dərəcələrini müəyyən edir. Bu dərəcələr 30 manatdan başlayaraq, iddianın həcmindən asılı olaraq faizlə müəyyən olunur. Təqdim olunan qanun layihəsi vətəndaşlar, əgər mülki işlər üzrə ilk dəfə bu iddianı elektron məhkəmə sistemindən təqdim edərlərsə, onda onlar rüsumun yalnız 90 faizini ödəyəcəklər. Bu, birbaşa həm vətəndaşların bu istiqamətdə atdığı addımla bağlı dövlətin dəstəyi, həm də elektron məhkəmə sisteminin stimullaşması məqsədi daşıyır. Komitənin rəyi müsbətdir və həmkarlarımdan da qanun layihəsinə səs verməyi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və iki qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Təklif edilən qanun layihələrinin iki məqsədi var. Birincisi, Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn atributların və ya simvolların hazırlanması, nümayiş etdirilməsi, yayılması, saxlanması və ya daşınmasının kriminallaşması təklif edilir. Layihədə sanksiyalar qeyd edilib.

İkincisi. Müharibə vaxtı və ya döyüş şəraitində silahlı qüvvələrin şəxsi heyətinin hərbi silah və ya texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların yayılmasının cinayət əməli kimi müəyyən edilməsi təklif edilir. Bu cür məlumatların yayılması qadağan edilmiş informasiya hesab edilməsi müəyyən edilir. Bu cür məlumatlar hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılarsa, on gündən bir ayadək müddətə inzibati həbsin verilməsi təklif edilir.

Burada mühüm istisna ondan ibarətdir ki, əgər bu cür məlumat hərbçiyə etibar edilmişdirsə və ya onun xidməti vəzifəsinə görə dövlət sirridirsə, eyni zamanda, bu cür məlumatlar müharibə vaxtı və ya döyüş şəraitində istənilən şəxs tərəfindən yayılarsa, bu, müvafiq olaraq cinayət məsuliyyətinə səbəb olacaq. Qeyd edilənləri nəzərə alaraq həmkarlarımdan dəstək olmalarını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. İki komi-

tədə baxılıb. Ziyafət müəllim, bu məsələyə sizin komitənizdə baxılıb. Xahiş edirəm, Siz də məlumat verin. Buyurun.

**Z.Əsgərov**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, hörmətli həmkarım Kamal müəllim geniş, ətraflı məlumat verdi. Sadəcə olaraq, 284-2-ci maddə ilə bağlı bir qeyd eləmək istəyirəm. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların yayılması ilə bağlı. Qeyd etmək istəyirəm ki, əgər burada göstərilən əlamətlər 274-cü maddə, yəni dövlətə xəyanət, 276-cı maddə – casusluq və 284-cü maddə – dövlət sirrini yayma maddələrinin təsiri altına düşmürsə, onda, deməli, bu maddə tətbiq olunmayacaq. Qalan hallarda isə, əlbəttə, hesab edirəm ki, belə bir maddənin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə daxil olması olduqca vacibdir. Çünki 44 günlük müharibədən də əvvəl, hətta müharibənin gedişində, mənim yaxşı yadımdadır, dəfələrlə, xüsusilə media orqanlarına müraciət olunurdu ki, ordunun hərəkəti, onun dislokasiyası barəsində məlumat verilməsin. Yalnız dövlət orqanları tərəfindən, daha doğrusu, Silahlı Qüvvələrimizin rəhbərliyi, ordu rəhbərliyi tərəfindən verilən məlumatlara inanın. Amma bütün bunlara baxmayaraq, bəzi hallarda bu cür qanun pozuntuları olurdu. Əslində, bu qanun layihəsi çoxdan gözlənilən idi. Əlbəttə, belə bir normanın Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə daxil olması Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, xüsusilə ordunun fəaliyyətinin hüquqi baxımdan daha da möhkəmləndirilməsi üçün olduqca vacibdir, zəruridir. Hörmətli həmkarlarımdan bu qanun layihələrinə səs vermələrini xahiş edirəm. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. İnsan hü-

quqları komitəsində də baxılıb. Ona görə mən komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Hörmətli sədr, İnsan hüquqları komitəsinin üzvləri bu layihənin lehinə səs veriblər. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən bu dəyişikliyi dəstəkləyirəm və hesab edirəm ki, xüsusilə də Silahlı Qüvvələrlə bağlı məsələ tamamilə dəqiq müəyyən olunubdur. Müharibə dövründə bu əməllərin törədilməsi, həqiqətən də, ciddi şəkildə məsuliyyət ortaya qoymalıdır. Amma Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönəlmiş məsələ ilə bağlı, məncə, buraya ikinci bir məsələni də əlavə etmək olar. "Parçalanmasına və qəsdən təhrif edilməsinə" sözləri də olmalıdır. Çünki elə məsələ var ki, bəzən bu simvollar parçalanma məqsədi ilə edilməyə də bilər. Deyək ki, biləRəkdən təhrifetmə xarakteri daşıya bilər. Yəni genişləndirmə baxımından bunun olmasını məqsədəuyğun sayardım.

Həmçinin ikinci oxunuşda toxunulmayan məsələni deyim. 281.1.3-cü maddədə nəzərdə tutulan məsələnin, məncə, burada verilməsi məqsədəuyğun olmazdı. Nəyə görə? Burada qeyd edilir: "xarici təşkilatların və onların nümayəndələrinin tapşırığı ilə törədildikdə". Onsuz da, bu əməli törədən insanın hansı tapşırıqla, hansı vasitə ilə bunu etməsindən asılı olmayaraq, bu, bütövlükdə, bizim ərazi bütövlüyümüzə qarşı yönələn addımdır. Burada bizim bu motivi xüsusi olaraq ayrıca qabartmağımızın, cəzanın problemi yoxdur. Saxlamaq, o biri maddəyə də

əlavə etmək olar. Amma bunun bizə fərqi nədir ki, kimin tapşırığı ilə, özünün iradəsi ilə, başqa motivlə edirdi. Burada əsas obyekt bizim ərazi bütövlüyümüzdür, ona qarşı yönələn hərəkətlərdir. O baxımdan da mən bunu ayrıca bir maddə olaraq qabartmağı məqsədəuyğun hesab etmirəm. Düşünürəm ki, elə olduğu kimi, o iki maddədə bu əməlin cinayət məsuliyyəti yaratması məsələsini qabartsaq, daha doğru olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Fazil müəllim, sağ olun. Əslində, dediyiniz ikinci oxunuşa daha uyğundur. Ancaq, Əli müəllim, bəlkə sonra Siz bununla bağlı işçi qaydada danışarsınız. Çox sağ olun. Biz qanun layihəsini səsə qoymalıyıq. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Sonuncu, 27-ci məsələ “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Ziyafət müəllim, özünüz məlumat verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, dinləyirik Sizi.

**Z.Əsgərov.** Sağ olun, hörmətli xanım sədr. Hörmətli

deputatlar, bu qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuşdur. Qanun layihəsi zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilə bilən şəxslərin dairəsinin genişləndirilməsi məqsədi ilə hazırlanmışdır. Belə ki, "Hərbi xidmət və hərbi vəzifə haqqında" Azərbaycan Respublikası Qanununun 36.1.3-cü maddəsinə əsasən həqiqi hərbi xidmətə qəbul üçün müəyyən edilmiş tələblərə cavab verən ən azı tam orta təhsilli şəxslərin, gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə könüllü daxil ola bilməsi müəyyən edilsə də, qanunvericilikdə tam orta təhsilli gizir və miçmanlara kiçik leytenant hərbi rütbəsinin verilməsi nəzərdə tutulmamışdır. Təklif edilən dəyişikliklə gizir və miçman vəzifələrində 5 il və daha çox xidmət etmiş zabit vəzifəsinə təyin edilmiş tam orta təhsilli gizir və miçmanlara hərbi hazırlıq keçdikdən sonra və müəyyən edilmiş qaydada imtahan verdikdən sonra kiçik leytenant hərbi rütbəsinin verilməsi imkanı yaradılmış olacaqdır.

Hörmətli xanım sədr, bayaq hörmətli həmkarlarım da qeyd etdilər, bu yaxınlarda, daha doğrusu, oktyabrın 14-də möhtərəm cənab Prezident bizim ordumuz üçün, bütövlükdə, Silahlı Qüvvələrimiz üçün çox lazımi bir fərman imzaladı. Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bu fərmanda nəzərdə tutulur ki, Bakı, Gəncə və Naxçıvan şəhərlərində peşəkar gizir heyətinin hazırlanması məqsədi ilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində üç xüsusi təyinatlı hərbi kolleclər açılsın. Bu fərmanın çox mühüm xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, burada həm ali hərbi təhsil müəssisələrinə, həm də miçman və gizir məktəb-

lərinə daxil olan şəxslər üçün birdəfəlik ödəmələr, aylıq təqaüdlər, ailələri üçün təqaüdlər nəzərdə tutulur. Eyni zamanda, xüsusi ödəmələr nəzərdə tutulur ki, gələcəkdə həmin ödəmələrdən onlar özlərinin maddi-məişət problemlərini həll etsinlər. Ölkə Prezidentinin orduya olan münasibəti budur! Həm ailəsinə, həm özünə, həm də gələcəyi üçün dövlət, möhtərəm cənab Prezident xüsusi bir qayğı göstərir. Yetər ki, biz uşaq bağçalarında, məktəblərdə, ali məktəblərdə hərbi vətənpərvərliyin artırılmasını, gənclərimizi bu cür ali məktəblərə, hərbi məktəblərə, gizir məktəblərinə təşviq edək, göndərək, oxusunlar və bəhrəsini də görsünlər. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 22-də olacaq. Sağ olun.

**ALTINCI ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 155

*Milli Məclisin iclas salonu.
22 dekabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 98 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

2. Aviasiya haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası

haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

14. “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

15. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

16. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

17. “Mühasibat uçotu haqqında” və “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

18. “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”nin təsdiq edilməsi barədə, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

19. “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

20. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

21. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

22. “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

23. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

24. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

25. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

26. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında” və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

27. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Naqif Həmzəyev, Razi Nurullayev, Fazil Mustafa, Fəzail Ağamalı, Siyavuş Novruzov, Etibar Əliyev, Qüdrət Həsənquliyev, Elşən Musayev, Aydın Hüseynov

| | |
|---|---|
| **Təklif:** Gündəlik qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**1. “Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Səməd Seyidov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**2. Aviasiya haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**4. "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Bəxtiyar Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**6. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**8. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Kamal Cəfərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**10. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

**12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**14. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**15. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**16. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**17. "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov, Kamal Cəfərov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**18. "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**19. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əliabbas Salahzadə, Vüqar Bayramov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |

Nəticə: Qəbul edildi

**20. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**21. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 87 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6–10-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 11–15-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 16–20-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |

Nəticə: Qəbul edildi

**Təklif:** 21–25-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 26–31-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**22. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Siyavuş Novruzov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**23. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əminə Ağazadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**24. “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**25. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**26. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Ziyafət Əsgərov, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**27. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 93 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Cari məsələlər.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*22 dekabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 93 |
| Yetərsay | 83 |

Çox sağ olun, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, iki gün sonra, dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin doğum günüdür.

Hörmətli deputatlar, qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan bu gün öz tarixinin ən şanlı dövrlərindən birini yaşayır. Biz siyasi, iqtisadi və hərbi qüdrəti ilə geniş bir bölgədə söz sahibi olan dövlətimizlə qürur duyuruq.

Son 30 ildə ölkəmizin inkişafı yolunda ən böyük maneə olan bir problem artıq keçmişdə qalmışdır. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və bu il sentyabrın 20-də antiterror tədbirləri nəticəsində əzəli tarixi torpaqlarımız olan Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulmuş, dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir.

Bütün bu uğurların təməlində Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını layiqincə davam etdirən dövlət başçısı möhtərəm cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasət xətti dayanır. Məhz onun fenomenal liderlik məharəti, idarəçilik bacarığı, əzmi və cəsarəti sayəsində Azərbaycan dünyanın sayılıb-seçilən dövlətləri sırasına çıxmışdır.

Hörmətli həmkarlar, möhtərəm cənab İlham Əliyev xalq və vətən yolunda müstəsna xidmətləri ilə öz adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmışdır.

Ölkəmizin sürətli və dinamik iqtisadi inkişafı xalqımızın və dövlətimizin xoşbəxt gələcəyini təmin edən möhtəşəm layihələri reallaşdırmağa imkan verir. Məhz bunun nəticəsidir ki, Azərbaycan bu gün Qarabağda öz miqyasına görə heyrət doğuran bərpa-quruculuq işlərini əzmlə həyata keçirir.

Ali Baş Komandanın rəhbərliyi ilə xalqımız döyüş meydanlarında göstərdiyi hünərləri bu gün tikinti meydançalarında da nümayiş etdirir. Məcburi köçkün soydaşlarımız 30 il həsrətində olduqları ata-baba yurdlarına dönürlər.

Hörmətli həmkarlar, möhtərəm cənab Prezidentin təşəbbüsü və iştirakı ilə dünən Xankəndi şəhərində baş tutan tədbirlər Azərbaycanın öz torpağının əsl sahibi olduğunu, "Qarabağ Azərbaycandır!" həqiqətini bir daha bütün dünyaya çatdırdı.

Hörmətli deputatlar, təklif edirəm ki, doğum günü münasibəti ilə möhtərəm cənab Prezidentə Milli Məclis adından təbrik məktubu ünvanlayaq. Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətində ona yeni uğurlar arzulayaq! *(Alqışlar.)*

Çox sağ olun. Mən hesab edirəm ki, bu alqışlar bizim təbrik məktubunu dəstəkləyən alqışlardır. İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. Kim çıxış etmək istəyir, gündəliklə, gündəmdə olan məsələlərlə bağlı, buyurun. 10 nəfər çıxış eləyə biləcək. Fərid müəllim, xahiş edirəm, deyin. Mənim siyahımda 10 nəfər var, 10-cu Aydın Hüseynovdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Zahid Oruc. Zahid müəllim, buyurun.

**Z.Oruc**. Hörmətli sədr, qeyd etdiyiniz sözlərə və məktubda yazılanlara hər birimiz qoşuluruq. Qeyd etmək istədiyim məsələ budur ki, noyabrın 28-də Ermənistan prezidenti Vaaqn Xaçaturyan və parlamentin sədri Alen Simonyan Qarabağın hökumətini, parlamentini və yerli

idarəetmə orqanlarını saxlamayacaqlarını bəyan ediblər. Ölkəmizin ərazi bütövlüyünə və sülh danışıqlarına sadiq qaldıqlarını söyləyən, sentyabrın 20-də Xankəndidə təslim olan qüvvələri hakimiyyət kimi qəbul etməyən Paşinyan hökumətinin belə davranışları təqdirəlayiqdir. Bütün dünya görür ki, son 3 ildə İrəvan parlamentində Azərbaycanın Vətən müharibəsinə işğalçılıq adı verilməyib. Beləliklə, indi ən böyük absurda baxın ki, millətimiz Amerika, Fransa, Almaniya rəhbərlərindən soruşur: Siz Ermənistan prezidenti, Baş naziri kimi Qarabağı Azərbaycanın tərkibində açıq mətnlə tanımağa hazırsınızmı?

Xaricdə Zəfərimizi tanımayan dövlət və siyasətçiləri görəndə adamın Paşinyana hörməti artır. Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin qeyri-rəsmi layihədə dövlətimizi Qarabağa hərbi təcavüzdə günahlandırması, Amerika Senatının Xankəndi üzrə təhqiqata başlaması, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin ardıcıl qərarları, Roma Statutu ilə hərbi-siyasi elitamızı təzyiq altında saxlamaq cəhdləri, əsasən, Ağ Ev və Yeliseydən idarə olunur. "Washington Post", BBC və çoxsaylı Qərb mediasının tirajladığı son tezislər belədir: "Azərbaycan İrəvana hücuma hazırlaşır". Halbuki ordumuzun Zəngəzur sərhədlərinə yaxınlaşmasına dair bir peyk görüntüsü, kəşfiyyat məlumatı yoxdur. Əvəzində ölkəmizi işğalçı adlandırmaq üçün hər gün yüzlərcə "fake news" yayılır.

İkincisi, Azərbaycanı insan haqlarının kütləvi pozulduğu ölkə kimi tanıtdırmaqla ermənilərin qayıdışından sonra təhlükəsizliklərinə təhdid olduğunu iddia edib, BMT-nin qətnaməsi ilə beynəlmiləl hərbi qüvvələrin süngüsü, NATO-nun zirehi altında ərazilərimizə qoşun yeritməyə zəmin hazırlayırlar. Halbuki Azərbaycan döv-

ləti rəsmən Konstitusiyamızı tanıyan və cinayət törətməyən ermənilərin geri dönüşünə dair çağırışlar edib.

Üçüncüsü, Böyük Qayıdışı əngəlləməyə, xalqımızın doğma torpaqlara dönüşünü qeyri-müqəddəs hadisəyə çevirməyə və nəhayət, Qərbin ölkəmizdə çirkli pullarını yuyan USAID kimi qurumların əli ilə Vətən müharibəsində qazanılan qələbəni ləkələməyə cəhd eləyirlər. Bəli, Xankəndi zəfəri Qarabağın müstəqilliyini tanıyan dövlətlərə zərbə vurub. İndi keçmiş sovet məkanını və Yaxın Şərqi azadlıq bayrağı ilə nəzarətə götürməyə çalışan, Avrasiyaya üsul-idarə və çevrilişlər ixrac eləyən Qərbin qanlı demokratiyaları Azərbaycanın bütövlüyünə qarşı döyüşür.

Nəhayət, noyabrın 25-də Avstriyanın "Die Press" nəşrində bir məqalədən sitatı burada vurğulamaq istəyirəm. Müəllif deyir: "İkinci Qarabağ müharibəsindən sonra 5 dəfə getdiyim İrəvanda kütləvi kədər və məğlubiyyət acısı, daxili təlatüm gördüm. Lakin noyabr günlərində milli depressiya ilə üzləşəcəyimi düşünürdüm. İnanılmaz mənzərə idi. Hər iki düşərgə Qarabağ yükündən azad olduqları üçün rahat nəfəs alır, əvvəllər müqəddəs torpaqlar uğrunda vuruşduqlarını deyən sadə adamlar indi verilən 5 min nəfərlik itkini əbəs sayırdılar". Onda sual olunur, Qarabağ ermənilər üçün fəlakət mənbəyidirsə, konqreslər, bundestaqlar və senatlar hansı millətin gələcəyi üçün vuruşur? Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev. Buyurun, 3 dəqiqə.

**N.Həmzəyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Təqvimdə 2023-cü ili geridə qoymağımıza artıq sayılı günlər qalır. Bitmək üzrə olan cari ilin qısa xülasəsini xatırladıqda müşahidə edirik ki, Azərbaycan Respublikası, sadəcə, bir il ərzində necə

böyük nailiyyətlər əldə etmişdir. Vətən müharibəmizin ardından dövlət siyasətimizin tutduğu mövqenin, bu mövqeyə xalqımızın vəhdət şəklində verməkdə olduğu dəstəyin və Azərbaycan xalqının cənab Prezident İlham Əliyevə olan sarsılmaz inamının nəticəsidir ki, ölkəmiz bütün sahələrdə – siyasi, iqtisadi, mədəni, sosial, hətta mənəvi sahədə belə özünün ən böyük yüksəliş dövrünü yaşayır. Siyasi əlaqələrimizin səviyyəsi keçən dövrlərlə müqayisədə xeyli artıb, diplomatik əlaqələrimiz həm kəmiyyət, həm də keyfiyyətcə genişlənib.

"Dəmir yumruq" əməliyyatının ardından, xüsusi ilə də erməni lobbisinin maliyyələşdirdiyi tədqiqat institutları raportlar hazırlayaraq Qarabağ zəfərinin Azərbaycan üçün çətin nəticələrini proqnozlaşdırırdılar. Çünki həm anti-Azərbaycan əhval-ruhiyyəsi formalaşdırılmağa çalışılır, həm də Ermənistanı silahlandıraraq ölkəmizin xeyrinə olan regional balansı sanki güc vasitəsi ilə dəyişməyi hədəfləyirdilər. Nəticəsi isə bizə bunu göstərdi ki, Azərbaycan, sadəcə, qalib dövlət deyil, eyni zamanda, Cənubi Qafqaz regionunun güc mərkəzi və mövcud bütün reallıqların müəllifidir. Bu mənada Azərbaycanı boykot edən istənilən layihə və ya niyyət heç bir halda səmərəli ola bilməz və dayanıqlığı daim şübhə altında olacaqdır. Çünki ölkəmizin geostrateji mövqeyi və təbii ehtiyat zənginliyinə paralel olaraq, qeyri-maddi zənginlikləri, yəni dövlətçiliyimizin istiqrarı, siyasi və iqtisadi müstəqilliyimiz, ölkə rəhbərliyinin qarşılıqlı münasibətləri və verdiyi sözlərə sadiqliyi Azərbaycanı istənilən halda regional və beynəlxalq əməkdaşlığın ən arzuolunan dövlətlərindən birinə çevirir.

Prezident cənab İlham Əliyev Azərbaycan xalqının ən ümdə problemlərini ilmək diplomatiyası ilə sonralar heç

bir sual və ya ölkəmizə qarşı istifadə edilə biləcək detal saxlamadan həll etdi. Ən başlıcası isə Azərbaycanın artıq Qarabağ adlı problemi yoxdur. Ərazi bütövlüyümüzün bərpası ilə ölkəmizə qarşı istifadə edilməyə çalışılan siyasi alətlər də bir-bir sıradan çıxarıldı. Məhz bu amilin nəticəsidir ki, hələ də Ermənistanla birlikdə məğlubiyyətinin yasını saxlayan, Ermənistandan daha çox erməni olmağa çalışan dövlətlər özünü göstərməkdədir. Lakin Azərbaycanın "dəmir yumruğu" və dəmir iradəsi hər zaman yerindədir. Dəfələrcə bildirdiyim kimi, xalq öz lideri cənab Prezident İlham Əliyevin arxasındadır və lider–xalq–ordu birliyimiz gündən-günə güclənməkdədir.

Qarabağ adını şərəflə, ləyaqətlə uzun illərdir, dünyada futbol komandası kimi yaşadan "Qarabağ" futbol komandasının yenidən Xankəndi futbol meydançasında öz oyununu oynamasına şərait yaradan və bütün Azərbaycan xalqına, dünyaya bu oyuna şahidlik etmək hədiyyəsini verən cənab Prezident İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk və cənab Prezidentin qarşıdan gələn doğum gününü ürəkdən təbrik edirik.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Son zamanlar qarşımıza vətəndaşların böyrəklərini, qara ciyərini və digər orqanlarını satması barədə reklam və elanlar çıxır. Bəzi elanlarda isə "böyrək və qara ciyər alıram" deyə yazılır. Hətta avtobus dayanacaqlarında da bu cür elanlar var. Bu məsələdə bir neçə yanaşma ola bilər. Vətəndaş ehtiyac ucbatından daxili orqanlarını satır.

İkincisi isə, möhtəkirlər vətəndaşları qazanc məqsədi ilə buna sövq edir. Ən dəhşətlisi isə bu işdə cinayətkar qrupların əlinin olması ehtimalıdır. Son zamanlar cinayət

hadisələri içərisində cinayətkarların bu məqsədlə adam oğurluğuna rast gəlməmişəm və bu sevindiricidir. Amma bu elanlara da laqeyd yanaşmaq olmaz.

Mən əlaqədar orqanlara müraciət edirəm. O vətəndaşları dəvət edin, araşdırın ki, onlar niyə daxili orqanlarını satmaq istəyirlər? Ehtiyacdırsa, yaranan ehtiyacı ödəmək üçün dövlət tərəfindən mümkün addımların atılması vacibdən də vacibdir. Bir də, bu tip elanlara, alğı-satqıya nəzarət olunurmu?

Azərbaycan vətəndaşlarının çətinə düşən zaman dövlətdən yardım alması, təbii ki, onların hüququdur. Onun üçün də ehtiyac ucbatından daxili orqanlarını satan vətəndaşlara dövlət səviyyəsində yardım göstərilməsi üçün addımların atılmasını xahiş edirəm. Bu məsələ ilə bağlı aidiyyəti qurumların araşdırma aparmasını və yaxşı olardı ki, həm Milli Məclisə, həm də bu məsələni qaldıran şəxs olaraq mənə də yazılı məlumat verilməsini xahiş edirəm. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Sahibə xanım, mən də ölkə Prezidentinin doğum günü ilə bağlı Sizin ünvanladığınız təbrikə qoşuluram. Həqiqətən də, Azərbaycan xalqı qarşısında inanılmaz böyük xidmət göstərmiş bir tarixi şəxsiyyətin doğum gününü hamımız təbrik etməliyik. Amma eyni zamanda, İlham Əliyevin Azərbaycan xalqına bəxş etdiyi başqa bir doğum günü də var, bu, 20 sentyabr günüdür. Bütün azərbaycanlıların yenidən doğulduğu gündür. Bir Azərbaycan olaraq, bizim milli ləyaqətimizin, itirilmiş torpaqlarımızın hamısının bu adın ətrafında bərpası günüdür və bu baxımdan da Xankəndidə baş verən hadisə yalnız bir futbol oyunu

deyildi. Bu, futbol sahəsində həm də siyasət sahəsinə bir ismarış idi. Ölkə Prezidenti topa zərbə vuranda həm də Avropadan, Amerikadan topun içinə doldurulmuş o siyasi ab-havanı da bir zərbə ilə, əslində, göstərdi ki, dağıtmaq iqtidarına sahibdir. Artıq bir çox şey aydın oldu ki, Azərbaycanın taleyi ilə bağlı məsələlər çox az səviyyədə Vaşinqtonda, Brüsseldə, Moskvada həll olunur. Azərbaycanın öz içindəki futbol həm də siyasət sahəsində həll olunur.

İndi bizim qarşımızda duran ən başlıca məsələlərdən biri Naxçıvana yolun açılmasıdır. Bizim tarixi zəfərimiz orada olacaqdır, bu, yekun zəfərimiz olacaqdır və eyni zamanda, sülh müqaviləsinin bağlanması ilə də bu prosesləri yekunlaşdıracağıq. Ermənistandan gələn mesajlar bunu göstərir ki, artıq buna doğru Ermənistan cəmiyyətində ictimai rəy oturuşmuş şəkildədir. Başqa revanşist duyğular ortadan qalxmaqdadır. Realist düşünən ermənilər anlayırlar, Azərbaycanla hər hansı bir şəkildə bu prosesin davam etməsi onların xeyrinə olmayacaq, həm də bizim işimizi asanlaşdıran məsələ o oldu ki, qətiyyətimiz sayəsində göstərdik, istər Fransanın, istər Amerika Birləşmiş Ştatlarının, istərsə də başqa dövlətlərin Ermənistana himayədarlığı sözdən başqa bir şey deyilmiş. Yəni onlar konkret olaraq yardım göndərdilər, yardımı çatdıra bilmədilər. Qərar çıxardılar, qərarı icra edə bilmədilər. Hətta Amerika Birləşmiş Ştatları kimi böyük bir dövlət öz tarixi keçmişinə yaraşmayan, utancverici bir qərar qəbul elədi. “Azadlığı Müdafiə Aktı”nı Ermənistana dəstək aktı ilə əvəzlədi. Amerika üçün azadlıq Ermənistana bərabər tutuldu və Azərbaycan bunun hamısına məhz Prezidentin qətiyyəti sayəsində nail oldu və bu işi  də biz uğurla yekunlaşdıracağıq.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media təmsilçiləri. Hörmətli xanım sədr, mən də Sizin cənab Prezidentlə bağlı təbriklərinizə qoşuluram. Eyni zamanda, qeyd etmək istəyirəm ki, 2003-cü ildə Azərbaycan xalqının böyük etimad və inamını qazanan cənab Prezident ötüb keçən 20 il ərzində bütün varlığı ilə, bütün ruhu ilə sevdiyi Azərbaycana yüksək səviyyədə xidmət etmiş, onu ən yüksək səviyyəyə qaldırmağı bacarmışdır, dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir, həm də Cənubi Qafqazın lider dövləti statusunu qazandırmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin 44 günlük müharibədə əldə etmiş olduğu möhtəşəm qələbə və qələbədən keçən 3 il zaman kəsiyində həyata keçirdiyi tədbirlər onu təkcə Azərbaycanın XXI əsrdə şəriksiz lideri səviyyəsinə qaldırmamış, eyni zamanda, İlham Əliyevə dünya miqyaslı lider statusunu qazandırmışdır, onu maddiləşdirmişdir, ona belə bir status vermişdir. 44 günlük savaşda Azərbaycan ermənilərlə, ermənilərin arxasında duran güc mərkəzləri ilə, dünya erməniliyi ilə həm ön cəbhədə, həm diplomatik cəbhədə, həm də informasiya məkanında mübarizə aparmış və bütün bu mübarizələrdə qalib gəlmişdir.

Başlamış olduğu işi çox uğurla davam etdirən İlham Əliyev, əminəm ki, bundan sonrakı zaman kəsiyində də Azərbaycana yeni-yeni uğurlar gətirəcəkdir. İlham Əliyev mahiyyətcə bizim milli sərvətimizdir, 50 milyonluq Azərbaycan xalqının qürur və iftixar mənbəyidir. Tarixin nadir şəxsiyyətlərindən biridir. Bu doğum günü münasibəti ilə böyük məmnuniyyətlə cənab İlham Əliyevi təbrik edirəm, ona yeni-yeni uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Hörmətli xanım sədr, biz də bu təbriklərə qoşuluruq, cənab Prezidenti doğum günü münasibəti ilə təbrik edirik. Dünənki futbol oyunu cənab Prezidentin bir ifadəsi oldu ki, bu gün burada qalib tərəf yoxdur. Bu gün burada qalib tərəf Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir. Mən də demək istəyərdim ki, həmçinin də Azərbaycanın Ali Baş Komandanıdır, Azərbaycanın Prezidentidir qalib.

Bu gün Xankəndidə Ali Baş Komandan hansısa atəş əmri verməyib ki, top atəş açsın. Bu gün artıq futbol oyununun başlanmasına əmr verir. Azərbaycan xalqı 30 ildən artıqdır, bunu Xankəndidə gözləyirdi. Bu gün Qarabağın ərazisindən top səsləri, tank səsləri, qrad səsləri deyil, traktor səsləri, qaldırıcı kran səsləri, kombayn səsləri gəlir, quruculuq işləri, tikinti işləri gedir, yenilik gedir, yollar çəkilir, körpülər salınır, əlaqələr qurulur. Bax, budur cənab Prezidentin Azərbaycan xalqı üçün, dövlətçiliyimiz üçün gördüyü işlər.

Əfsuslar olsun ki, bu cür addım atılanda, dünən bütün xalqın sevincinin həddi-hüdudunun olmadığı bir zamanda antimilli qüvvələr yenə də öz ağalarının tapşırığı ilə müəyyən addımlar atmaqla məşğul idilər. İnsanların sevincli bir dövründə ayrı-ayrı dövlətlərə müraciət edib Azərbaycana sanksiyaların qəbul olunmasını tələb edirlər. Yəni heç Ermənistanda bu cür qərar yoxdur. Ermənistan parlamentinin üzvləri başqa dövlətlərə bu cür müraciət etmir. Orada olan siyasi partiyalar Avropa ölkələrinə, BMT-yə, yaxud başqa-başqa təşkilatlara bu cür müraciət etmir. İndi onlardan bir neçə nəfər bu və ya digər şəkildə cinayət törədibsə, bu o demək deyil ki, bundan ötrü Azərbaycana sanksiya tətbiq olunmalıdır. Bu sanksiya tətbiq olunanda

Azərbaycan xalqına tətbiq olunur, Azərbaycan dövlətinə tətbiq olunur. Yəni bu qüvvələr, bax, o tərəfdə əgər bu futbol oyununa sevinməyən ermənilərdirsə, dünyada Fransadırsa, bizə təzyiq göstərən başqa-başqa dövlətlərdirsə, daxilimizdə də içimizdə olan o qüvvələr, o "ermənilər", o bizdən olmayanlardır. Bu cür məsələyə sevinmirlər, əksinə, dərdlərindən ölürdülər ki, belə bir hadisə və tarixdə olmayan bir hadisə baş verib. Ona görə, hesab edirəm, cənab Prezidentin atdığı hər addım dünyaya da mesajdır, onlara da mesajdır ki, Azərbaycan müstəqil dövlətdir və Azərbaycanın daxili işinə heç kəs qarışa bilməz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Etibar Əliyev. Buyurun, Etibar müəllim.

**E.Əliyev**. Hörmətli Sahibə xanım, hörmətli deputatlar. Vaxtı ilə Tehranda baş verən bir hadisəni xatırlayırsınızmı? İranın keçmiş prezidenti Məhəmməd Xatəmi Xəzər dənizini Mazandaran gölü adlandırmışdı. İranlı jurnalist bu termini təkrar edəndə görüşdə iştirak edən Ümummilli Liderimiz unudulmaz Heydər Əliyev əsəbi halda ona düzəliş etdi. O, Xəzər dənizinin Mazandaran gölü adlandırıldığını heç vaxt eşitmədiyini dedi və Xəzər dənizi üçün yeni adlar düşünməklə ikitərəfli əlaqələrin yaxşılaşdırılması səylərinə mane olanları pislədi.

Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən iranlı politoloq Ehsan Movəheddiyanın Azərbaycan və Ermənistan arasında sülh prosesi ilə bağlı cəfəng və sərsəm fikirləri İran Xarici İşlər Nazirliyinin "Diplomasi İrani" analitik portalında yerləşdirilib. Belə görünür ki, bu mövqe həm də İran Xarici İşlər Nazirliyinin ürəyincədir. Məqalədə istifadə edilən şizofrenik terminlərə diqqət edin. "Arsax xalqının deportasiyası", "Arsaxın Bakı tərəfindən işğalı",

"Ermənistanın suveren ərazilərinin itirilməsi", "Ermənilərin etnik təmizlənməsi", Azərbaycan hakimiyyətindən "Bakı hakimiyyəti", qondarma və özünü buraxan keçmiş qurumdan respublika kimi danışılması, Ermənistanın Türkiyəyə ərazi iddiasının əks olunduğu rəmzlərin erməni kimliyi olaraq göstərilməsi və sair. Məqalə sırf erməni mövqeyindən yazılıb və İran Xarici İşlər Nazirliyinin saytında belə bir məqalənin dərc olunması İranın məkrli siyasətini bir daha ortaya qoyur.

Dəyərli həmkarımız Sabir Rüstəmxanlı İranla bağlı müsahibələrinin birində gözəl bir ifadə işlətmişdi: "Kim Mazandaran eşşəyi kimi anqırırsa, bu da onun öz demokratik seçimidir". Eşşəkdən söz düşmüşkən, mən Sabir bəyin bu fikrini bir qədər zənginləşdirmək istəyirəm. Ehsan Movəheddiyana və onun kimilərə fəlsəfədə və gündəlik həyatda tez-tez işlədilən "Buridanın eşşəyi" adlı ibrətamiz hekayəni xatırladıram. Təsəvvür edin ki, aclıq və susuzluqdan eyni dərəcədə əziyyət çəkən eşşək bir vedrə su ilə bir çəngə ot arasında dayanıb. Eşşək su ilə ot arasında seçim edə bilmədiyindən aclıq və susuzluqdan ölür. Məşhur filosof Buridanın bu hekayəsini çox vaxt azad iradənin qeyri-mümkünlüyünün isbatı kimi misal çəkirlər. Ehsan Movəheddiyanın, Jozef Borelin, Madam Metsolanın, Nensi Pelosinin, Maykl Rottun eyni cür danışmaları azad iradənin yoxluğundan xəbər verir. Problemləri budur, belə adamlara bundan maraqlı və mədəni müqayisə tapa bilmədim. Çağımızın tanınmış filosofu Andre Kont Spombinin də "Buridanın eşşəyi" barədə fikri maraqlıdır. Bu eşşək haqqında mübahisələr artıq 600 ildir ki, davam edir, lakin eşşək hələ də ölməyib. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Bu gün bu zalda bu heyvanın adını bu qədər çəkməyə nə ehtiyac var idi? Qüdrət Həsənquliyev.

Buyurun, Qüdrət müəllim.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli Məclis iştirakçıları. Dünən Xankəndidə Prezidentin iştirakı ilə bizə qələbə sevincini yenidən yaşadan əlamətdar hadisə baş verdi. Azərbaycan kubokunun 1/8 finalında "Qarabağ"ın MOİK-lə Xankəndidə qarşılaşması oldu. Əgər Xankəndiyə 5 ailə qaytarılsa idi, bu sevincin miqyasını dəfələrcə artırmaq olardı.

Ermənistanın Baş naziri ayda bir dəfə parlamentə gedib sülh danışıqları barədə deputatları məlumatlandırır. Biz Baş nazirə əziyyət verməyək, heç olmasa, Xarici İşlər Nazirliyindən bir əməkdaş çağıraq, bizi məlumatlandırsın. Biz də öyrənək ki, zirzəmilərdə yaşayan, evləri ermənilər tərəfindən dağıdılmış soydaşlarımız Qarabağda boş qalmış evlərə nə vaxt köçürüləcək? Bizim centlmenliyimiz nə vaxta qədər davam edəcək? Başqa səbəb varsa, onu da bilək, çünki insanlarımız bu barədə yazır, bizdən soruşur.

Onu da soruşaq ki, Qarabağda kənd həyatı bərpa olunacaqmı? Kənddə yaşayanların həyətyanı təsərrüfatı olacaqmı ki, ev heyvanları, quşlar saxlasınlar, meyvə-tərəvəz yetişdirsinlər. Digər bölgələrdə olduğu kimi, Qarabağda da torpaq islahatı aparılıb kəndlilərə torpaq paylanacaqmı? Qarabağda "ağıllı kənd" adı ilə indi tikilənlər şəhər tipli qəsəbələrdir. Onu da soruşmaq lazımdır ki, Qarabağda yaşamış və köçmüş ermənilər Azərbaycan vətəndaşlığını qəbul edərlərsə, onlara Azərbaycanın pasportu veriləcəksə, niyə iş dalınca vətəni tərk etmiş soydaşlarımıza bu hüquq tanınmır, onların pasportları dəyişdirilmir, yaxud pasport verilmir? Hesab edirəm, qanunvericilik qaydasında bu məsələ də öz həllini tapmalıdır.

Hörmətli sədr, sonda, xaricdəki ermənipərəst dairələr tərəfindən son günlər səsləndirilən bəzi çağırışlara da

münasibət bildirmək istəyirəm. Onlar xalqımızı üsyana, inqilaba, küçələrdə barrikadalar qurmağa çağırırlar. Onlara seçki yox, qan lazımdır. Amma anlamırlar ki, o dövrlər artıq arxada qalıb. Düşünürəm ki, onlara ən böyük cavab xalqımızın seçkilərdə fəal iştirakı olacaq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, sülh müqaviləsi hansı bir ölkədə belə müzakirə olunur? Düşünürəm ki, heç bir ölkədə müzakirə olunmayıb. Elşən Musayev. Buyurun.

**E.Musayev**. Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram və mən də həmkarlarıma qoşularaq dünənki Xankəndi sevincimi sizlərlə bölüşmək istəyirəm. Biz Şuşanı alanda elə bilirdik ki, bu, Zəfərimizin kulminasiyasıdır. Amma deyilmiş. Çünki qısa müddətdə Ağdamı, Kəlbəcəri, Laçını da bir güllə atmadan işğaldan azad etdik. Sonra elə bildik, bu da sondur, amma yenə son deyilmiş. Çünki Xankəndiyə də qovuşduq. Daha sonra inersiya qaydasında baş verən proseslər və xüsusən də dünənki hadisə bir daha Azərbaycanın hər bir vətəndaşında əminlik yaratdı ki, nə qədər bu dövlətin başında İlham Əliyev olacaq, bizim uğurlarımız tükənməyəcək. Axarıncı olacaq, amma axırıncı olmayacaq.

Dünən mənim diqqətimi ən çox cəlb edən şəhid övladlarının cənab Prezidentə sarılması oldu. İnanın, tam səmimi deyirəm. Əgər mən bu ölkənin ən radikal, ən barışmaz mövqeli siyasətçisi olsaydım belə, yalnız elə o tabloya görə İlham Əliyevə "sağ ol" deyərdim. Amma dünən bizim ağır tənqidçi müxalifətin səhifələrini də, statuslarını da, medialarını da, sadəcə, maraq xətrinə izlədim. Harri Kasparovun, hansı isə erməniəsilli konqresmenin, senatorun, fransız deputatın və ya hansı isə səfirin şəkillərini bəh-bəhlə paylaşırlar.

Bu haqda heç nə yazmamışdılar. Sanki belə hadisə olmayıb. Bu, bilirsinizmi, nəyə dəlalət edir? Bu ona dəlalət edir ki, bizim əzəli torpaqlarımız mövcud hakimiyyətin dövründə işğaldan azad olunub deyə, məlum qüvvələr Qarabağa da ikrahla yanaşırlar. Müqəddəs şəhidlərimizin ailələrinə və övladlarına da etinasız yanaşırlar.

Amma nə yaxşı ki, Azərbaycan xalqı son dərəcə müdrikdir. Nə yaxşı ki, biz tam siyasiləşmişik, bəsirət gözlərimiz açıqdır, dəyərlərimizi və dəyərlilərimizi qorumağı bacarırıq. Nəhayət, nə yaxşı ki, uşaq pulu adı altında imitasiya, spekulyasiya edənlərlə həmin uşaqları bağrına basıb ləyaqətlə qoruyanlar arasındakı fərqi görməkdə artıq heç kim çətinlik çəkmir. Uğurlarımız, qələbələrimiz, sevincimiz daim bol olsun. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Hörmətli xanım sədr, hörmətli millət vəkili həmkarlarım, media nümayəndələri. Hər bir ölkənin iqtisadi inkişafı onun makroiqtisadi göstəriciləri ilə xarakterizə olunur. Azərbaycanın son 20 ildə əldə etdiyi bir neçə makroiqtisadi göstəricini mən sadalamaq istərdim. Ölkənin ümumi daxili məhsulu axırıncı 20 ildə 14 dəfədən çox artaraq 134 milyard manat təşkil edir. Dövlət büdcəsinin xərcləri 25 dəfədən çox artıb. Valyuta ehtiyatlarımız 68 milyard manat təşkil edir. Əgər 20 il bundan öncə orta aylıq əmək haqqı 77 manat təşkil edirdisə, indi 925 manat təşkil edir. Əgər orta aylıq pensiya 23 manat təşkil edirdisə, indi orta aylıq pensiya 425 manat təşkil edir. Biz bu kimi iqtisadi nailiyyətlərimizi, makroiqtisadi göstəricilərimizi daha çox sadalaya bilərik.

Azərbaycanın bu gün dünyadakı imici, mövqeyi ondan ibarətdir ki, dünya iqtisadiyyatına Orta Dəhlizi bəxş etdi, dünya iqtisadiyyatına Avropanın enerjisinin təchiz olun-

ması üçün Cənub Qaz Dəhlizi layihəsini təklif etdi. Bu kimi nailiyyətlərimiz daha çoxdur. Digər nailiyyətlərimizi, ən son nailiyyətlərimizi deyəcəyəm.

Azərbaycan Qarabağda 44 gün ərzində böyük qələbə əldə etdi. Azərbaycanın siyasi nüfuzu. COP29-a Azərbaycan evsahibliyi edəcək. Bunların sayı yüzlərcədir. Bəs bütün bu nailiyyətlərin əsasında nə dayanıb? Nəyə görə biz bu nailiyyətləri əldə etdik? Niyə əvvəllər bu nailiyyətləri əldə etmirdik? Yəni 1993-cü ildə bizim nailiyyət adında ifadəmiz, bu nailiyyətlərimiz yox idi. Bu sadaladığım makroiqtisadi göstəricilərimiz əks istiqamətdə gedirdi. Təhlil, fakt, sübut onu göstərir ki, bütün bunların əsasında, – hörmətli xanım sədr, bayaq Siz ölkə Prezidenti cənab İlham Əliyevə ünvanladığınız təbrikdə çox düzgün qeyd etdiniz, – Ulu Öndərimiz Heydər Əliyevin siyasəti, strategiyası və bu gün o strategiyanı çox ləyaqətlə, çox dəyanətlə, ağılla, müdrikcəsinə, cəsarətlə davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti dayanır. Bax, bütün bu nailiyyətlərimizin əsasında. Ona görə də mən hesab edirəm ki, bizim nailiyyətlərimiz bundan sonra daha da çox olacaq. Çünki Azərbaycan xalqı ilə ölkə Prezidenti, onun lideri birdir, məqsəd birdir, amal birdir və bu məqsədə, bu amala heç kim mane ola bilməz. 30 ildir antimilli qüvvələr nə qədər cəhd edirsə, Azərbaycan xalqının birliyini poza bilmir. Mən ölkə Prezidentini ürəkdən təbrik edirəm, ona uğurlar arzulayıram.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bizim 30 dəqiqəmiz bitdi. 10 nəfər çıxış etdi. Biz gündəliyin məsələlərinə keçirik.

Bildiyiniz kimi, bu gün gündəliyimizdə 27 məsələmiz var. 1-ci məsələ “Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haq-

qında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, siz yaxşı bilirsiniz, beynəlxalq sənədlə bağlı olduğuna görə qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında" Saziş 2023-cü il noyabrın 20-də İraq Prezidentinin Bakıya səfəri zamanı imzalanmışdır.

Bu saziş iki ölkə arasında hava əlaqəsinin yaradılması və həyata keçirilməsi məqsədi ilə imzalanmışdır. Sazişin müddəaları "Beynəlxalq Mülki Aviasiya haqqında" Çikaqo Konvensiyasının müddəaları ilə şərtlənmişdir. Sazişə əsasən hər bir razılığa gələn tərəf digər razılığa gələn tərəfə beynəlxalq hava əlaqələri ilə əlaqədar olaraq, yerə enmədən öz dövlətinin ərazisi üzərində uçmaq, qeyri-kommersiya məqsədləri ilə öz dövlətinin ərazisində dayanmaq kimi hüquqlar verir.

Hər iki razılığa gələn tərəfin təyin etdiyi aviasiya şirkətləri bu sazişin əlavəsində göstərilən müəyyən olunmuş marşrutlarda razılaşdırılmış xidmətləri yerinə yetirmək üçün ədalətli və bərabər imkanlara sahib olacaqlar.

Sazişdə tərəflərə qarşılıqlı hava əlaqələri zamanı gömrük rüsumlarından və vergilərdən azad olmaq hüququ verən şərtlər də müəyyən edilmişdir. Eyni zamanda, mülki aviasiyanın təhlükəsizliyi üçün hər hansı bir təhdid

yaranan zaman müraciət əsasında tərəflərin bir-birinə lazımi yardım göstərməsi də nəzərdə tutulmuşdur.

Hörmətli həmkarlar, Azərbaycan–İraq münasibətləri son illər ərzində xeyli sürətlə inkişaf edir. Son 3 il ərzində Azərbaycandan İraqa ixracımız 3 dəfədən çox artmışdır. Bu gün regionda baş verən hadisələrdən, xüsusən də hörmətli xanım sədr, gündəliyin növbəti məsələsi olan "Aviasiya haqqında" Qanun qəbul ediləndən sonra Azərbaycanda hava əlaqələrinin inkişafı baxımından bu saziş çox böyük əhəmiyyət kəsb edir. Həmkarlarımı sazişə səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, məlumata görə çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Ona görə mən hörmətli Səməd müəllimdən xahiş edəcəyəm. Səməd müəllim, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Tahir müəllim həmkarlarımıza saziş haqqında geniş və ətraflı məlumat çatdırdı. Biz, təbii, komitədə bu sazişi müsbət qiymətləndirmişik və bu gün bu sazişin qəbul olunmasını tövsiyə edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Heç kimin sözü, sualı yoxdursa, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verməd i | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti 17 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. İndi biz 2-ci məsələyə keçirik. Bu məsələ Aviasiya haqqında qanun layihəsidir. Layihəyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Elnur Allahverdiyevə söz verirəm. Elnur müəllim, buyurun, məlumat verin.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qeyd olunduğu kimi, Aviasiya haqqında Azərbaycan Respublikası qanunu layihəsinin üçüncü oxunuşudur. Qeyd etdiyimiz kimi, qanun layihəsi özündə Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq sənədləri, İKAO-nun beynəlxalq standartlarını və tövsiyə olunan təcrübəsini əks etdirir. Yeni qanunun qəbulu ilə müvafiq sahədə praktikadakı boşluqlar tənzimlənəcəkdir. Qanun layihəsi komitədə və plenar iclasda deputatlar tərəfindən ətraflı müzakirə olunmuşdur. Lakin nəzərə almaq lazımdır ki, hava məkanı ilə bağlı tənzimləmələr öz mahiyyəti etibarı ilə daha çox beynəlxalq sənədlərin tələblərinə istinad etdiyindən, ona dəyişikliklər edilməsi bir qədər çətinlik doğurur.

İkinci oxunuş plenar iclasda deputatlar tərəfindən dövlətin hava məkanı, pilotsuz uçuş aparatları, daşımalara dair sərnişin hüquqları, hava gəmilərinə adların verilməsi, habelə təyyarə bələdçilərinin səlis Azərbaycan dili bilgi-

lərinin olması ilə bağlı təkliflər verilmişdir. Həmin təkliflər tərəfimizdən aidiyyəti dövlət qurumu ilə birlikdə araşdırılmış və layihədə əks olunması mümkün olmasa da, təklif irəli sürən deputatlara bu barədə geniş izah və arayış təqdim edilmişdir.

Hava gəmilərinə adların verilməsi ilə bağlı bildiririk ki, bu məsələ qanunla deyil, təsdiqlənəcək müvafiq qaydalarla tənzimlənəcəkdir. Təyyarə bələdçilərinin dil bilgiləri ilə bağlı məsələ daşımanı bilavasitə icra edən şirkətin səlahiyyətlərinə aid olduğundan, tənzimləyici qurum tərəfindən onların diqqətinə çatdırılmışdır və gələcəkdə kadr seçimləri zamanı bu məsələyə diqqətlə yanaşılacaqdır.

Bunlarla yanaşı, üçüncü oxunuş zamanı qanun layihəsində üslub xarakterli bəzi dəqiqləşdirici düzəlişlər də edilmişdir. Həmkarlarımı qanun layihəsini dəstəkləməyə dəvət edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Görürəm, sualı, sözü olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---:|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye

və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitə sədrinin müavini hörmətli Əli Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, ikinci oxunuş zamanı biz qeyd etmişdik ki, birinci oxunuş zamanı xeyli təkliflər irəli sürülmüşdür və qanunvericilik təşəbbüsü subyekti ilə müzakirələr gedir. Həmin müzakirələr zamanı belə bir qənaətə gəldik ki, bu layihə olduğu kimi səsə qoyulsun. Həmin təkliflərə daha geniş planda baxılsın və sonradan, ayrıca təkliflər kimi təqdim edilsin. Bizə elə gəlir ki, bu, daha optimal variantdır. Ona görə biz bu layihənin bu dəfə olduğu kimi səsə qoyulması və həmin təkliflərin üzərində işin davam etdirilməsi variantını seçirik. Deputat həmkarlarımı ikinci oxunuşda olduğu kimi, üçüncü oxunuşda da bu layihəyə səs verməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun. Komitənin rəyini bildirdiniz. Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

4-cü məsələyə keçirik. Bu məsələ “Polis haqqında”,

“Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında” və “Ümumi təhsil haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr, təşəkkür edirəm. Bu layihə birinci və ikinci oxunuşlarda deputat həmkarlar tərəfindən dəstəklənmişdir. Hər hansı bir təklif daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə Elm və təhsil komitəsində də baxılıb. Mən komitənin sədri hörmətli Bəxtiyar Əliyevdən xahiş edəcəyəm. Bəxtiyar Əliyev. Buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Komitənin rəyi müsbətdir. Komitə qanun layihəsinin lehinədir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələ Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Əvvəlki iki oxunuşda layihə yekdilliklə dəstəkləndiyi üçün olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsi barədə heç kimin sualı yoxdur, üçüncü oxunuşdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.44 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Biz indi növbəti məsələyə keçirik. Bu, "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu bizim gündəliyimizin 6-cı

məsələsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, komitənin üzvü hörmətli Kamal Cəfərov, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hər hansı təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

7-ci məsələ Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə, Musa müəllim, sizin komitədə baxılıb – Əmək və sosial siyasət komitəsində. Ona görə, hörmətli Musa müəllim, xahiş edirəm, məlumat verin.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Birinci və ikinci oxunuşlar zamanı qanun layihəsi ətraflı müzakirə olunmuş və deputat həmkarlarımız tərəfindən dəstəklənmişdir. Layihənin mətnində heç bir

dəyişiklik yoxdur. Xahiş edirəm, üçüncü oxunuşda layihəni dəstəkləyəsiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Bu layihəyə Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Hicran xanım, xahiş edirəm, məlumat verin.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bizim də komitəmizdə bu qanun layihəsinə baxılıb, rəy müsbətdir. Xahiş edirik, səsə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Mən qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, xatırladım ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bilirsiniz ki, mahiyyətcə də bir-birinə yaxındır. Bunlar 8-ci və 9-cu məsələlərdir. 8-ci məsələ "İşsizlikdən sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 9-cu məsələ isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələridir. Odur ki, mən yenə də həmişə olduğu kimi, təklif edirəm,

əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə o biri prosedurlara keçək. 8-ci məsələyə, çox hörmətli Musa müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**M.Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Üçüncü oxunuşda layihə ilə bağlı komitəyə heç bir təklif daxil olmayıb. Layihənin mətnində dəyişiklik yoxdur. Xahiş edirəm, layihəni üçüncü oxunuş üçün səsə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. 9-cu məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Kamal müəllim, keçən dəfə də Siz məlumat vermişdiniz. Xahiş edirəm, bu dəfə də Siz təqdim edirsiniz. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Layihəyə hər hansı bir təklif olmadığından səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Kamal müəllim, çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, indi mən qanun layihələrini bir-bir səsə qoyacağam, münasibət bildirərsiniz. 8-ci məsələyə – "İşsizlikdən sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

9-cu məsələni səsə qoyuram. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.48 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli deputatlar, gündəliyin növbəti 7 məsələsi də möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə və məzmunca da bunlar bir-birinə yaxındırlar. Xatırladım ki, 10-cu məsələ Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 11-ci məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, 12-ci məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, 13-cü məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 14-cü məsələ “Dəniz limanları haqqında” Qanunda dəyişiklik edilməsi barədə, 15-ci məsələ “Milli təhlükəsizlik haqqında” Qanunda dəyişiklik edilməsi barədə, 16-cı məsələ isə “Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyəcəyik. Yadınızdadırsa, keçən dəfə də bizdə 10-cu, 14-cü, 16-cı məsələlər bir təqdim olunmuşdu. Bu məsələlərə, Tahir müəllim, sizin komitənizdə – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır.

Xahiş edirəm, Tahir müəllim, bu gün Siz özünüz təqdim edirsiniz, buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi ticarət gəmiçiliyində və dəniz limanlarında iqtisadi və hüquqi münasibətləri tənzimləmək və dövlət rüsumunu müəyyən etmək məqsədi ilə hazırlanmışdır. İkinci oxunuşdan sonra komitəyə hər hansı bir təklif və irad daxil olmamışdır. Ona görə qanun layihələrini olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. 11-ci, 12-ci, 13-cü məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Kamal müəllim, keçən dəfə də Siz məlumat vermişdiniz. Xahiş edirəm, indi də məlumat verin.

**K.Cəfərov.** Hörmətli xanım sədr, hər hansı təklif olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. 15-ci məsələyə, Ziyafət müəllim, sizin komitənizdə baxılıb. Xahiş edirəm, keçən dəfə olduğu kimi, yenə də Siz özünüz təqdim edirsiniz, buyurun, məlumat verin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, birinci və ikinci oxunuşlarda qanun layihəsi hörmətli həmkarlarım tərəfindən yekdilliklə dəstəkləndiyinə görə səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, mən qanun layihələrini ardıcıl səsə qoyacağam. Xahiş edirəm, indi 10-cu məsələyə münasibət bildirin. Bu, dediyim kimi, Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi mən 11-ci məsələni üçüncü oxunuşda səsə qoyuram, Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.51 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi 12-ci məsələyə, xahiş edirəm, münasibət bildirin. Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

13-cü məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

14-cü məsələyə – "Dəniz limanları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.52 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

15-ci məsələni səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, “Milli təhlükəsizlik haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Nəhayət, 16-cı məsələni səsə qoyuram. Bu, “Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.53 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 17-ci məsələmizdir. Bu məsələ “Mühasibat uçotu haqqında” və “Dövlət sirri haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Məşhur Məmmədova söz verirəm. Məşhur müəllim, Siz keçən dəfə də təqdim etmişdiniz. Buyurun, indi də təqdim edin.

**M.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Hörmətli xanım sədr, ikinci oxunuşdan sonra əlavə və dəyişiklik olmamışdır. Komitəyə heç bir təklif daxil olmamışdır. Ona görə deputatlardan üçüncü oxunuşda da qanun layihəsinə səs vermələrini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, daha 2 komitədə baxılıb. Əli müəllim, sizin komitədə baxılıb. Kamal müəllim məlumat verəcək. Buyurun.

**K.Cəfərov.** Hörmətli xanım sədr, bizim komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, Siz özünüz də məlumat verin.

**Z.Əsgərov.** Hörmətli xanım sədr, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.55 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edil-

məsi barədə, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Mən komitənin üzvü hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, xahiş edirəm, məlumat verin.

**A.Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli qonaqlar, media nümayəndələri. Qeyd edildiyi kimi, təklif olunan layihə “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”nin təsdiq edilməsi barədə, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarda dəyişikliklərə aiddir. Birinci və ikinci oxunuşlarda geniş müzakirə olunub. Təklif olunan dəyişikliklərlə bağlı parlament üzvlərini və ictimaiyyəti maraqlandıran məsələlərə ətraflı aydınlıq gətirilib və izahatlar verilib.

Hərtərəfli müzakirələrdən keçən layihənin dövlətçilik, ordu quruculuğu, müdafiə qabiliyyətinin artırılması, hərbçilərin sosial məişət şəraitinin daha da yaxşılaşdırılması baxımından mütərəqqi sənəd olduğunu nəzərə alaraq, həmkarlarımı üçüncü oxunuşda da dəstəkləməyə çağırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Musa müəllim, xahiş edirəm, Siz məlumat verin.

**M.Quliyev.** Çox sağ olun, xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da üçüncü oxunuşda olan qanun layihələrimiz başa çatdı. Növbəti məsələlərə keçirik. Bizim növbəti məsələmiz 19-cu məsələdir. Bu məsələ “Elektroenergetika haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Ona görə də müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Əliabbas Salahzadəyə söz verirəm. Əliabbas müəllim, buyurun.

**Ə.Salahzadə,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Bildiyiniz kimi, hazırda qüvvədə olan “Elektroenergetika haqqında” Qanunda dəyişiklik edilməsi barədə 2023-cü il 30 may tarixli Qanuna əsasən 2023-cü il oktyabrın 1-dən etibarən qanuni əsaslar olmadan inşa edilmiş və ya tikilməkdə olan tikinti obyektlərinin enerji təchizatı şəbəkələrinə qoşulması qadağan edilmişdir. Bu qanun layihəsində həmin maddə 2023-cü il aprelin 11-də qəbul edilmiş qanunda olduğu kimi əksini tapır. Yəni təklif edilən dəyişiklik

texniki xarakter daşıyır. Hörmətli həmkarlarımdan nəzərə almalarını və səs verməl𝑒rini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Vüqar müəllim, yazılmısınız. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, xanım sədr. Sadəcə, mən Əliabbas müəllimə təqdimata görə təşəkkür edirəm. Çox qısa olaraq texniki bir məsələyə aydınlıq gətirməsini xahiş edirəm. 2023-cü il oktyabrın 1-dən öncə inşaatına başlanılan və icazəsi olan binalarla bağlı bu qadağalar tətbiq olunurmu? Yəni həmin binaların inşaatı qeyd olunan tarixdən öncə başlanıb və davam etdirilib. Hazırda hazır deyil. Həmin binalara bu qadağalar tətbiq ediləcəkmi? Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əliabbas müəllim, cavab vermək istəyirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Ə.Salahzadə.** Hörmətli Vüqar müəllimin sualına cavab olaraq bildirmək istəyirəm ki, bu qanun öncədən tikilmiş tikinti obyektlərinə şamil olunmur.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.00 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 83 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

20-ci məsələ növbəti məsələmizdir. Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, qanunvericiliyin tələbinə əsasən bu qanun layihəsi də bir oxunuşda qəbul ediləcək. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair, Əli müəllim, Siz məlumat verəcəksiniz. Buyurun, məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə ilə Şəhərsalma və Tikinti Məcəlləsinin 16-cı maddəsində bir texniki düzəliş təklif olunur. Əslində, söhbət "qaydalar" sözünün "əsasnamə" sözü ilə əvəz olunmasından gedir. Gələcəkdə bu əsasnamə cənab Prezident tərəfindən təsdiq olunacaq.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
|---|---:|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, bizim 7 məsələmiz qalır. Bu məsələlərin hamısı da ikinci oxunuşda olan qanun layihələridir. Onu da deyim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır. Beləliklə, 21-ci

məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında, 22-ci məsələ isə "Mediasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Keçən dəfə də, Nizami müəllim, Siz məlumat vermişdiniz. Xahiş edirəm, bu gün də Siz məlumat verin. Buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə təqdim edilmiş Arbitraj haqqında qanun layihəsi ilə bağlıdır. Mahiyyətcə uyğunlaşdırma xarakteri daşıyır. Birinci oxunuşda hər hansı sual doğurmadan qəbul edilmişdir. İkinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Nizami müəllim, Siz 2 qanun layihəsi haqqında məlumat verdiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda qəbul edilmişdir. Xatırlatmaq istərdim ki, bu dəyişiklik "Arbitraj haqqında" Qanuna əsasən yeni təsisatın yaradılması ilə bağlıdır. Hörmətli deputat Etibar Əliyevin qaldırdığı məsələyə həm müzakirələrdə, həm də işçi qaydasında aydınlıq gətirilmişdir. İkinci oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, bildiyiniz kimi, ikinci oxunuşdur. Ona görə də biz bu qanun layihələrini əsas kimi qəbul etməliyik. İndi

mən sizdən 21-ci məsələdə olan qanun layihəsinin əsas kimi qəbul edilməsini xahiş edəcəyəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə 22-ci məsələdə olan qanun layihəsini mən əsas kimi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, yazılan var. Siyavuş müəllim, sualınız, təklifiniz var? Buyurun.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Nizami müəllim təqdim etdi. Birinci oxunuşda da əsas kimi baxılmışdı, fikirlər bildirilibdir. Mənim sualım ondan ibarətdir ki, bilirsiniz, "Mediasiya haqqında" Qanun bizdə yeni tətbiq olunacaqdır. Buna qədər bu cür format var idi, bəzən görürdün ki, bizim

hörmətli vəkillərimiz, belə deyək, vəkillik əvəzinə, əsasən, müttəhimlə hakim arasında aradüzəltmə prosesində iştirak ediblər. Yəni hüquqi məsələləri kənara qoyub başqa işlərlə məşğul olurdular. Ona görə də görürdün ki, bəzi hallarda vəkillik institutunda xeyli axsamalar baş verir və klassik vəkillik institutunun öyrənilməsinə deyil, daha çox digər tərəfə meyil olunurdu.

Mən Nizami müəllimdən öyrənmək istəyirdim ki, "Mediasiya haqqında" Qanunda da məhkəməyə qədər olan münasibətlərin tənzimlənməsi prosesi o aradüzəltmə deyil ki? Yəni bunları, əslində, bu, hüquqi cəhətdən başa salmalıdır ki, hər iki tərəfin uduzacağı nə olacaq. Sənin udacağın nə olacaq. Ən yaxşı hal budur ki, barışın, yaxud bu məsələləri düzgün qiymətləndirin və sair. Məsələ gedib məhkəməyə çıxmasın. Yəni orada bu işi həyata keçirən təşkilatın, orqanın, şəxsin öz vəzifə səlahiyyətlərini hüquqi cəhətdən deyil, başqa cəhətlər əsasında qurması artıq prosesin özünün korlanmasına gətirib çıxara bilər. O baxımdan bunu öyrənmək istəyirəm ki, burada kimlər ola bilər, bunların təhsil səviyyəsi necə olmalıdır, harada qeydiyyatdan keçməlidir, hansı işləri görməlidir? Nizami müəllimdən buna cavab almaq istərdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ay Siyavuş müəllim, elə çıxış etdiniz, sual yox. 50 dənə sual qoydunuz. Nizami müəllim, buyurun.

**N.Səfərov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycanda uzun müddət ərzində formalaşan ən səmərəli təsisatlardan biri vəkillik təsisatıdır və yeni şəraitdə yüksək səviyyədə fəaliyyət göstərir. Burada məsələnin digər tərəfi var. Bu, sırf müzakirəyə çıxarılan qanunla bağlıdır.

"Mediasiya haqqında" Qanunun əvvəlki redaksiyasına uyğun olaraq, kommersiya mübahisələri, ailə mübahisələ-

ri, əmək mübahisələri və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrə mediasiya tətbiq edilirdi. Bu, mülki prosessual qaydada məhkəmə baxışına bir alternativ prosedur idi. Hazırda yeni arbitraj təsisatı yaradılacaq və belə olan halda tərəflərin avtonom iradəsinə əsaslanan alternativ mübahisənin həlli üsulu arbitraj olacaq. Ona görə, mediasiya artıq kommersiya mübahisələrinə baxmayacaq. Bu, tamamilə düzgün hüquqi yanaşmadır. Məsələnin mahiyyəti bundan ibarətdir. Sırf hüquqi baxımdan.

**Sədrlik edən.** Siyavuş müəllim, eşitdiniz. Sağ olun, Nizami müəllim. Hörmətli həmkarlar, biz indi qanun layihələrinin səsvermə proseduruna keçəcəyik. Maddələr üzrə və həmişə olduğu kimi, bütövlükdə.

21-ci məsələdə – Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsində 31 maddə var. Mən onları beş-beş səsə qoyacağam. İndi isə xahiş edirəm, ilk 5 maddəyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə 6-cı maddədən 10-cu maddəyə qədər növbəti 5 maddəni mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.08 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə 11-ci maddədən 15-ci maddəyə qədər olan 5 maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 5 maddəyə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi. Xatırladım ki, bu maddələr 16-cı maddədən 20-ci maddəyə qədər idi.

İndi isə xahiş edirəm, 21–25-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

6 maddə qalır. Son 6 maddəyə də, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bunlar da qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələnin səsverməsinə keçirik. “Mediasiya haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu qanun layihəsində cəmi 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim növbəti məsələmiz, 23-cü məsələ “Prokurorluq haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Əminə xanım Ağazadəyə söz verirəm. Əminə xanım, buyurun.

**Ə.Ağazadə,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə hər hansı bir təklif daxil olmadığından, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Bu qanun layihəsində 1 maddə var. Xahiş edirəm, bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi, çox sağ olun.

İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.13 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

24-cü məsələ "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Əli müəllim, Siz məlumat verəcəksiniz. Buyurun.

**Ə.Hüseynli.** Hörmətli xanım sədr, bu layihə də cənab Prezidentin təklifi, bir müddəanın qüvvəyə minmə tarixinin 3 il təxirə salınması ilə bağlıdır. Hesab edirəm ki, bu formada da qəbul edilməlidir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Buyurun, bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi əsas kimi qəbul edildi.

Sualı, sözü olan yoxdur. Səsverməyə keçirik. Layihə 1 maddədən ibarətdir. Bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.
İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. 25-ci məsələdir. Bu məsələ “Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi mülki işlər üzrə ilk dəfə “Elektron məhkəmə” informasiya sistemi vasitəsi ilə müraciət edən vətəndaşlara dövlət rüsumunun ödənilməsində 10 faiz gü-

zəşt olunması ilə bağlıdır. Birinci oxunuşdan sonra hər hansı bir təklif daxil olmamışdır. Komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Tahir müəllim, çox sağ olun. Bu qanun layihəsini əsas kimi qəbul etməliyik. Hörmətli həmkarlar, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Səsverməyə keçək. Qanun layihəsi 1 maddədən ibarətdir. Bu maddəyə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

26-cı məsələyə keçirik. Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və 2 qanun layihəsində dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Kamal müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**K.Cəfərov.** Hörmətli xanım sədr, həmkarlarımın bir sıra təklifləri olmuşdur. Biz onları işçi qaydada müzakirə etmişik. Nəticələri barədə özlərinə məruzə etmişəm. Hazırda layihədə hər hansı bir dəyişiklik olmadığı üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Bu qanun layihəsinə 2 komitədə də baxılıb. Ziyafət müəllim, sizin komitənizdə, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Ziyafət müəllim, buyurun, Siz məlumat verin, komitənin rəyini bildirin.

**Z.Əsgərov.** Hörmətli xanım sədr, mən Kamal müəllimin fikri ilə tamamilə razıyam. Hər iki qanun layihəsi həm komitələrdə, həm də birinci oxunuşda parlamentin plenar iclasında ciddi müzakirə olunub. 1-2 məsələ var idi, biz artıq onları razılaşdırmışıq. Elə bilirəm ki, səsverməyə çıxarmaq olar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. İkinci komitə İnsan hüquqları komitəsidir. Komitənin rəyini bildirmək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü.*

Təşəkkür edirəm. Komitə lehinədir, dəstəklənməsini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik, ikinci oxunuşdur. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qanun layihəsi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam.

Hörmətli həmkarlar, indi isə xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələrə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.19 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddələr də qəbul edildi.

İndi isə xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələ 27-ci məsələdir. "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Ziyafət müəllimdən xahiş edəcəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, birinci oxunuş zamanı mən bu qanun layihəsi barədə ətraflı məlumat vermişdim. Qısaca olaraq demək istəyirəm ki, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin hüquqi əsaslarının daha da möhkəmləndirilməsi baxımından bu dəyişiklik olduqca vacibdir və hörmətli həmkarlarımdan bu qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Minnətdaram, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsini əsas kimi qəbul edək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi bir maddədən ibarətdir. Xahiş edirəm, bu maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu maddə qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, dünən Milli Məclisdə çox vacib bir dinləmə keçirildi. Səhiyyə komitəsinin mövzusu idi və bu dinləmə çox hörmətli Əhliman müəllimin təşəbbüsü ilə keçirildi. Mən indi istərdim, Əhliman müəllim bizə bir məlumat versin. Buyurun.

**Ə.Əmiraslanov**, *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, media nümayəndələri. Mən də ilkin olaraq bütün təbriklərə qoşularaq, möhtərəm cənab Prezidentimizi doğum günü münasibəti ilə ürəkdən təbrik edirəm, Azərbaycanın xoşbəxt gələcəyi naminə möhtərəm cənab Prezidentimizə uzun ömür, can sağlığı arzulayıram!

Sahibə xanım, Sizin də qeyd etdiyiniz kimi, dünən Milli Məclisdə "Tibbi tullantıların idarə olunması: mövcud vəziyyət, problemlər və onların həlli yolları" mövzusunda dinləmə keçirildi. Ümumiyyətlə, bilirsiniz ki, tullantılar indi, bütövlükdə, cəmiyyət, dünya üçün çox böyük təhlükə

təşkil edir. Planetimizdə əhalinin sayının artması ilə bağlı, ümumiyyətlə, məişət və texniki tullantılar günbəgün artır. Bu da istər atmosfer, su hövzələri üçün, istərsə də meşələrimiz, ətraf mühit üçün son dərəcə böyük təhlükə təşkil edir. Ancaq tibbi tullantılar isə insanların sağlamlığı üçün məişət tullantılarından daha böyük təhlükə təşkil edir. Xəstələrlə təmasda olan hər bir şey, hər bir əşya tibbi tullantı adlanır. Dünən də mən qeyd elədim, çox kiçik miqdarda tibbi tullantıların tərkibində insan həyatı üçün təhlükə təşkil edən milyardlarca patogen mikroblar və viruslar mövcuddur.

Bu dinləmələrdə səhiyyə, ekologiya və təbii sərvətlər nazirlərinin müavinləri, o nazirliklərin bu sahə ilə məşğul olan idarələrinin rəisləri, Milli Məclisin iki komitəsinin sədri, hörmətli həmkarlarım Musa Quliyev və Sadiq Qurbanov, Milli Məclisin deputatları, eyni zamanda, TƏBİB-in icraçı direktoru, Bakının böyük, aparıcı klinikalarının rəhbərləri və ölkəmizdə bu sahədə tanınmış ekspertlər iştirak edirdilər.

Dinləmələrə hazırlıq ərəfəsində, Sahibə xanım, biz Milli Məclisin Səhiyyə komitəsində bir qrup yaratdıq. Bu qrup, bütövlükdə, Azərbaycanda bu problemin nə vəziyyətdə olması ilə maraqlandı, öyrəndi və bu təşəbbüs qrupuna rəhbərlik etməyi biz millət vəkili həmkarım Soltan Məmmədova tapşırdıq. Dünənki müzakirələrdən məlum oldu ki, o  sahədə ölkəmizdə son vaxtlar xeyli işlər görülməsinə baxmayaraq, ancaq istər tibbi tullantıların böyük xəstəxanalarda, bütövlükdə, tibb müəssisələrində toplanması, onların müvəqqəti olsa da, saxlanması, çeşidlənməsi, istərsə də bu toplantıların transferi, utilizasiyası və onların emalı sahəsində kifayət qədər böyük problemlər var. Ölkəmizin paytaxtı Bakı şəhərində bu sahədə müəyyən

uğurlar olsa da, bölgələrdə bu sahədə, demək olar ki, vəziyyət son dərəcədə acınacaqlıdır.

Bütün bu məsələlər geniş müzakirə olundu, fikir mübadiləsi aparıldı. Belə qərara gəldik ki, ilk növbədə tibbi tullantıların idarə olunması ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş əsasnamələr, normativ hüquqi aktlar ki var, – bunlar kifayət qədər köhnəlmiş sənədlərdir, – bu normativ aktların yenilənməsinə böyük ehtiyac var. Gələcəkdə bu istiqamətdə işin aparılması nəzərə alındı və tövsiyə olundu. Onu da deyim ki, adını çəkdiyimiz iki nazirlik artıq nazir müavinlərinin rəhbərliyi ilə bir təşəbbüs qrupu yaradıblar. Onlar artıq fəaliyyətə başlayıbdır ki, ölkəmizdə olan tibbi tullantıların idarə olunması ilə bağlı mövcud problemlərin həlli üçün tədbirlər hazırlayıb təqdim etsinlər. Biz də Milli Məclis, qanunvericilik orqanı olaraq söylədik ki, bu sahədə hər hansı bir qanunvericilik aktının hazırlanması, qanunlarda dəyişiklik edilməsi sahəsində üzərimizə düşən vəzifələri yerinə yetirməyə hazırıq.

Son olaraq, istərdim qeyd edim ki, mənə belə gəlir, son dərəcə lazımlı bir dinləmə keçirildi və Sahibə xanım, mən istərdim, şəxsən Sizə dərin təşəkkürümü bildirim. Bu dinləmənin keçirilməsində Siz şəxsən köməklik etdiniz, bizə tapşırıq verdiniz və bu dinləmələr çox yüksək səviyyədə keçdi. Mən deməyi unutdum, həmçinin Milli Məclisin müvafiq şöbəsinin rəhbəri və işçiləri də bu dinləmələrdə çox fəal iştirak etdilər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Milli Məclis öz işini görür, bu hamımızın işidir. Əhliman müəllim, bu mövzu, həqiqətən, vacib, bu gün dünyada, ümumiyyətlə, qlobal bir mövzudur. Siz tamamilə düzgün etdiniz. Dünən də bu haqda dediniz, burada da vurğuladınız.

Mən təklif edirəm ki, bununla bağlı bizim “Parlament

saatı" proqramımızda, eyni zamanda, Milli Məclisin "YouTube" kanalında Siz məlumat verəsiniz. Bir neçə nəfər bizim həmkarımız, komitə sədrləri, həm hörmətli Musa müəllim, həm də Sadiq müəllimlə birlikdə Siz məsləhət gördüyünüz o ekspertlərlə birgə bir dəyirmi masa təşkil edin, çünki cəmiyyəti hökmən bu problemlə bağlı məlumatlandırmaq lazımdır ki, Azərbaycanda bu istiqamətdə hansı işlər görülür. Xahiş edirəm, Siz bunu edin. Mən təşkilatçılıq məsələləri ilə bağlı öz tapşırıqlarımı verəcəyəm.

Hörmətli həmkarlar, çox sağ olun. Hamıya təşəkkür edirəm. Bizim növbəti iclasımız ayın 26-da olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***19 dekabr 2023-cü il***

**Azay Quliyev.** Gələn il fevralın 7-nə təyin edilmiş Prezident seçkiləri sıradan bir siyasi mübarizə və ya seçki hadisəsi deyil, bu, sözün bütün mənalarında, Azərbaycanın gələcək inkişafının hansı istiqamətdə gedəcəyini, xüsusilə son 3 ildə ölkəmizin əldə etdiyi tarixi qələbələrin sonrakı taleyini müəyyən edəcək bir seçimdir. İnanıram ki, xalqımız növbədənkənar Prezident seçkilərinin əsl mahiyyətini məhz bu cür qəbul edir. Çünki heç kimə sirr deyil ki, bəzi qlobal güclər Azərbaycanın torpaqlarını işğaldan azad etməsini, Qarabağda aqressiv separatizmə birdəfəlik son qoymasını və milli maraqları naminə müstəqil siyasət yürütməsini hələ də qəbul edə bilmir, canımız və qanımız bahasına əldə etdiyimiz qələbəmizi hər vəchlə əlimizdən almağa çalışırlar. Bu cür məkrli və təhlükəli planların icrasına onlar daxildə heç bir dəstək tapa bilmədikləri üçün xaricdə ələ aldıqları milli nankorları və anti-Azərbaycan şəbəkəsini səfərbər ediblər. Məqsəd birdir – Vətən müharibəsindən bəri formalaşan və bu günə kimi davam edən milli birliyimizə və siyasi həmrəyliyimizə zərbə vurmaq və zəiflətmək. Ancaq əminəm, Azərbaycan xalqı bunun fərqindədir, şübhə etmirəm ki, bu millət Vətən müharibəsində olduğu kimi, yenə də öz əzəmətini və gücünü göstərəcək, fevralın 7-də Prezident seçkilərində bir nəfər kimi iştirak edərək əldə etdiyi tarixi nailiyyətləri və qələbələri qorumağı bacaracaqdır. Bununla da xalqımız nəyə qadir olduğunu, müzəffər Ali Baş Komandana olan sonsuz dəstəyini, sevgisini və dərin etimadını bütün

dünyaya təkrar nümayiş etdirəcəkdir.

Mən, eyni zamanda, növbədənkənar Prezident seçkiləri haqqında qərarın gözlənilməz olduğunu bəhanə edərək seçkidə iştirakdan imtina edən AXCP və Müsavata, cənab İlham Əliyevin şəksiz qələbəsini bilə-bilə seçkinin nəticələrinə indidən kölgə salmağa çalışanlara demək istəyirəm ki, siz bu cür siyasi cılızlıq nümayiş etdirməklə Azərbaycanın yeni və şərəfli tarixinin bir parçası olmaqdan məhrum oldunuz, növbəti dəfə özünüzü bu millətə qarşı qoydunuz. Bəlkə də, ilk dəfə idi ki, sizin ya seçkilərdə mübarizə aparıb mərdcəsinə uduzmaq, ya da mövcud reallığı qəbul edib xalqın yanında durmaq və bununla da müsbət mənada tarixdə qalmaq şansınız var idi, ancaq bunu da qaçırtdınız.

Bu tarixi şəraiti düzgün qiymətləndirən müxalifət partiyaları da var. AXC və Müsavat partiyalarından daha güclü və daha təşkilatlanmış olmalarına baxmayaraq, Ümid Partiyasının sədri İqbal Ağazadə və Haqq Ədalət Partiyasının sədri Əli İnsanov mövcud vəziyyəti düzgün qiymətləndirdilər, dövlətin və xalqın maraqlarını partiya maraqlarından üstün tutaraq nəinki demaqoqcasına seçkilərdə iştirakdan imtina etmədilər, əksinə, seçkilərdə Prezident İlham Əliyevin namizədliyini, yəni xalqın və millətin seçimini dəstəkləyəcəklərini bəyan etdilər. Düşünürəm ki, bu qərarı qəbul etməklə hər iki partiya xalqın və cəmiyyətin də rəğbətini qazanmış oldu, dövlətimizə qarşı qurulan oyunların və edilən təzyiqlərin qarşısının alınmasında üzərlərinə düşən nə var idisə onu da etdilər. Təbii ki, bunu da alqışlamaq lazımdır!

**Ceyhun Məmmədov.** Məlum olduğu kimi, Prezident İlham Əliyevin tapşırığı ilə iki Azərbaycan vətəndaşı bir neçə gün bundan əvvəl əsirlikdən azad olundu. Ermənistan

müxtəlif yollarla həmin şəxslərin Azərbaycana verilməsinə mane olmağa çalışsa da, Azərbaycan yekunda öz məqsədinə nail oldu. Əvvəlki dövrlərdə olduğu kimi, Ermənistan bu dəfə də Azərbaycan vətəndaşlarına qarşı beynəlxalq hüquqa zidd olaraq işgəncələr verərək Azərbaycan əleyhinə ifadələr almağa çalışdı. İki vətəndaşımızın əsirlikdən azad olunması cənab Prezidentin ölkə vətəndaşına diqqət və qayğısının növbəti təzahürüdür. Bu, bir daha göstərir ki, Azərbaycan Prezidenti üçün onun hər bir vətəndaşı olduqca dəyərli və önəmlidir.

Toxunmaq istədiyim digər məsələ son günlər ölkəmizdə qızılca xəstəliyinə yoluxanların sayının artması ilə bağlıdır. Məlum olduğu kimi son günlər ölkəmizdə qızılcadan ölüm hallarının artması müşahidə olunur. Hər gün mediada ölkəmizin müxtəlif bölgələrində bu xəstəlikdən körpələrimizin dünyasını dəyişməsi ilə bağlı müxtəlif məlumatlar alırıq. Təəssüf ki, bu xəstəlik məktəb uşaqları arasında da geniş yayılıb. Düşünürəm ki, aidiyyəti qurumların bu məsələyə daha çevik və adekvat reaksiya verməsinə ehtiyac var. Eyni zamanda, məsələnin səbəbi ciddi araşdırılmalıdır. Bu məsələ ilə bağlı məsuliyyət daşıyanlar müəyyənləşdirilməli və müvafiq addımlar atılmalıdır. Düşünürəm, bu məsələ ilə bağlı aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə müvafiq komissiyaların və qərargahın yaradılmasına ehtiyac var.

Qızılca xəstəliyinin yayılması səbəbindən bağça və məktəblərin bağlanması da, düşünürəm, məsələdən tam çıxış yolu deyil. Onsuz da, Azərbaycan təhsili pandemiyadan sonra hələ tam özünə gəlməyib. Ancaq bütün hallarda məsələyə çevik reaksiya verilməsinə ciddi ehtiyac var. Əks halda vəziyyət daha da ağırlaşa bilər.

* * *

Hesabatda bir çox mühüm məlumatlar əksini tapıb. Dəqiq rəqəmlər qeyd olunub. Azərbaycanda gender bərabərliyi ilə bağlı hansısa problem yoxdur. Şərqdə qadınlara ilk seçim hüququ verən dövlətlərdən biri məhz Azərbaycandır. Bu gün Azərbaycan qadını dövlətimizin diqqət və qayğısı ilə tam əhatə olunub. Bu gün Azərbaycan qadınları həm dövlət, həm də özəl sektorda uğurla və ləyaqətlə təmsil olunur.

Hamımıza məlum olduğu kimi, cəmiyyət ailədən başlayır, ailələr dövlətin kiçik modelidir. Bu mənada, əvvəl də qeyd etdiyim ki, bu gün cəmiyyətdə boşanmaların sayının kəskin artması ailə institutumuz üçün böyük təhdiddir.

Cəmiyyətdə məişət zorakılığının artması da ciddi narahatlıq doğuran məsələlərdən biridir. Hər gün mediada bu məsələ ilə bağlı müxtəlif məlumatlarla tanış oluruq. Digər bir problem erkən nikahla bağlıdır. Hesab edirəm, konkret şəxslər müəyyənləşdirilməli və real addımlar atılmalıdır. Bu gün selektiv abortların artması da ciddi narahatlıq doğuran məsələlərdən biridir.

Digər bir məsələ oğlanlara nisbətən qızların daha da aktiv olmasıdır. Qızların aktivliyi çox önəmlidir. Ancaq bu məsələnin də ciddi araşdırılmasına və müvafiq addımların atılmasına ehtiyac var. Əlbəttə, bu proseslərin qarşısını tamamilə almaq mümkün deyil. Ancaq müəyyən addımlar ata bilərik. Bu mənada, hesab edirəm ki, bu istiqamətdə ciddi addımların atılmasına, geniş maarifləndirmə işlərinin aparılmasına ehtiyac var.

**Əliabbas Salahzadə.** Bu gün müzakirəmizə təqdim edilmiş Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il ərzindəki

fəaliyyətinə dair məlumat kifayət qədər əhatəli tərtib edilmişdir və bu sahə üzrə ötən il ərzində görülmüş işlər barədə dolğun təsəvvürlərin formalaşmasına imkan verir. Diqqətəlayiq haldır ki, hər növbəti il biz hazırlanan və təqdim edilən hesabatların keyfiyyət baxımından müsbət mənada fərqləndiyini görürük. Təqdim olunan məlumatdan da göründüyü kimi, komitə 2022-ci ildə öz fəaliyyətini əsasnamə ilə müəyyən edilmiş istiqamətlər üzrə və iş planına uyğun qurmuşdur. Komitənin fəaliyyəti zamanı müxtəlif dövlət qurumları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birgə çoxsaylı layihələr həyata keçirilmişdir. Məlumatın "Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri" bölməsində gender bərabərliyinin təmin edilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi, institusional mexanizmlərin inkişafına dəstək və gender bərabərliyi mədəniyyətinin təbliği, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində gender bərabərliyinin təminatına dair məlumatların icmalı daxil edilmişdir.

Yeri gəlmişkən, burada dövri olaraq gender bərabərliyi, qadın və uşaq hüquqları sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi və yeni normativ hüquqi aktların qəbul olunması istiqamətində də görülmüş işlər təqdirəlayiqdir ki, bu sahədə biz qanunvericilərin də zəhməti böyükdür. Gender bərabərliyi sahəsində görülən işlərdən ən önəmlisi maarifləndirmə fəaliyyətidir. Çünki burada təkcə hüquqi və inzibati alət və mexanizmlərdən istifadə səmərəli olmur. Başlıca üsul maarifləndirmə, dərketdirmə üsuludur. Buna misal olaraq hər gün daha da geniş şəkildə və kəskin problem kimi təzahür edən erkən nigahlar mə-

sələsini qeyd edə bilərik. Bu problemin həlli təkcə nigaha girən tərəflərdə deyil, həmçinin valideynlər, qohumlar arasında, icmalar daxilində geniş maarifləndirici təbliğat işinin qurulmasını zəruri edir. Biz bu problemin mahiyyətini daha dərindən düşünsək, görərik ki, ölkəmizdə elə icmalar var, burada qız uşaqlarının erkən ərə verilməsi, riayət edilməsi son dərəcə vacib olan adət hesab edilir.

Məlumatda təqdim edilmiş cədvəldən də göründüyü kimi, ölkəmizdə 2022-ci ildə 18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayı 2011 nəfər olmuşdur. Bu rəqəm 2021-ci illə müqayisədə 361 nəfər çoxdur. Ən yüksək göstəricilər Qazax–Tovuz (280 nəfər), Mərkəzi Aran (245 nəfər) və Qarabağ (240 nəfər) iqtisadi rayonları üzrə qeydə alınmışdır ki, bu bizi ciddi şəkildə düşündürməli, bu halların sayının azalması və ortadan qaldırılması istiqamətində yeni alət və mexanizmlər hazırlamalıyıq. Bu mənada "Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin" (UADM) regionlarda fəaliyyətinin davam etdirilməsi təqdirəlayiqdir.

Gender məsələlərindən danışılan zaman daha çox qadın hüquqlarından danışmağın və layihələrdə hədəf qruplar olaraq daha çox qadınların seçilməsi ənənəsini bir qədər dəyişməyin zamanının yetişdiyini düşünürəm. Hesab edirəm ki, burada dairəni bir qədər də genişləndirmək vacibdir. Bu baxımdan ölkəmizdə qadın resurs mərkəzləri şəbəkəsinin genişləndirilməsi və dəstək xətti xidmətlərinin sayının artırılması təqdirəlayiq haldır.

Çıxışımın əvvəlində gender problemlərinin tənzimlənməsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin vacibliyini qeyd etmişdim. Bu doğulan uşaqların cinsi mənsubiyyət baxımından say tərkibindəki nisbətlərini təhlil etsək, doğulan uşaqlar arasında kişi cinsinə mənsub uşaqların əvvəlki illərlə müqayisədə çoxluq təşkil etdiyini

görərik. Bunun başlıca səbəbi selektiv abortlarla bağlıdır. Düşünürəm ki, bu məsələlərə daha ciddi münasibət göstərməliyik. Selektiv abortların həyata keçirilməsi qeyri-insani akt olmaqla yanaşı, həm də cəmiyyətimizin gender bərabərliyi ilə bağlı xoş olmayan durumla üzləşə bilməsi ilə nəticələnə bilər.

Toxunmaq istədiyim digər vacib bir məsələ erməni vandalları, uşaq qatilləri tərəfindən törədilən işgəncə və soyqırımı faktlarının dünyaya tanıdılması və ən vacibi isə bu faktların beynəlxalq insan hüquqları məhkəməsinə çıxarılıb müvafiq qətnamələrin qəbul olunmasına nail olmaqla bağlıdır. Hesab edirəm ki, burada həm dövlət komitəsi, həm parlamentin müvafiq komitəsi, həm Ombudsman Aparatı, həm də vətəndaş cəmiyyətinin nümayəndələri birgə koordinə edilmiş fəaliyyət ortaya qoymalıdırlar. Fikrimcə, belə bir müştərək qurumun yaradılması bu sahədə səmərəliliyi artırmış olardı.

Bu gün rəsmi statistik məlumatlardan çıxış edərək söyləyə bilərik ki, ölkəmizdə elm və təhsilin əksər sahələrində gender bərabərliyinin təminatı prizmasında qadınların sayı kişilərdən artıqdır. Bu nəticədən də çıxış edərək qeyd etmək istərdim ki, kişilərin tədrisin təşkili və elmi fəaliyyətə cəlb edilməsi günün vacib tələbidir. Bu gün ümumtəhsil müəssisələrində təhsil verənlərin içərisində kişilərin azlıq təşkil etməsi ciddi fəsadlara yol açır və gələcəkdə onun fəsadlarını daha dərindən hiss edəcəyik. Elə bu problem gələcəkdə cəmiyyətimizdə ciddi və ortadan qaldırılması olduqca çətin olacaq gender problemləri meydana çıxaracaqdır. Çünki problemin bazasında daha çox oğlan uşaqlarının mübtəla olacağı psixoloji dəyişikliklər duracaq ki, onun da aradan qaldırılması olduqca çətindir. Bu, gələcəkdə ailələrdə tarixi ənənələrə dayanan və

özündə təbii-fizioloji fərqləri əks etdirən ailə modelinə zərbə vuracaq. Ailə başçısı kultuna xələl gələcək ki, bu da ailələrin dağılması ilə nəticələnəcək. Bir sözlə, biz oğlan şagirdlərin daha çox qadın təhsilverənlərlə ünsiyyətdən meydana çıxan qadınlaşma prosesinin qarşısını almalıyıq. Buna görə də kişilərin tədris prosesinə və elmə cəlb edilməsi məqsədi ilə iqtisadi cəhətdən ciddi əsaslandırılmış təşviqedici tədbirlər həyata keçirilməlidir. Hesab edirəm ki, təqdim edilən məlumat yetərincə peşəkarcasına hazırlanmışdır.

**İltizam Yusifov.** Mövcud qanunvericiliyə uyğun olaraq, Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanı – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il üzrə öz fəaliyyəti haqqında Milli Məclisə təqdim etdiyi məlumatı məqbul sayıram. Lakin qısa olaraq erkən nikahlarla bağlı məsələyə toxunacağam. Mən hesab edirəm ki, ümumiyyətlə, erkən nikahlar bizim ölkəmizdə, xüsusilə də müasir dövrdə yolverilməzdir. Azərbaycan dövləti müasir, Azərbaycan cəmiyyəti isə açıq bir cəmiyyətdir. Gənclərimizin özlərini tapmaları, sübut etmələri üçün ölkəmizdə bütün şərait yaradılıb. Bizim gənclər oxumalı, savadlı olmalı, yaratmalı, karyera qurmalı və dünyanı fəth eləməlidirlər. Bu, həm kişilərə, həm də qadınlara aiddir.

Bəli, bu gün ölkədə gender bərabərliyi də təmin olunur. Qadınlarımız kişilərlə bərabər istədiyi yerdə təhsil ala, işləyə bilir. Düzdür, burada müəyyən problemlər, çatışmazlıqlar da mövcuddur. Bu da bizim müəyyən mental dəyərlərimizin müasir dünyada gedən proseslər, yaranan parametrlərlə hansısa məqamda düz gəlməməsi, uzlaşa bilməməsi və bir də kişi cinsinin qarşı tərəfə Şərq mental baxışlarının müəyyən formatda hələ də dəyişməməsindən

irəli gəlir. "Qız kəkil çıxardı, ver, getsin" ifadəsi artıq müasir dünyada keçərli deyil və qız ailədə yük kimi görülməməlidir. Yaxud qız uşağını hər hansı bir ailə dəyərlərini dərk etməyən bir gəncə ərə verəndə valideynin əllərini yuxarı qaldıraraq "Şükür Allaha, yük üstümdən götürüldü" deməsi və sair kimi baxışlar məhz bu sahədə problemlərin yaranmasına birbaşa təsir edir.

Bəziləri qız uşaqlarının erkən ərə verilməsini pis vərdişlərdən uzaq olmaq, sığortalanmaq üçün lazım olduğunu deyirlər. Pis vərdiş dediyiniz nədir? Bu gün ölkəmizdə rəsmi boşanmalar 40 faizdən çoxdur. Təəssüf ki, son zamanlarda ailə institutu artıq çat verib, vəziyyəti yaxşı deyil. Onda sual olunur: Boşanmadan sonra bu ailələri kim və necə saxlayacaq? Dağılan ailədə də daha böyük problem olur, çünki ortada uşaq olur. Yəni müasir gənclik ailə qurmazdan əvvəl bu məsuliyyəti dərk etməli, ailənin gələcək yaşamına zəmanət verməli və hər iki tərəf gələcəkdə hətta onlardan asılı olmayan fors-major hallarına hazır olmalıdırlar. Məsuliyyət iki gənc arasında bir-birinə olan sevgi, hörmət ilə bitməməlidir. İki gəncin arasında olan məsuliyyət onlara aiddir. Amma ailədə uşaq olan təqdirdə onların cəmiyyət qarşısında daha böyük məsuliyyətləri yaranır.

"Elimin toy kimi adəti var" ifadəsi də bugünkü "toy biznesi" fonunda milli dəyər kimi aktuallığını çoxdan itirib. Bəziləri toyu pulun, varın çoxluğundan, reklam üçün, cəmiyyətə özünü sübut etdirəcək səviyyədə təqdim etməsi üçün, bəziləri isə uzun illər "yatırım" kimi qoruduqları toy dəftərinə uyğun olaraq borcların qaytarılması üçün edirlər. Təəssüf ki, cəmiyyətimizdə toya yatırım və ya gəlir mənbəyi kimi baxanlar hələ də çoxdur. Balanın toyunu görmək və ya kiminsə toyda əhd etdiyi üçün sındıra-sındıra oynamağı

müasir dövrdə ailə qurmaq üçün yetərli dəlil deyil.

Mən də təklif edirəm ki, bu sahədə qanunvericilik tələbləri daha da sərtləşdirilməli, Cinayət Məcəlləsində erkən nikahlarla bağlı, erkən nikaha məcburetmədə valideynlərin məsuliyyəti daha da artırılmalı və nikaha girən hər iki tərəf müqabilinin də məsuliyyətə cəlb edilməsi qanunvericilikdə əksini tapmalıdır.

**Kamran Bayramov.** Dekabrın 7-də möhtərəm cənab Prezident Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Sərəncam imzaladı. Dekabrın 15-də isə Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin genişləndirilmiş iclasında 2024-cü il fevral ayının 7-nə təyin edilmiş bu seçkilərə partiyamızın sədri, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin namizədliyi irəli sürüldü.

2003-cü ildə Prezident seçildikdən sonra cənab İlham Əliyev həll olunmasını vəd etdiyi ən mühüm vəzifəni yerinə yetirdi – Qarabağı işğaldan azad etdi, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və konstitusiya quruluşunun bərpası məqsədi ilə qərəzli beynəlxalq təzyiqlərə rəğmən, qətiyyətli və cəsarətli addımlar atdı, onun siyasi iradəsi və uzaqgörənliyi, regionda və dünyada baş verə biləcək proseslərin inkişafını öncədən təxmin etmək və dəyərləndirmək qabiliyyəti tarixi Zəfərimizi möhkəmlətdi, Azərbaycana misli görünməmiş şöhrət qazandırdı, dünyada ölkəmizə olan etimadı və etibarı daha da artırdı.

Etiraf etmək lazımdır ki, cənab İlham Əliyevin Qarabağın azad edilməsinə, torpaqlarımızda aqressiv separatizmin kökünün kəsilməsinə, Azərbaycanın iqtisadi inkişafının təmin edilməsinə, regionda və dünyada nüfuzunun artmasına, xalqımızın rifahının yüksəldilməsinə köklənmiş 20 illik fəaliyyətinin nəticələri həm Cənubi Qafqazda, həm

də Azərbaycanda reallıqları dəyişib, qarşımızda yeni üfüqlər və fürsətlər açıb, yeni bir siyasi başlanğıc üçün zəmin yaradıb. Seçkilərlə bağlı qərar da məhz bu zərurətdən irəli gəlir.

Cənab İlham Əliyev sayəsində bu gün Azərbaycan xalqı qələbə hissini yaşamaqdadır, çoxdan gözlədiyi ədalətin təntənəsini tam hiss etməkdədir, Azərbaycanın daxilində, regionda və dünyada qazandığı uğurların canlı şahidi olmaqdadır və yeni qələbələr, yeni zirvələr gözləməkdədir. Məhz bu gözləntilərin reallaşdırılması üçün Azərbaycan vətəndaşları fevralın 7-də, həmişə olduğu kimi, öz müdrik seçimini edəcək, həmin seçimlə müasir Azərbaycan tarixində yeni səhifə açacaq, qarşıda duran milli hədəflərimizin reallaşdırılmasını təmin edəcəklər.

**Malik Həsənov.** Bu gün ölkəmizin diplomatik uğurları və beynəlxalq nüfuzu yüksələn xətlə artmaqdadır. Vətən müharibəsində, həmçinin lokal antiterror əməliyyatlarında əldə etdiyimiz qələbə və suveren hüquqlarımızın bütün ölkə hüdudları daxilində təmin edilməsi diplomatik təmaslarda "əlimizi möhkəmlədən" başlıca amillərdəndir. Təbiidir ki, əldə olunan bütün bu nailiyyətlər onun əsas memarı möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Əminliklə deyə bilərik ki, fevral ayının 7-də keçiriləcək növbədənkənar Prezident seçkilərində hər bir Azərbaycan vətəndaşı İlham Əliyevin növbəti dövrdə Azərbaycana rəhbərlik etməsinə səs verəcəkdir.

Dövlət başçısının dekabrın 10-da Serbiya Respublikasına səfər etməsi və Niş şəhərində Serbiya–Bolqarıstan qaz interkorrektorunun açılış mərasimində iştirak etməsi ölkəmizin dünya miqyaslı layihələrdə iştirakının növbəti təzahürlərindən biridir.

Bu gün ölkəmiz Avropaya 12 milyard kubmetrə qədər qazı ixrac edir. Bu da ümumi qaz ixracının 50 faizini

təşkil edir. Artıq alternativ enerji mənbələri axtaran Avropa dövlətləri ilk ixracatçı və etibarlı tərəfdaş kimi ölkəmizi seçir və müraciət edir. Ölkəmiz bir daha sübut etdi ki, istənilən razılaşmalara sadiqdir və onların icrası üçün lazımi səylərini əsirgəmir. Bolqarıstan Prezidenti cənab Rumen Radev çıxışında təsadüfi olaraq möhtərəm Prezidentimizə təşəkkürünü bildirməmiş və qeyd etmişdir ki, İlham Əliyev Bakının bütün anlaşma və razılıqlara ciddi yanaşdığını sübut etdi.

Bu gün əsas iqtisadi hədəflərimizdən biri bərpa olunan enerjinin yaradılması, ondan həm daxili ehtiyaclarımızı ödəmək üçün, həm də ixrac məqsədli istifadədir. Bu baxımdan işğaldan azad olunmuş ərazilərin resurs imkanları olduqca genişdir və artıq bir sıra layihələrin icrasına başlanılmış, xarici investorlarla sazişlər və anlaşma memorandumları imzalanmışdır. İmzalanmış bu sənədlər nəticəsində həyata keçiriləcək layihələrin icrasının nəticəsi olaraq 10 qiqavat bərpa olunan enerji növləri yaradılacaqdır. Eyni zamanda, "yaşıl enerji" istehsalının təmini və bu istiqamətdə uğurların əldə edilməsi ölkəmizin ixrac imkanlarını genişləndirə bilər. Belə ki, gələcəkdə ölkəmizdə bərpa olunan və "yaşıl enerji"dən alınan gücləri daxili ehtiyaclarımızı ödəmək məqsədi ilə nefti və qazı daha böyük həcmlərdə ixraca yönəldə bilərik və bu da dövlət büdcəmizə əlavə vəsaitlərin daxil olması deməkdir.

Möhtərəm Prezidentimizin siyasətinin nəticəsi olaraq nəqliyyat xərclərinin və kommunikasiya xətlərinin uğurlu diversifikasiyasına artıq nail ola bilmişik və Niş şəhərində interkonnektorun açılması ilə Azərbaycan qazı artıq Bolqarıstana da ixrac ediləcəkdir. Bu da Balkanlarda və ümumiyyətlə, Aralıq dənizi hövzəsində ölkəmizin tərəfdaşlarının sayını artırmağa, iqtisadi baxımdan əlavə gəlir

əldə etməyə və nəhayət, beynəlxalq aləmdə ölkəmizin siyasi nüfuzunun artırılmasına kömək edəcəkdir.

Toxunmaq istədiyim digər bir məqam Milli Məclisin Azərbaycanın beynəlxalq əlaqələrinin qurulmasındakı fəaliyyəti ilə bağlıdır. Bunu da söyləmək istərdim ki, əvvəlki dövrlərə nisbətən bu çağırışdakı fəaliyyət beynəlxalq əlaqələrin qurulması və inkişafı baxımından seçilir. Bu mənada hörmətli Sahibə xanımın fəaliyyətini xüsusilə qeyd etmək lazımdır, onun Almaniyaya və sonuncu dəfə – bir neçə gün öncə Mərakeşə səfərləri olduqca məhsuldar olmuşdur. Hesab edirəm ki, bu fəaliyyətlər daha da dərinləşdirilməli, ölkəmizin beynəlxalq əlaqələrinin genişləndirilməsində parlamentimiz geniş şəkildə iştirak etməlidir.

* * *

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2022-ci il ərzindəki fəaliyyətinə dair məlumatı kifayət qədər dolğun hazırlanmışdır, cəmiyyət həyatının vacib sahələrindən olan gender problemlərini, mövcud problemlərin həllinə dövlətimizin yanaşmasını, bu problemlərin həlli üçün görülmüş işləri, təşkil edilmiş maarifçilik fəaliyyətini izləməyə imkan verir. Təqdimat geniş, əhatəli, informasiya tutumludur.

Məlumat tərtib edilən zaman 2021-ci ildən fərqli olaraq yerli icra hakimiyyəti orqanlarının məlumatlarından istifadə edilməsi, qanunun 15-ci maddəsinə əsasən iqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatlarının həyata keçirilməsinə dair yeni hissələrin əlavə edilməsi, əlilliyi olan şəxslərin gender təhlilinin verilməsi, bank sektorunda çalışan işçilərin və bank məhsullarından istifadə edən şəxslərin gender bölgüsünün, banklar tərəfindən

gender bərabərliyinin təminatı istiqamətində həyata keçirilmiş tədbirlər haqqında məlumatların daxil edilməsi və sair onun məzmunu baxımından zənginləşdirən məqamlardan olmaqla, yeni metodoloji yanaşma hesab oluna bilər.

Bələdiyyələrdə Gender komissiyalarının fəaliyyət göstərməsi ölkəmizdə gender problemləri ilə bağlı sistemli və əlaqələndirilmiş işin aparılması baxımından önəmli və təqdirəlayiqdir. Bu baxımdan gender mədəniyyətinin təbliği işlərinin genişləndirilməsi də müsbət dəyərləndirilməlidir.

İl ərzində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 154-cü (bərabərlik hüququnu pozma) və 164-cü (hamilə qadının və ya himayəsində üç yaşınadək uşağı olan qadının, üç yaşınadək uşağını təkbaşına böyüdən kişinin əmək hüquqlarını pozma) maddəsi ilə cinayət qeydə alınmaması, deyərdim ki, həyata keçirilmiş inzibati və maarifləndirici tədbirlərin nəticəsidir.

Hesab edirəm ki, təqdim edilən məlumat yetərincə peşəkarcasına hazırlanmışdır.

**Sevil Mikayılova.** Azərbaycanın ictimai-siyasi həyatında növbəti tarixi hadisənin astanasındayıq. 2024-cü il fevralın 7-də ölkəmizdə növbədənkənar Prezident seçkiləri keçiriləcək. Budəfəki seçkiləri digərlərindən fərqləndirməyimiz və tarixi hadisə kimi səciyyələndirməyimiz üçün bir sıra müstəsna şərtlər var. Bu növbədənkənar Prezident seçkiləri Azərbaycanın yeni tarixində yeni dönəmin başlanğıcı olacaq. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. Ərazi bütövlüyünü və suverenliyini tam və qəti bərpa etmiş Azərbaycan Respublikası yeni siyasi dönəmə daxil olub və mövcud reallıqların fonunda seçkilərin keçirilməsi güclü və qüdrətli ölkə olaraq dövlətimizin yeni tarixi dönəmə qədəm qoyduğunu təsbit edir.

Prezident İlham Əliyev xalq arasında güclü nüfuz sahibidir. 20 illik hakimiyyəti dövründə Azərbaycanın mövqeyini həm daxildə, həm də xaricdə gücləndirən fəaliyyəti ilə xalqın etimadını və inamını qazanan siyasi liderin yenidən Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Sərəncamını labüd edən səbəblər hazırda ən çox müzakirə olunan mövzudur. Bütün sivil cəmiyyətlər öz maraqları, baxışları və tutduqları ideoloji xəttə görə müxtəlif siyasi cərəyanlara bölünür və qruplaşırlar. Cəmiyyətdə siyasi fikir və düşüncə azadlığının olması fundamental insan haqlarının tərkib hissəsidir.

Siyasi partiyaların seçki prosesinin bütün mərhələlərində aktiv iştirakının təmin edilməsi dövlət siyasətinin prioritet istiqamətidir. Azərbaycanın seçki qanunvericiliyi kifayət qədər mükəmməldir, “Siyasi partiyalar haqqında” yeni qəbul olunmuş Qanun isə ölkənin siyasi sisteminin sağlamlaşdırılması və səmərəliliyinin artırılması üçün lazımi hüquqi baza formalaşdırıb. Mövcud rəqabət mühitində sivil prinsiplərə söykənən seçki mədəniyyətini nümayiş etdirməklə iştirakçılığını təmin etmək öz siyasi gücünə inanan hər bir siyasi partiya və ya hərəkatın öz məsuliyyəti olacaq.

Azərbaycan dövlətinin yeni müstəqillik tarixində 1991-ci ildən təşəkkül tapmış seçki ənənəsi inkişaf edərək ildən-ilə daha da təkmilləşib və seçki mədəniyyətini formalaşdırıb. 2024-cü il növbədənkənar Prezident seçkiləri xalqımızın ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, Azərbaycan dövlətinin yeni respublika epoxasına daxil olması kimi mühüm tarixi prosesə start verəcək. Əminik ki, vətəndaşlarımız da illər ərzində formalaşan seçki mədəniyyətinə uyğun olaraq, bu seçkilərdə də aktiv iştirak edəcək, Azərbaycanın gələcəyini formalaşdıracaq bu tarixi

hadisədə öz mövqelərini bildirəcəklər.

***22 dekabr 2023-cü il***

**Bəhruz Məhərrəmov.** Azərbaycanın çoxəsrlik şərəfli dövlətçilik tarixi fonunda son 200 ildə məqsədli formada feodal təfəkkürlü və aşırı xurafatçı bir tatar obrazı formalaşdırılmışdı. Bu obrazı Axundovun və Zərdabinin timsalında nə ziyalılar dəyişə bilmədi, nə cümhuriyyətçilər, nə də Heydər Əliyevə qədərki kommunist rəhbərlər. Yalnız Ulu Öndər bu gedişata son qoyub Azərbaycanda müasir dövlətçilik ənənələrini formalaşdıra bildi. Onun layiqli varisi cənab İlham Əliyev isə bu kursu yeni mərhələyə daşıyıb Azərbaycanı qalib hərbi, siyasi və iqtisadi gücə çevirdi. Hazırda isə İlham Əliyev şəxsiyyətinin yalnız Azərbaycan üçün deyil, bütövlükdə, region üçün önəminə şahidlik edirik.

Sirr deyil ki, Qərb neoimperializmi əvvəlcə Azərbaycan–Ermənistan münaqişəsi fonunda, daha sonra isə separatizmin dəstəklənməsi ilə Cənubi Qafqazı da Ukrayna kimi qütblərarası qarşıdurmanın bataqlığına çevirməyi planlayırdı.

İsrail kimi qüdrətli dövlətin mövcudiyyətinə baxmayaraq, Yaxın Şərqi qütblərin savaş meydanına çevirə bilənlər Azərbaycan lideri qarşısında aciz qalmalı oldular. Məhz cənab İlham Əliyevin personası sayəsində bu gün bölgəmizdə nə münaqişə var, nə də separatizm. Azərbaycan Prezidentinin qətiyyəti ilə 35 il regionun düyün nöqtəsi olmuş Xankəndi Qərbin planladığı qanlı qarşıdurmalara deyil, idman mübarizəsinə evsahibliyi edir. Bu mənada, əslində, cənab İlham Əliyev dünən Xankəndidə imperializ-

min döyüş toplarını futbol topuna çevirib Qərbin qapısına vurdu.

Ən azı elə buna görə, Qafqazı tarixin ən qanlı müharibəsindən, qütblərin tapdağı olmaqdan xilas etdiyinə görə bu bölgənin hər bir sakini, hər bir gürcü, hər bir erməni, hər bir azərbaycanlı və Şimali Qafqazın hər bir etnosu cənab İlham Əliyevə minnətdar olmalıdır.

Bu gün biz qələbədən danışırıq, 3 il əvvəl isə qələbə barədə ən yaxşı halda düşünə və arzu edə bilərdik. 3 ay əvvəl Xankəndiyə hətta humanitar yükləri belə göndərmək mümkün deyildi, bu gün isə cənab İlham Əliyevin ucaltdığı Azərbaycan Bayrağı altında şəhid övladları Mehriban xanım Əliyevaya sarılıb idman yarışına tamaşa edir. O şəhidin ruhu Sizdən razıdır, cənab Prezident.

Sayənizdə artıq gülllədən, qəlpədən uşaqlar ölmür, Xocalıda qadını əsir düşdüyü halda kişilərin tribunalarda özünə "bəy" dedirtdiyi saxta bəylik dövrləri arxada qalıb. Rəhbərliyiniz altında qələbə qazanaraq artıq özünə "bəy" deməyə haqqı çatan nəsillər yetişib.

Yeni və qüdrətli Azərbaycan var. Azərbaycan xalqı da gözəl bilir ki, qələbənin, inkişafın, təhlükəsizliyin və ən əsası, Azərbaycanın qüdrətinin qarantı şəxsən Sizsiniz!

Doğum gününüz mübarək olsun, müzəffər lider!

Tanrı Heydər Əliyev kursunu əbədi etsin!

**Ceyhun Məmmədov.** Dekabrın 21-də Prezident İlham Əliyev növbəti dəfə Qarabağa səfər etdi. İlk dəfə deyil ki, Prezident İlham Əliyev öz doğum günü ərəfəsində Qarabağa və işğaldan azad olunmuş ərazilərə səfər edir və ad gününü orada qeyd edir.

Səfər çərçivəsində Prezident Şuşada həyata keçirilən bərpa və quruculuq işləri ilə yaxından tanış oldu, Aşağı Gövhər Ağa və Daşaltı məscidlərində həyata keçirilən

tikinti, təmir və bərpa işləri ilə də maraqlandı.

Bu gün təkcə Şuşada deyil, işğaldan azad olunmuş bütün ərazilərdə yeni məscidlərin inşasına, erməni vəhşiliyinə məruz qalmış məscidlərimizin və digər tarixi abidələrimizin bərpasına Prezident İlham Əliyev xüsusi həssaslıqla yanaşır. Heç şübhəsiz ki, tezliklə ermənilərin donuz və inək saxladıqları məscidlərimiz Prezident İlham Əliyevin bilavasitə diqqət və qayğısı ilə yenidən möminlərin üzünə açılacaq və bu ocaqlar yenidən öz tarixi missiyalarını oynamağa başlayacaqdır.

Bütün bunlar bir daha onu göstərir ki, cənab Prezident işğaldan azad olunmuş ərazilərdə dini ibadət ocaqlarının və tarixi məkanların bərpa olunmasına xüsusi diqqət və qayğı ilə yanaşır.

Prezident, eyni zamanda, Xankəndi şəhərinə də tarixi səfər etdi, orada Azərbaycan komandalarının futbol oyununu izlədi, həm Azərbaycan xalqına, həm də Ermənistana bir sıra mühüm mesajlar verdi. Bu, təkcə sıradan bir futbol oyunu deyildi. Bu, həm də Azərbaycanın qələbəsinin təntənəsi, Ermənistanın və onun havadarlarının qapısına vurulmuş növbəti toplardan biri idi.

Azərbaycan xalqı uzun illər Qarabağın və Şərqi Zəngəzurun azad olunması arzusu ilə yaşadı. Səbirsizliklə bu günü gözlədi. Prezident bu oyun zamanı yenə şəhid ailələrini unutmadı, onların övladlarına xüsusi diqqət və qayğı ilə yanaşdı. Hər biri ilə ayrı-ayrılıqda maraqlandı, şəkil çəkdirdi.

Prezident İlham Əliyevi doğum günü və möhtəşəm qələbələr günü münasibəti ilə səmimi qəlbdən təbrik edirik. Əminik ki, Prezidentin rəhbərliyi ilə Azərbaycanı hələ bir çox qələbələr gözləyir.

**Fatma Yıldırım.** Dünən biz növbəti bir tarixi gün

yaşadıq, hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə dolduran, bizlərə sonsuz qürur yaşadan tarixi anlara şahidlik etdik. Uzun illərdən sonra ilk dəfədir ki, işğaldan azad edilmiş ərazilərimizdə, Xankəndi şəhər futbol meydançasında milli futbol oyunu keçirildi, "Qarabağ" öz rəqibini qəbul etdi. Bu hadisənin digər amillərlə yanaşı, böyük mənəvi əhəmiyyəti var.

Futbol oyununu izləyənlər sırasında Prezidentimiz cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olması bu hadisənin böyük tarixi, mənəvi əhəmiyyətini bir daha təsdiqləyir. Eyni zamanda, Xankəndi futbol meydançasında keçirilmiş oyunda qəhrəman şəhidlərimizin uşaqları və ailə üzvlərinin də iştirak etməsini xüsusi vurğulamalıyıq. Bu, vətənimizin bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin ruhuna ehtiramın nümunəsidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev strateji düşüncə və yanaşmaları, Qarabağ siyasətində qətiyyəti və ardıcıllığı, tələsmədən və gecikmədən bütün bu oyun ssenarilərini pozmağa nail oldu. 2020-ci ildə 44 gün ərzində aparılan ədalətli müharibədə Silahlı Qüvvələrimizin rəşadəti ilə qazanılan şanlı qələbə sayəsində torpaqlarımızın böyük hissəsi hərbi-siyasi yolla işğaldan azad edildi. Qalib ordumuz 2023-cü il sentyabr ayının 19-20-də keçirdiyi lokal antiterror tədbirini uğurla başa çatdırmaqla, siyasi oyunbazlığın tabutuna son mismarları vurdu. Artıq bütün Qarabağda suverenliyimiz tam təmin olunub və bu yerlərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Qarabağ üzərindən oynanılan siyasi oyunbazlığın sonunu gətirən Azərbaycan burada ilk futbol yarışı təşkil etdi. 30 ildən sonra bu tarixi oyunda topa ilk zərbəni də qalib liderin vurması dünyaya daha bir mesajdır – məkrli oyun bitib, Qarabağda sülh, əmin-amanlıq simvolu olan

idman oyunları başlayır! Oyunun nəticəsinə, hansı komandanın məğlub və ya qalib olduğuna diqqət çəkməyəcəyik. Bütün hallarda qalib Azərbaycan dövləti və xalqıdır! Buna görə möhtərəm cənab Prezidentə bir daha dərin təşəkkürümü bildirirəm və qarşıdan gələn doğum günü münasibəti ilə tarixi şəxsiyyət olan cənab İlham Əliyevi ürəkdən təbrik edirəm, can sağlığı, uzun ömür və uğurlar arzu edirəm.

Hörmətli həmkarlar, bütün dünya azərbaycanlıları bu tarixi hadisə ilə qürur duyur. Bu gün Azərbaycanın, o cümlədən doğma Qarabağın bütün guşələrində üçrəngli bayrağımızın qürurla dalğalanmasından sonsuz iftixar hissi keçiririk.

**Pərvin Kərimzadə.** Dünən xalqımız, eləcə də dünya ictimaiyyəti növbəti dəfə möhtəşəm tarixi hadisəyə şahidlik etdi. Xankəndi futbol meydançasında futbol üzrə Azərbaycan kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları qarşılaşdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban xanım Əliyeva oyunu şəhid övladları ilə birlikdə izlədilər. Cənab Prezidentin çıxışı, topa ilk toxunuşu, azarkeşlərin üzündəki sevinc və fəxarət hissləri sanki bir möcüzə idi. Əslində isə, nəyi, nə zaman, necə etməyi bilən güclü liderin qətiyyətli siyasəti, qalib ordumuzun qəhrəmanlığı, xalqımızın milli birliyi sayəsində biz belə möhtəşəm tarixi hadisələrin şahidi oluruq. Biz qayıtdıq, özü də necə qayıtdıq! Qalib və qurucu xalq kimi! Cənab Prezidentin dünən vurğuladığı kimi: "Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq".

Müasir tariximizin ən parlaq səhifəsini Azərbaycanın

ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması təşkil edir. Bu, Zəfər salnaməsi, Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir. Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, rasional, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən strateji kursun məntiqi nəticəsidir. Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, qlobal arenada siyasi nüfuzunun və çəkisinin artması, beynəlxalq mövqeyinin möhkəmlənməsi, milli həmrəyliyin, xalq–lider birliyinin təmin olunması ərazi bütövlüyümüzün bərpasında, tarixi qələbənin qazanılmasında həlledici amil olub.

Dünyanın hərb və siyasət tarixində xüsusi yer tutan, xalqımızın şanlı qəhrəmanlıq dastanı və Zəfər simvoluna çevrilən 44 günlük Vətən müharibəsi, Qarabağda erməni separatizminin kökünün kəsilməsi  təkcə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpasını deyil, eyni zamanda, həm Cənubi Qafqaz regionunda, həm də Avrasiyada yeni geostrateji reallıqların yaranmasına səbəb olub. Ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə olmaqla yanaşı, Azərbaycanın qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpası regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir.

Dünən Xankəndi futbol meydançasında keçirilən oyunda “Qarabağ” komandası qalib gəldi. Amma, əslində, cənab Prezidentin vurğuladığı kimi: “Oyunun nəticələrindən

asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda “Qarabağ” və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması, təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ–ordu–xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir”.

Hörmətli xanım sədr, Sizin cənab Prezidentin doğum günü ilə bağlı səsləndirdiyiniz fikirlərə qoşuluram. Bu gün Azərbaycan xalqının sözü imzası qədər dəyərli olan güclü lideri, verdiyi bütün vədlərə sadiq qalan qətiyyətli rəhbəri, nəyi, nə zaman, necə etməyi bilən qalib sərkərdəsi var.

**Sadiq Qurbanov.** Azərbaycan xalqı öz tarixinin ən qürurverici dövrünü yaşayır. Bu tarixi dönəm Azərbaycan siyasi palitrasının əfsanəsi Ulu Öndər Heydər Əliyev epoxası və onun ən uğurlu siyasi varisi müzəffər Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Müasir Azərbaycan tarixinin keyfiyyətcə yeni dövrü bir sıra səciyyəvi xüsusiyyətlərinə görə fərqlənir. Azərbaycan xalqının qəlbində bir nisgilə çevrilmiş məğlubiyyət sindromunun dağıdılması bizim ən böyük qələbəmizdir. İlham Əliyev Azərbaycan tarixinin girdiyi bütün döyüşlərdən qələbə ilə çıxan rəhbəri kimi tarixi səciyyə daşıyır. İlham Əliyev diplomatiyası analoqsuz diplomatiyadır. Təsadüfi deyil ki, dünyanın siyasi mərkəzləri cənab Prezidentin çıxışlarını təhlil edərkən onu imzasına sadiq bir rəhbər kimi xarakterizə edir. Dünya siyasi səhnəsində nüfuz sahibi olan liderlərin cənab Prezident haqqında söylədiyi fikirlərə diqqət edək.

Türkiyə Prezidenti R.T.Ərdoğan cənab İlham Əliyevin davam edən inkişafla Azərbaycanı bölgədə cazibə mərkəzinə çevirdiyini söyləyir. Türkiyə lideri, eyni zamanda, bildirir: “Qardaşım, Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə, inşallah, iki ölkənin dostluğunu, əməkdaş-

lığını hər sahədə zirvələrə daşıyacağıq. Rəbbim yolumuzu və qismətimizi açıq etsin”.

Budur, Azərbaycan və türk xalqlarının iradəsini, sevgisini ifadə edən iki böyük liderin qardaş xalqlar arasında yaratdığı sarsılmaz birlik. Bu birlik bu iki liderin sayəsində, bütövlükdə, türk dünyasına sirayət etməklə türk xalqlarının ən böyük arzusu olan Turançılıq ideyasını gerçəkləşdirəcəkdir. Türk xalqlarının yeni inkişaf strategiyasının yol xəritəsi  məhz bu iki liderin siyasi iradəsi nəticəsində aydın gələcəyə istiqamətlənib.

Azərbaycanın Prezidenti İlham Əliyev Avropanın enerji təchizatında müstəsna rol oynayan siyasi liderdir. Təsadüfi deyil ki, Serbiya Prezidenti Aleksandr Vuçiç milyonların gözü qarşısında böyük pafosla bu sözləri deyir: “Dostumuz İlham Əliyevin iştirakı olmasaydı, bizim hər birimiz üçün qaz, eləcə də elektrik enerjisi təchizatının şaxələndirilməsinə ümid etmək asan olmazdı. Əziz dostum, görürəm ki, indi Siz Avropada çox məşhurlaşmısınız. Mən Sizinlə əlaqə saxlamaq istəyirəm. Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada bilmirəm, o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim”.

İlham Əliyevin bütün qayəsi yalnız və yalnız Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması və müstəqil dövlət kimi öz siyasətini həyata keçirməsidir.  O, özü bu barədə deyir: “Dünyada müstəqil sayılan ölkələr çoxdur. Ancaq əgər biz bir az dərinə baxsaq, görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir... O ölkələr dünyada özünə layiq yeri tutar ki, o ölkələr öz hesabına yaşaya bilsinlər, başqa ölkələrin yardımına onların ehtiyacı olmasın – nə siyasi, nə iqtisadi cəhətdən, nə də ölkələrin ehtiyaclarının ödənilməsi baxı-

mından. Azərbaycan bu ölkələrdəndir”.

Hazırda gündəlik qayğımıza çevrilən Qərbi Azərbaycana qayıdışla bağlı siyasi konsepsiya İlham Əliyevin Qafqazın şəriksiz lideri olduğunu göstərməklə, onun siyasi iradəsi ilə doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın öz yerlərinə qayıdacağına olan inamı artırır.

Bu günlərdə Qarabağımızın dilbər guşəsi olan Xankəndidə keçirilmiş hərbi paraddan sonra orada futbol yarışının keçirilməsi İlham Əliyevin siyasət meydanının ən böyük oyunçusu olduğunun simvoluna çevrildi.

İlham Əliyevin Qafqazda sülhün və sabitliyin bərqərar olması naminə yeritdiyi qətiyyətli siyasət onu dünya siyasətinin əsas liderlərindən birinə çevirir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun İlham Əliyev kimi şəriksiz lideri var.

**Sahib Alıyev.** Azərbaycan Prezidentinin də vurğuladığı kimi, Qarabağ xanının saldırdığı, bizim mütəxəssislərin öz pulumuzla çağdaş şəhərə çevirdikləri Xankəndidə dünən keçirilən futbol yarışına sosial şəbəkənin hay seqmentindəki qəzəbli reaksiya ilə bağlı bir neçə kəlmə demək istəyirəm. Reaksiyalarından görünür ki, böyük bir hissəsi xəstələndirilmiş toplumun sağalmasına hələ çox var. Onlar fərqində deyillər ki, bir zamanlar dələduz Vardanyanın qarşısında duraraq bəlağətli nitq söylədiyi o qədim çinarın yanındakı su mənbəsinin adı “Astvats” yox, Tanrı bulağıdır. Bir gün Tanrının sevimlisi olan o yerlərin əsl yiyəsi gəlib həmin çinara salam verməliydi, necə ki, verdi. Anlamırlar ki, həm də Zəngilan meşəsində məhv etdikləri o cür çinarların ahına tuş gəliblər.

Yəqin haçansa anlayacaqlar ki, biz də onların etdiklərini edə, başqasının torpağını ələ keçirə, dinc adamları qırıb-çata, soyqırımı törədə, etnik təmizləmə apara bilərdik. Amma etmədik, o cür rəzillikləri edə də bilməzdik, çünki

biz azərbaycanlıyıq. Biz basdığını kəsənlərdən deyilik.

Xankəndi futbol meydançasındakı dünənki matç isə o demək idi ki, orada ancaq futbol oynanılacaq, başqa idman yarışları keçiriləcək, 30 il boyu oynanılan oyunlara isə əbədi son qoyulub.

Bilirsiniz, dünən Xankəndidə yaşananlara qəzəb püskürənlərdən bizim fərqimiz həm də ondadır ki, millət olaraq sözün hər anlamında öz yerimizdəyik. Millət olaraq da, fərd olaraq da öz yerində olmaqdan böyük xoşbəxtlik varmı? Fərddən söz düşmüşkən, heç kimə sirr deyil ki, bu gün dünyada cənab İlham Əliyev kimi öz yerində olan liderlər bir əlin barmaqlarıyla sayılacaq qədər azdır. Ona görə də onun "Mən xoşbəxt adamam", – deməyə tam haqqı var. Amma bir liderin yerində olmağı onun özündən də çox elə xalqının xoşbəxtliyidir.

Dünən mənim xalqım o xoşbəxtliyi yaşayırdı. Dünən dünya futbol tarixində ilk yarış idi ki, hər iki komanda ayaqları topa dəyməmişdən oyunu udmuşdular. O oyunu onlara udduran, həmin meydanda topa ilk zərbə vuran müzəffər Ali Baş Komandanımız idi. Dünənki oyun, onun ayaqda Fransa olmaqla bir neçəsinin qapısından keçirdiyi qolun, özünün də qeyd etdiyi kimi, Azərbaycan xalqının qazandığı Zəfərinin, sadəcə, meydanda sərgilənməsi idi. Həmin Zəfərin əldə edilməsində müstəsna xidməti olan şəxs heç təsadüfi deyil ki, o oyunu bu yolda canından keçən şəhid yadigarları və doğmalarıyla birgə izləyirdi.

Əminəm ki, dünənki mənzərəni görən şəhidlərimizin ruhları Xankəndidə hərbi parad keçirilən gündəkindən də artıq sevinirdi. Qoy ruhları həmişə şad, ruhlarını şad edən liderimiz isə var olsun!

# MÜNDƏRİCAT

19 dekabr 2023-cü il ............................................................ 3
22 dekabr 2023-cü il ............................................................ 146
Edilməmiş çıxışların mətnləri............................................... 225

Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

On dördüncü sessiya
Payız

58-ci cild

19 – 22 dekabr 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  15,0. Sifariş 49. Tiraj 150.